

## Azərbaycan Ordusu Ermənistanı təslimçi sülhə məcbur edəcək

*Artıq bir neçə gündür ki, Azərbaycan Ordusu Dağlıq Qarabağda əks-hücum əməliyyatlarını uğurla davam etdirir. Müharibənin davamı Ermənistanın problemlərini artırıb. Ermənistan müharibənin ilk günündən başlayaraq "qan bankına" ehtiyac duyduğunu bəyan edib, yaralıların sayının çox olduğuna görə xəstəxanalara mülki əhalinin qəbulunu dayandırıb, gənclərin Ermənistan xaricinə çıxışına qadağa qoyulub.*

Səh.13


# Unikal

№33 (2028) 3 oktyabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Prezident köməkçisindən Ermənistana xəbərdarlıq

Səh.2



## Ordumuz bütün cəbhə boyu irəliləyir

## Hikmət Hacıyev: "Hücumlar dayandırılmadığı halda..."

*"Azərbaycan Silahlı Qüvvələri çətin iqlim və istehkam şəraitində düşmənə qarşı əks-hücum əməliyyatı həyata keçirir".*

*"Unikal"ın məlumatına görə, bunu brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib. H. Hacıyev deyib ki, 30 il ərzində işğal olunmuş ərazilərdə dərin istehkam sistemləri qurub: "Bəzi yerlərdə bu istehkamların uzunluğu 8-10 metrə çatır. Relyef şəraiti də ağırdır, bildiyiniz kimi həmin yerlər, əsasən dağlıq ərazilərdir. Lakin bu çətinliklərə baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri addım-addım irəliləyir. Əsgərlərimiz düşmənin atəş nöqtələrini susdura-susdura, bəzən də atəş altında irəli gedir.*

Səh.2s

## "Ermənistan həddini çox aşmışdı, cavabını almalı idi"



*Məlum olduğu kimi, sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması barədə qərar verdi.*

Səh.4

## Nazim İbrahimovun "baltaladığı" Azərbaycan diasporu...



*Hələ bu ilin iyulunda, yaxın tariximizə "Tovuz hadisələri" kimi düşən və işğalçı erməni ordusunun növbəti dəfə burnunun əzilməsi ilə müşayiət edilən hadisələr zamanı Azərbaycanın bir çox xarici ölkələrdəki diaspor təşkilatlarının dağınıq, passiv fəaliyyəti cəmiyyətdə, mediada ciddi müzakirə mövzusuna səbəb olmuşdu.*

Səh.6

## "Ermənistanın hərbi itkiləri 1,2 milyard dollardan artıqdır" - Vüsal Qasımlı



*Ermənistanın Azərbaycana qarşı başlatdığı müharibə Ermənistandakı mövcud iqtisadi ressesiyanı dərinləşdirməkdə və mövcud bütün resurslarını məhv etməkdədir. Bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı hazırkı müharibənin dörd günü ərzində...*

Səh.10

# Prezident İlham Əliyev "Əl-Cəzirə" televiziya kanalına müsahibə verib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də "Əl-Cəzirə" televiziya kanalına müsahibə verib.***

"Unikal.org" xəbər verir ki, məlumatı Azərbaycan Prezidentinin Mətbuat Xidməti yayıb.

# "Qarabağ tam azad olunanadək mübarizə davam edəcək" - Ərdoğan

***"İndiyədək cəbhədə uğurla irəliləyən Azərbaycan Ordusu xeyli əraziləri işğaldan azad edib".***

Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. "Türkiyə olaraq bütün qəlbimizlə dost və qardaş Azərbaycanın yanındayıq və yanında olacağıq. İnşallah, Qarabağ işğaldan tam azad olunanadək bu mübarizə davam edəcək", - o vurğulayıb.

# Ceyhun Bayramov fransalı həmkarı ilə danışdı



***Bu ilin 2 oktyabr tarixində Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramov və Fransa Xarici İşlər naziri Jan İv Lö Drian arasında telefon danışığı baş tutub.***

XİN-dən "Unikal"a verilən məlumata görə, Nazir Jan İv Lö Drian bölgədə yaşanan gərginlikdən ciddi narahatlıq ifadə edib. O, gərginliyin aradan qaldırılması və atəşkəsə riayət olunmasının vacibliyini vurğulayıb. Bu xüsusda, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin rəhbərlərinin açıqlamasına istinad edilib.

Nazir Ceyhun Bayramov bu ilin 27 sentyabr tarixində Ermənistan tərəfinin əl atdığı yeni hərbi təcavüzə cavab olaraq, Azərbaycan Silahlı Qüvvələrinin öz beynəlxalq tanınmış sərhədləri çərçivəsində əks həmləni həyata keçirdiyini bildirib. Nazir Ermənistan silahlı qüvvələrinin Azərbaycanlı mülki şəxslərin və mülki infrastrukturun məqsədli şəkildə hədəfə alınmasına və mülki insanlar arasında itkilərin olması faktına diqqəti cəlb edib.

Bunun Ermənistan tərəfindən növbəti dəfə beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması halının olduğunu vurğulayan nazir, dinc əhalinin atəşə tutulmasının Ermənistan rəhbərliyinin terrorçu mahiyyətini göstərdiyini qeyd edib. Nazir bölgədə gərginliyin hələ də davam etdiyini bildirərək, yaranmış vəziyyətin tam məsuliyyətinin Ermənistan siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü qeyd edib.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcivani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Azərbaycanda daha 144 nəfər koronavirusa yoluxdu

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 144 yeni yoluxma faktı qeydə alınıb, 149 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

# Ordumuz bütün cəbhə boyu irəliləyir

***Oktyabrın 2-də gecə ərzində və səhər saatlarında cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları davam edib.***



Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, qoşunlarımız Ağdərə istiqamətində düşmənin Madagiz ətrafındakı hakim yüksəklikləri azad edib və bu məntəqəni nəzarətdə saxlayır. Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edib və irəliləməyə nail olub.

Murov dağı istiqamətində də əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

Saat 00:00-dan 07:00-dək düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilib.

Əldə edilən digər məlumata əsasən, Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən erməni könüllüləri döyüşlərin gərginliyi və itkilərinin çox olmasından qorxaraq müxtəlif bəhanələrlə döyüşdən imtina edirlər. Döyüşlərdə əldə etdiyimiz uğurlar və müxtəlif istiqamətlərdə hakim mövqelərin azad olunması Azərbaycan Ordusunun şəxsi heyəti arasında yüksək döyüş ruhu və qələbə əzmini daha da artırır.

İctimaiyyətə əlavə məlumat veriləcək və videolar təqdim olunacaq.

***İnformasiya siyasəti***

# Prezident köməkçisindən Ermənistana xəbərdarlıq

## Hikmət Hacıyev: "Hücumlar dayandırılmadığı halda..."

***"Azərbaycan Silahlı Qüvvələri çətin iqlim və istehkam şəraitində düşmənə qarşı əks-hücum əməliyyatı həyata keçirir".***



"Unikal"ın məlumatına görə, bunu brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

H. Hacıyev deyib ki, 30 il ərzində işğal olunmuş ərazilərdə dərin istehkam sistemləri qurub: "Bəzi yerlərdə bu istehkamların uzunluğu 8-10 metrə çatır. Relyef şəraiti də ağırdır, bildiyiniz kimi həmin yerlər, əsasən dağlıq ərazilərdir. Lakin bu çətinliklərə baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri addım-addım irəliləyir. Əsgərlərimiz düşmənin atəş nöqtələrini susdura-susdura, bəzən də atəş altında irəli gedir. Ermənistanın uzun illər ərzində qurduğu istehkam sistemləri sıradan çıxarılır. Hazırda Murovda qar var, qış şəraitidir. O çətin iqlim şəraitində, 3300-3500 metr yüksəklikdə əsgərlərimiz torpaqlarımız uğrunda rəşadətlə döyüşür, torpaqlarımızı azad edir. Biz onlarla fəxr edirik. Hamımız bilirik ki, Dağlıq Qarabağ və ətraf ərazilərimiz dağlıq ərazilərdir. Oranın təbii və relyef şəraiti də çox ağırdır. Amma bu maneələrə baxmayaraq Azərbaycan Ordusu irəliləyir". Onun sözlərinə görə, ön cəbhədə olduğu kimi arxada da düşmənin resursu tükədilir.

H. Hacıyev deyib ki, Azərbaycan xalqı dəstək verən dost dövlətləri və riyakarları heç vaxt unutmayacaq: "Azərbaycan dövlətinin işi haqq işidir. Azərbaycan Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılması üçün fəaliyyət həyata keçirir. İşğala son qoyulduqdan sonra regionun inkişafı üçün münbit zəmin yaranacaq".

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, ölkədə ümummilli həmrəylik var: "Torpaqların azad edilməsi Azərbaycan xalqının tələbidir. Azərbaycan xalqının iradəsindən kənar münaqişənin həlli mövcud deyil. Bu xüsusda qardaş Türkiyənin Azərbaycana dəstəyini yüksək qiymətləndiririk. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 30 il ərzində danışıqlar aparılmasına baxmayaraq, torpaqların azad edilmədiyini bildirib. Prezident İlham Əliyevin təşəkkürünü bir daha çatdırırıq. O cümlədən Pakitanın da dəstəyini yüksək qiymətləndiririk. Macarıstan, Türk Şurası, İƏT tərəfindən Azərbaycana dəstəyi yüksək dəyərləndiririk".

"Ermənistan tərəfinə xəbərdarlıq edirik ki, Ermənistan ərazisindən Azərbaycana mülki şəxslərə və obyektlərə hücumlar dayandırılmadığı halda, atəşi həyata keçirən legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görüləcək" - deyən H.Hacıyevin sözlərinə görə, Ermənistan qoşunların təmas xəttində itkilərini gizlətmək üçün fotoşop və digər vasitələrlə saxta məlumatlar hazırlayır və yayır: "Bizim mülki insanlarla işimiz yoxdur. Ermənistan məqsədyönlü şəkildə mülki insanları hədəfə çevirməyə çalışır. Azərbaycanın erməni xalqı ilə işi yoxdur".

"Əməliyyatların gedişi onu göstərir ki, Azərbaycan Ordusu dronlardan, yüksək texnologiyalardan istifadə edərək düşmənin hərbi infrastrukturunu sıradan çıxarır" - deyən H. Hacıyev deyib ki, bu, Ermənistan silahlı qüvvələrinin müqavimətini əsaslı şəkildə sarsıdır: "Ermənistanın silahlı qüvvələrinin əsas logistik, hərbi-sursat anbarlarına ciddi zərbələr vurulub. Bu da Ermənistan silahlı qüvvələrinin bu cəbhədə olan bölmələrinin müqavimətini güclü şəkildə azaldıb. 30 il ərzinə Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində hərbli istehkam sistemləri qurulub, maddi-texniki baza quraşdırılıb. Bunların qısa müddətdə sıradan çıxarılması Ermənistan silahlı qüvvələrinin döyüş müqavimətinin sıradan çıxarılması deməkdir".

"Təəssüf hiss ilə qeyd etmək istərdim ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə xarici jurnalistləri cəlb edərək onları hədəfə çevirir". Bunu da Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. "Həmin ərazilərə Azərbaycanın icazəsi olmadan edilən səfərlər qanunsuzdur. Bu səbəbdən Azərbaycan onların təhlükəsizliyinə cavabdeh deyil", - o qeyd edib.

***İnformasiya şöbəsi***

# Milli Məclisdə Ordumuzun uğurlu döyüşləri müzakirə olundu

## Spiker: “Ordumuzun müzəffər yürüşü sonuncu düşmən əsgəri müqəddəs torpaqlarımızdan qovulana qədər davam etməlidir”

***Oktyabrın 2-də Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirildi. İclası açan Parlamentin Sədri Sahibə Qafarova əvvəlcə Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatlar, ölkəmizin haqq savaşı, şanlı ordumuzun zəfər yürüşü ilə bağlı fikirlərini bildirdi.***

Spiker bildirdi ki, bu gün hamının ürəyi azadlıq mübarizəsi aparan ordumuzun yanındadır. İndiyədək düşmənin çoxlu sayda canlı qüvvəsi məhv edilib, yüzlərlə tankı, artilleriya qurğusu, hava hücumundan müdafiə vasitəsi və hərbi texnikası sıradan çıxarılıb. Bu zəfər mücadiləsində şəhidlərimizə Allahdan rəhmət, yaralanan insanlarımıza şəfa diləyən Sahibə Qafarova Azərbaycan silahlı qüvvələrinin əks-hücum əməliyyatlarını uğurla davam etdirdiklərini, hər gün cəbhənin müxtəlif istiqamətlərində erməni işğalçılarına ağır zərbələr endirdiklərini qürurla dilə gətirdi. Sədr onu da vurğuladı ki, Azərbaycan ordusunun uğurlarını görən bəzi beynəlxalq güclər artıq narahat olmağa başlayıblar. Vaxtı ilə heç bir iş görməyən, bu məsələyə laqeyd yanaşan bəzi ölkələr və beynəlxalq təşkilatlar indi müxtəlif bəyanatlar verir, danışıqlar aparır, dövlətimizə təzyiq göstərib haqq yolundan döndərməyə çalışırlar. Spiker haqq işimizə mane olmağa cəhd göstərən belələrinə cavab olaraq, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bu fikirlərini xatırlatdı: “Biz tarixi ədaləti bərpa edirik! Qarabağ bizim doğma, əzəli və tarixi torpağımızdır. Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Demişdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmazsa, Azərbaycanın tam haqqı var ki, məsələ hərbi yolla öz həllini tapsın. Bu haqqı bizə Azərbaycan xalqı verib, bu haqqı bizə beynəlxalq hüquq normaları verib”.

Milli Məclisin Sədri sonda vurğuladı ki, hamımızın fikri eynidir. Ordumuzun müzəffər yürüşü Azərbaycanın ərazi bütövlüyü bərpa edilənə, sonuncu düşmən əsgəri müqəddəs torpaqlarımızdan qovulana qədər davam etməlidir. Biz də, bütün xalqımız da əmindir ki, belə də olacaq, bu zəfər savaşı Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə başa çatacaq! Sahibə Qafarovanın fikirləri millət vəkilləri tərəfindən alqışlarla qarşılandı.

Gündəliyin təsdiqindən sonra cari məsələlərlə bağlı müzakirələr keçirildi.

Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, komitə sədrləri Zahid Oruc, Qənirə Paşayeva, Səməd Seyidov, Siyavuş Novruzov, deputatlardan Fazil Mustafa, Arzu Nağıyev, Sevil Mikayılova, Kamal Cəfərov, Elşən Musayev, Nigar Arpadarai, Tural Gəncəliyev, Razi Nurullayev, Bəhruz Məhərrəmov, Şahin İsmayılov, Azay Quliyev və Naqif Həmzəyev çıxış edərək, əsgər və zabitlərimizin yanında olduqlarını, onların xaqlımıza qələbə sevinci yaşadacaqları günün uzaqda olmadığını bəyan etdilər. Çıxış edən Milli Məclis üzvləri birmənalı olaraq Fransa hökumətinin Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində tutduğu mövqeyə kəskin etiraz bildirdilər. Qeyd edildi ki, ki, Fransa ATƏT-in MInsk qrupunun həmsədri kimi mandatına uyğun hərəkət etmir.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, gündəliyə parlamentin sentyabrın 30-da keçirilən iclasında birinci oxunuşda müzakirədən keçən 14 qanun layihəsinin ikinci oxunuşda müzakirəsi daxil edilib.



Əvvəlcə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “Azərbaycan Dəmir Yollarının 140 illiyi (1880-2020)” yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda müzakirəyə təqdim etdi.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini şərh etdi. Millət vəkili bildirdi ki, Azərbaycan Prezidenti 28 dekabr 2018-ci ildə tikinti obyektlərinə tikintiyə icazə və obyektin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb. Tikintiyə dövlət nəzarəti prosedurlarında nəzərdə tutulan sadələşdirmələrlə əlaqədar müvafiq qanunların təkmilləşdirilməsi ilə əlaqədar təkliflərin hazırlanması barədə Nazirlər Kabinetinə tapşırıq verilib. Təqdim edilən qanun layihəsi həmin təkmilləşdirilməyə dair təklifləri nəzərdə tutur. Nurlan Həsənov sənədin birinci oxunuşu zamanı heç bir təklifin qeydə alınmadığını dedi. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda təsdiqləndi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda təqdim etdi. Bildirildi ki, qanun layihəsi daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya birinci dərəcə əlilliyi olan şəxsə baxan, onunla birlikdə yaşayan valideynin, arvadın (ərin), himayəçinin və ya qəyyumun gəlirlərinin gəlir vergisindən azad olunan hissəsinin artırılaraq 200 manat məbləğində müəyyən edilməsini, güzəşt tətbiq olunan kateqoriyaya sağlamlıq imkanları məhdud uşaqları övladlığa götürən şəxslərin də aid edilməsini nəzərdə tutur. Deputat sənədin birinci oxunuşda müzakirəsindən sonra heç bir təklif və ya iradın qeydə alınmadığını vurğuladı. Milli Məclisin komitə sədri Hicran Hüseynova və deputat Məlahət İbrahimqızı qanun layihəsi ilə bağlı fikirlərini bildirdilər. Sənəd səsvermə yolu ilə təsdiqləndi.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev “Təhsil haqqında” qanunda dəyişiklik edilməsi barədə məsələ ilə bağlı bildirdi ki, layihə “Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanına uyğun olaraq hazırlanıb. Düzəliş övladlığa götürülən uşaqların təhsil xərclərinin dövlət vəsaiti hesabına ödənilməsini ehtiva edir. Bu, ölkəmizdə övladlığa götürməni, xüsusilə az və orta təminatlı ailələr tərəfindən valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsini təşviq edəcək. Millət vəkilləri Əli Məsimli, Məlahət İbrahimqızı və Kəmaləddin Qafarov qanun layihəsi ilə bağlı fikirlərini bildirdilər, valideyn himayəsindən məhrum olan uşaqlarla bağlı dövlətin üzərinə götürdüyü vəzifələri yüksək humanistlik kimi dəyərləndirdilər. Sənəd səsə qoyularaq ikinci oxunuşda qəbul edildi.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) sənədi şərh edərkən vurğuladı ki, bu qanun layihəsi də valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıyır. Təklif olunan qanun layihəsinə əsasən övladlığa götürülmüş uşaqların dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində və ali məktəblərin magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət hesabına ödənilməsi nəzərdə tutulur. Komitə sədri bildirdi ki, sənədin Milli Məclisdə birinci oxunuşu zamanı yeni heç bir təklif qeydə alınmayıb. Qanun layihəsi səsə qoyularaq təsdiqləndi.

İlham Məmmədov Əmək, Cinayət və İnzibati Xətalar Məcəllələrinə, “Uşaq hüquqları haqqında” qanuna təklif edilən dəyişiklikləri ikinci oxunuşda təqdim edərkən bildirdi ki, layihə “Gənclər siyasəti haqqında” qanuna dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğunlaşdırma xarakteri daşıyır. Layihə səsvermə yolu ilə təsdiq edildi.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Mülki Prosessual, Cinayət, Miqrasiya və İnzibati Xətalar Məcəllələrə, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” və “Nağdsız hesablaşmalar haqqında” qanunlara (ikinci oxunuş) təklif edilən dəyişikliklərin “Vergi Məcəlləsinə dəyişiklik edilməsi barədə” 30 noyabr 2018-ci il tarixli qanun layihəsinə uyğunlaşdırma məqsədi ilə hazırlandığını bildirdi. Deputat bildirdi ki, qanun layihəsinin birinci oxunuşda müzakirəsindən sonra komitəyə heç bir yeni təklif və irad daxil olmayıb. Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşa təqdim etdi. Bildirildi ki, təklif olunan dəyişikliklər məcburi nişanlama malların uçotdan yayındırılmasının, saxta məhsulların bazara daxil olmasının qarşısının alınması məqsədilə onlara məcburi nişanlama kodunun və digər qoruyucu elementlərin vurulması məqsədi ilə hazırlanıb. O, parlamentin diqqətinə çatdırdı ki, sənədin ilk oxunuşda müzakirəsi zamanı millət vəkili Hikmət Məmmədov terminologiya ilə bağlı təkliflər səsləndirib. Əli Məsimli bununla bağlı sənədin mətnində terminoloji cəhətdən anlaşılmazlıq yaradan məqamlara aydınlıq gətirdi. Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

Əmək və sosial siyasət komitəsinin üzvü İlham Məmmədov Əmək Məcəlləsində, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Təhsil haqqında”, “Məktəbəqədər təhsil haqqında”, “Peşə təhsili haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Ümumi təhsil haqqında” qanunlarda dəyişiklik edilməsi barədə sənədi təqdim etdi. Birinci oxunuşdan sonra qanun layihəsi üzərində heç bir düzəlişin aparılmadığı diqqətə çatdırıldı. Qanun layihəsi səsə qoyularaq təsdiqləndi.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “Publik hüquqi şəxslər haqqında” qanunda dəyişiklik edilməsi barədə sənədlə əlaqədar məlumatında qeyd etdi ki, təklif olunan dəyişikliyə əsasən publik hüquqi şəxsin təsisçisi onun strukturu və işçilərin say həddi ilə yanaşı, əmək haqqı fondunun həcmini də təsdiq edəcəkdir. Sənəd səsə qoyularaq ikinci oxunuşda təsdiqləndi.

Bununla da Milli Məclis bugünkü işini yekunlaşdırdı.

***Hüseyn İsgəndərov***

# "Ermənistan həddini çox aşmışdı, cavabını almalı idi"

## Akif Nağı: "Azərbaycanın bir şərti var: ərazi bütövlüyümüz təmin olunsun, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın"

***Məlum olduğu kimi, sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması barədə qərar verdi. Ordumuz 7 yaşayış məntəqəsini və bir neçə mühüm yüksəklikləri işğaldan azad etdi. Artıq ölkənin ictimai-siyasi arenasında da bütün diqqət cəbhəyə yönəlib. "Unikal" qəzetinə müsahibə verən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı da Vətən Müharibəsinin başladığını və qısa müddətdə qalib gələcəyimizdən əmin olduğunu bildirib.***

***-Akif bəy, uzun illərdir Qarabağ uğrunda savaş istəyirdiniz, artıq proses başladı. Hazırkı durumu necə dəyərləndirirsiniz?***

-İllərdir gözlədiyimiz, həsrətini çəkdiyimiz gün gəlib çatıb. Biz uzun illərdir ki, müharibənin başlamasını gözləyirdik, çünki bu məsələnin başqa yolunun olmadığını düşünürdük. Təbii ki, əsas hədəfimiz və istədiyimiz torpaqlarımızın işğaldan azad olunmasıdır. Amma torpaqların işğaldan azad olunması üçün müharibə başlamalı idi. Unutmayaq ki, müharibə də ağır bir işdir. Şükrlər olsun ki, ciddi hazırlıq işi həyata keçiriləndən sonra həm daxili, həm xarici amillər nəzərə alınmaqla bu addım atıldı. Onu da xüsusi ilə qeyd etməliyəm ki, biz müharibəni ermənilərin təxribatına cavab olaraq başlamışıq. Ermənistan həddini çox aşmışdı, cavabını almalı idi. Həm başqa ölkənin torpaqlarını işğal eləmişdilər, həm də qıcıqlandırıcı ritorika ilə danışırdılar. İşğal olunmuş ərazilərimizdə müxtəlif oyunbazlıqlar eləmək, Azərbaycanı hədələmək və digər hərəkətlər edirdilər. İndi hansısa deşiyə girən müdafiə nazirləri Tonoyan ərazi iddialarında bulunurdu. Təbii ki, bu təxribatlar cavabsız qalmamalı deyildi. Əslində, təxribat olmasa da, biz uzunmüddətli işğalla, mənasız danışıqlarla kifayətlənməməli idik.

***-Adətən cəbhə bölgəsinə səfərləriniz olurdu. Son günlər necə bölgədə olmusunuzmu, nələri müşahidə eləmisiz?***

-Bir neçə gün cəbhə bölgəsində olduq, insanlarla görüşdük, imkan daxilində hərbiçilərimizlə maraqlandıq. Əhval-ruhiyyə həddindən artıq yüksəkdir. İnsanlarda bir coşqu var və deyirlər ki, biz ordumuzun güclü olduğunu bilirdik, amma bu səviyyədə mobil, nizamlı və qüdrətli olduğunu təsəvvür eləmirdik. Sakinlərdə heç bir panika yoxdur. Tutaq ki, 100-200 metr aralıya mərmi düşür, amma insanlar bunu adi qarşılayırlar, qorxmurlar. Ölümün gözünə dik baxan millət bəlkə də yoxdur. Ordu öz işini bilir və üzərinə düşən vəzifəni şərəflə yerinə yetirir, biz onların işinə qarışa bilmərik. Müşahidələrimiz onu deyir ki, ordumuz düşmənin çox ciddi müdafiə istehkamlarını yara-yara irəliləyir.

***-Məlum olduğu kimi, qismən səfərbərlik elan edilib, insanlar orduya yazılır və döyüşə yola düşür. Ümumiyyətlə, arxa cəbhədəki vəziyyətlə bağlı nə düşünürsünüz?***

-Hərbi çağırışla bağlı qanunda hər kəsin üzərinə məsuliyyət düşür. Biz həm fərd olaraq, üzərimizə qoyulan vəzifəni yerinə yetirməyə çalışırıq, həm də Qarabağ Azadlıq Təşkilatı olaraq əlimizdən gələni edirik. Bu da o deməkdir ki, hər kəs ayıq, diqqətli olmalıdır, təxribatlara imkan verilməməlidir. Çünki düşmən tərəf müxtəlif vasitələrlə çaşqınlıq yaratmağa çalışırlar. Qarabağ Azadlıq Təşkilatının bütün rayon şöbələrinə tapşırıqlar verilib ki, hər kəs öz yerində bu istiqamətdə təbliğat aparsın. Hesab edirəm ki, dövlət strukturları da yüksək səviyyədə çalışırlar. Bildiyiniz kimi, komendant saatı tətbiq edilib. Ən müsbət məqam odur ki, insanlar bütün qaydalara əməl edirlər. Aidiyyatı dövlət qurumları ciddi təhlükəsizlik tədbirləri həyata keçirirlər. Metrolarda və digər ictimai yerlərdə yoxlama işləri həyata keçirirlər. Harda bir təxribat ola bilərsə, ona qarşı ciddi tədbirlər həyata keçirilir. Müsbət məqam odur ki, insanlarımız nizamla müharibə qaydalarına əməl edirlər. Artıq insanlar şüurlu şəkildə anlayırlar ki, qayda-qanuna əməl etmək lazımdır.

***-Siyasi partiyalar da vahid mövqedən çıxış etməkdədirlər. Siyasilərin bu həmrəyliyi yetərli səviyyədədirmi?***

-Sevindiricidir ki, hər kəs eyni mövqedən çıxış edirlər. Siyasi partiyaların böyük əksəriyyəti bəyanatla çıxış etdilər, dövlətin, ordunun yanında olduqlarını bəyan etdilər. İki partiya fərqli mövqe tutdu, onlar da həmişə fəqrli mövqedən çıxış edirlər. Amma inanmıram ki, onlar da ümummilli məsələlərdə vahid mövqedən çıxış etməkdən imtina eləsinlər. Bəzən görürsən ki, bizim bəzi siyasi təşkilatlarımız, xüsusən də Qərblə bağlı olan partiyalarımız fərqli mövqelərdən çıxış edirlər, özlərini qlobalist kimi göstərirlər. Mən inanmaq istəmirəm ki, onlar Qərbdən hansısa sifariş gözləsinlər ki, mövqelərini ifadə etsinlər. Çünki Qərbin mövqeyinə də diqqət yetirəndə görürsən ki, Azərbaycanın haqlı mövqeyinə uyğun deyil. Amma ümummilli məsələlərdə bütün siyasi qüvvələr, ümumən cəmiyyət vahid mövqedən çıxış etməlidirlər. Kim liberaldır, kim kommunistdir, bu məsələlər arxa plana keçməlidir.



"Artıq beynəlxalq təşkilatlar da, böyük dövlətlər də Azərbaycanın haqlı mövqeyini başa düşürlər və qəbul edirlər"

***-Yerigəlmişkən beynəlxalq təşkilatların, bəzi dövlətlərin Qarabağ cəbhəsində baş verənlərlə bağlı mövqelərini necə dəyərləndirirsiniz? Ermənistanın təxribatlarına, son dövrlər verdiyi təxribatçı bəyanatlarına adekvat cavab vermirdilər, amma indi əl-ayağa düşüblər. Sizcə, niyə belə narahatdırlar?***

-Azərbaycan Prezidenti onların hamısına bütün cəmiyyətin adından lazımi cavab verdi. BMT-nin baş katibinin illərdir Qarabağ yadına düşmürdü. Azərbaycan Ordusu öz gücünü göstərən kimi o dəqiqə narahat olmağa başladı. Azərbaycan və Ermənistan rəhbərliyini videokonfransa dəvət elədi. Təhlükəsizlik Şurasının ayrıca toplantısı keçirildi. Avropa Şurası da, ATƏT də, Avropa Birliyi də analoji yanaşma sərgiləyirlər. İndiyə qədər Azərbaycanın torpaqları işğal altında idi, BMT-nin 4 qətnaməsi var idi, beynəlxalq hüquq pozulmuşdu, amma bu təşkilatlar, bu dövlətlər ikili standartla yanaşırdılar. Azərbaycanın torpaqları 30 ildir işğal altındadır, amma beynəlxalq təşkilatların vecinə deyildi, indi öz ərazi bütövlüyümüzü təmin etmək üçün döyüşlərə başlamışıq hərəsi bir tərəfdən narahat olduğunu bəyan edir. Prezident İlham Əliyev bu mövqeyini hər dəfə ifadə edirdi. Səhv etmirəmsə, ayın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edərkən açıq şəkildə bildirib ki, Ermənistan müharibəyə hazırlaşır, biz onların cavabını verəcəyik. Yəni, bu məsələ bütün beynəlxalq təşkilatlara deyilib, indi də deyilənlər gerçəkləşdirilir. Azərbaycanın bir şərti var: ərazi bütövlüyümüz təmin olunsun, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın. Ondan sonra sülh ola bilər. Bu gün ATƏT-in Minsk Qrupu, beynəlxalq təşkilatlar, yaxuddakı digər dövlətlər müharibənin dayanmasını istəyirlərsə, Azərbaycanın şərtini yerinə yetirməlidirlər. Görürsünüz ki, ciddi məsləhətləşmələr gedir. Rusiyanın Xarici işlər naziri, Prezidenti, Fransa prezidenti, beynəlxalq təşkilatlar öz aralarında görüşürlər, danışırlar. Amma bir məqam hiss olunur ki, diqqəti əsas məsələdən yayındırmağa çalışırlar. Daha çox Türkiyənin adını hallandırırlar. Əsas məsələ kənarda qalıb düşüblər, Türkiyə filan məsləyə belə münasibət göstərdi və sair. Erməni təxribatından danışmırlar, amma Türkiyənin dəstəyini görən kimi əlli yerə yozurlar. Ola bilsin ki, Türkiyəni vurmaq məqsədini gerçəkləşdirmək istəyirlər. Yəni, yenə də obyektiv deyillər, işğalçı yox, ərazi bütövlüyünü təmin etmək istəyən qüvvəni günahkar çıxarmağa çalışırlar. Amma bu əks-hücum bir şeyi də sübut elədi. İllərdir ki, belə bir düşüncə var idi ki, biz müharibəyə başlayarıqsa, bütün dünya bizə qarşı olacaq, təzyiqlər edəcək. Artıq ortada iradə var, öz haqq savaşımıza başlamışıq və ciddi təzyiq filan da yoxdur. Artıq beynəlxalq təşkilatlar da, böyük dövlətlər də Azərbaycanın haqlı mövqeyini başa düşürlər və qəbul edirlər. Biz də bu vəziyyətdən yararlanıb öz torpaqlarımızı işğaldan azad etməliyik.

***Z.Məmmədli***

# Səlim Müslümovun "korrupsiya mirası"

## Azərbaycanda daha bir nazirlik rüşvət və yeyintidən təmizlənir



***Azərbaycanda son vaxtlar rüşvət və korrupsiyaya qarşı daha da güclənən mübarizə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən də (ƏƏSMN) yan keçməyib. Belə ki, axır bir neçə ayda bu nazirliyin müxtəlif vəzifəli şəxsləri həbs olunub. Bir sözlə, ƏƏSMN hazırda rüşvət və yeyintidən təmizlənən dövlət qurumlarının ön sıralarında dayanır.***

Bu günlərdə tanınmış iqtisadçı alim Qubad İbadoğlu da azmarka.az saytına açıqlamasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindəki ”təmizləməyə” diqqət çəkərək bildirib ki, son zamanlar həbs edilən məmurların bir çoxu adıçəkilən qurumda çalışan müfəttişlərdir ki, onlar da ünvanlı sosial yardımın ayrılması, pensiyaların müəyyənləşdirilməsi və digər bu kimi sahədə ehtiyacları olan insanların sosial təminat siyasətinin həyata keçirilməsi ilə bağlı qərar qəbul edirlər. Bu mexanizm təkmil olmadığı və eyni zamanda həmin şəxslərin əmək haqları aşağı olduğu üçün sözügedən sistemdə rüşvətxorluq hələ də davam etməkdədir. Odur ki, ƏƏSMN-də həbslərin davamlı olacağını düşünən ekspertin sözlərini başqa ekspertlər də bölüşür. Onların fikrincə, bu ”təmizləmə”, eyni zamanda, təqdirəlayiqdir və həmin nazirliyin şəffaf fəaliyyətinə yönəlik addımların bir parçasıdır.

Ekspertlər bildirirlər ki, Səlim Müslümovun bu nazirliyə rəhbərlik etdiyi dövr neqativ məqamlarla zəngin olub. Elə həmin dövrdə mətbuatın, iqtisadçıların, vətəndaş cəmiyyəti nümayəndələrinin tənqidlərindən tutmuş sadə vətəndaşların şikayətlərinəcən çoxsaylı faktlar da deyilənləri təsdiqləyir.

Məsələn, Müslümov nazir təyinatı aldıqdan bir müddət sonra əlilliyin təyinatı və sair sahələrdə müəyyən dəyişikliklər həyata keçirildi. Hər kəs bu dəyişikliklərdən müsbət nəticə gözləyirdi. Lakin biz nəyin şahidi olduq? Nəinki rüşvətxorluğun, qeyri-qanuni ödənişlərin kökü kəsildi, əslində daha geniş miqyas aldı. Həqiqətən əlil olan şəxslərin əlilliyinin təsdiqi prosesi çətinləşdi. Eyni zamanda Qarabağ müharibəsində əlil olan şəxslərin avtomobil, mənzil növbəsinə götürülməsi prosesi, demək olar ki, tamamən dayandırıldı. Bütün bunların fonunda isə Müzlümov və ətrafındakılar daha da varlandılar. Və ya gəlin sabiq nazir və zifədən kənarlaşdırıldıqdan sonra onun var-dövləti, mülkləri, ticarət obyektləri ilə bağlı yerli kütləvi informasiya vasitələrində yer alan iddiaları, siyahıları xatırlayaq. Yaxud, elə təkcə Dövlət Sosial Müdafiə Fondundan böyük həcmdə vəsaitin yoxa çıxdığı barədə xəbərləri yada salaq. Həmin xəbərlərdə bir zamanlar onun özünün də uzun illər rəhbərlik etdiyi, nazir təyin edildikdən sonra isə yenə də birbaşa nəzarətdə saxladığı bu qurumda yaradılmış kirli mexanizm əsasında nə az, nə çox, düz 2-2,5 milyard manatlıq vəsaitin yoxa çıxarıldığı deyilirdi. Məlum olmuşdu ki, həmin mexanizm Müslümov nazir postunu itirdikdən aylar sonra Fondda aparılan yoxlamalar zamanı ifşa edilib. Bundan başqa, Səlim Müslümovun oğlu Turqay Müslümlünün Edinburq Universitetini başa vurduqdan sonra biznesə girişdiyi, təkcə 2017-ci ilin noyabrın 23-də Vergilər Nazirliyinin Bakı Şəhəri Lokal Gəlirlər Baş İdarəsində 4 şirkət qeydiyyatdan keçirdiyi aydınlaşmamışdımı? Bu şirkətlərin sabiq nazir oğlunun yaşadığı ünvanda - Binəqədi rayonu, Ziya Bünyadov, ev 7A-da hüquqi qeydiyyata alındığı faş olmamışdımı? S.Müslümov və oğlu sizcə, belə geniş biznes şəbəkəsini, daşınar və daşınmaz əmlakları nəyin sayəsində əldə etmişdilər - nazir maaşınınmı?

Əlbəttə ki, əsla! Məhz ƏƏSMN-də ”yaşıl işıq” yandırılmış rüşvət və korrupsiya, müxtəlif adlar altında edilən qeyri-qanuni ödənişlər hesabına! Bu gün adıçəkilən nazirlik məhz Müslümovun qoyub getdiyi mənimsəmə, yeyinti ”miras”ından təmizlənir. Bir zamanlar adiləşən korrupsiya əməlləri sərt cəza metodları sayəsində aradan qaldırılır, şəffaflıq, vətəndaşa xidmət ön plana çıxır.

Ümumilikdə götürdükdə isə kimsəyə sirr deyil ki, ölkədə aparılan genişmiqyaslı islahatlar çərçivəsində yüksək vəzifəyə gətirilən yeni kadrların qarşısında dayanan mühüm vəzifələrdən biri də rəhbər təyin edildikləri nazirliklərdə, digər dövlət qurumlarında özlərindən əvvəlki rəhbərlərin qoyub getdikləri zərərli tendensiyaları, ilk növbədə isə rüşvət, yeyinti ”mirasını” aradan qaldırmaqdır. Kimlərsə hələ də ”köhnə hamam, köhnə tas” prinsipi ilə işləyirsə, büdcə pullarına mənimsəmə predmeti kimi baxırsa, rüşvətdən əl çəkmək istəmirsə, belələrinə güzəştsiz davranmaq lazımdır. Belələri başa düşməlidirlər ki, artıq Səlim Müslümovların, Əbülfəs Qarayevlərin müəyyənləşdirdiyi ”prinsiplər”lə çalışmaq dövrü arxada qalıb!

***Orxan Həsənli***

# Tural Gəncəliyev: “Əgər onun doğulub böyüdüyü şəhər işğal olunsaydı, nə edərdi?"



***“Azərbaycanın Silahlı Qüvvələri cəbhəboyu əməliyyatlar həyata keçirərkən Fransa Prezidenti Makron və digər fransız siyasətçilərin ölkəmizə qarşı fikirləri qəbul edilmir, biz bu fikirləri rədd edirik”.***

APA-nın məlumatına görə, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Tural Gəncəliyev deyib.

O, parlament kürsüsündən Makrona müraciət edib: “Əgər onun doğub böyüdüyü şəhər işğal olunsaydı, nə edərdi?! Fransanın səfiri ilə görüşlərimizdə də dəfələrlə o, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirib. Bəs indi niyə Makronun fikri dəyişib? Şübhəsiz ki, bunun arxasında ermənipərəst qüvvələr və erməni lobbisi durur. Makron bu bəyanatı ilə göstərdi ki, ATƏT-in Minsk qrupunun həmsədrliyi formatına yenidən baxılmalıdır. ATƏT-in Minsk Qrupunun həmsədrliyi institutu heç kimin monopoliyası deyil. Fransa buradan dərhal uzaqlaşdırılmalıdır. Çünki heç yerdə yazılmayıb ki, 3 həmsədr ölkə daimi seçilir”.

# “Sevə bilmirsinizsə, heç olmasa, nifrət püskürməyin" - İqbal Ağazadədən Mirşahinə



***“Mirşahin bu gün hazırladığı reportajda 1992-ci il döyüşçülərini məğlubiyyət əsgərləri adlandırıb. Hesab edirəm ki, bu, böyük yanlışlıqdır və növbəti reportajlarında mütləq bu səhvini düzəldəcək. Yox, əgər düzəltməzsə, yazdıqlarımı oxusun və bir də düşünsün Mirşahin bəy”.***

Unikal.org xəbər verir ki, bu barədə Ümid Partiyasının sədri İqbal Ağazadə özünün “facebook” səhifəsində yazıb.

“Əsgər heç vaxt məğlub olmur, döyüşü ya siyasətçilər, ya da sərkərdələr (komandirlər) uduzur, hörmətli Mirşahin bəy. Şəhid məğlub olmur, o həmişə əbədi qəhrəmandır! 1992-ci ildə Vətən uğrunda iyirmi min şəhid vermişik. Bugün qəhrəmanlıq göstərən əsgərimiz dünənki şəhidin, qazinin övladıdır. Siz Vətən uğrunda döyüşmüş əsgərə necə ”məğlubiyyət əsgəri” damğası vura bilirsiniz?

O haqq kimsəyə verilməyib!

Bu, Vətənə xidmət deyil, bölücülükdür. Bu, şəhidlərimizin ruhuna xəyanətdir. Bugün vətənpərvərlik təbliğatı aparan, insanları döyüşə səsləyən qazilərimizə həqarətdir.

Etməyin belə, bununla bütövləşən millətimizi incidirsiniz, şəhidlərimizin ruhuna toxunursunuz, ayağını, əlini itirmiş, bircə qazilik ümidilə yaşayan keçmiş döyüşçünü əzirsiniz.

Sevə bilmirsinizsə, heç olmasa, nifrət püskürməyin. İnsanların Sizə olan münasibətində kimsə günahkar deyil.

P.S. İnanmaq istəyirəm ki, sizin bu mövqeyinizi heç hakimiyyət də sevmədi. Və mütləq bu səhvinizi düzəltməniz üçün sizə irad bildiriləcək”, - deyə İ.Ağazadə yazıb.

# "Grystal Group of Companies"dan Silahlı Qüvvələrə DƏSTƏK

***Ermənistan silahlı birləşmələrinin işğal etdikləri vətən torpaqlarının azad esilməsi uğrunda şiddətli və davamlı döyüşlər aparan şanlı Azərbaycan Ordusuna maddi və mənəvi dəstək vermək məqsədilə ” Grystal Group of Companies” ASC tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fonduna 10 000 manat məbləğində pul köçürülüb.***

Şirkətdən Unikal.org-a bildirilib ki, sosial məsuliyyətdən irəli gələn bu missiyanı yerinə yetirməkdən və şanlı ordumuzun yanında olmaqdan qürur duyurlar.

# Dağlıq Qarabağ Azərbaycan ərazisidir - Macarıstan XİN

***Sentyabrın 27-də rəsmi olaraq Azərbaycan ərazisinin bir hissəsi olan, lakin ermənilərin nəzarətində olan Dağlıq Qarabağ bölgəsində döyüşlər yenidən başlayıb və bu, bir sıra mülki və hərbi itkilərə səbəb olub.***

“Unikal”ın xəbərinə görə, bu, Macarıstan Xarici İşlər və Ticarət Nazirliyinin açıqlamasında əksini tapıb.

Bildirilib ki, Dağlıq Qarabağ Azərbaycanın sərhədləri daxilində olduğu üçün Macarıstan münaqişədə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.



“Dağlıq Qarabağ bölgəsi rəsmi olaraq Azərbaycanın ərazisidir. 1988-94-cü illərdə keçmiş sovet respublikaları Ermənistan və Azərbaycan arasında bölgə uğrunda müharibə gedib. Ermənistan qondarma respublikanı dəstəkləsə də, heç vaxt rəsmi olaraq onu tanımayıb. Ötən bazar günü başlayan döyüşlər 1994-cü ildən bəri ən ağır döyüşlərdir. Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilindədir və Macarıstan beynəlxalq hüququn ümumi prinsipi olaraq dövlətlərin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Macarıstan Dağlıq Qarabağda getdikcə artan gərginliyin azaldılmasını və münaqişənin ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri çərçivəsində danışıqlar yolu ilə həllini dəstəkləyir”, - qeyd olunub.



## Ermənilərin ziyan vurduğu yaşayış evlərinin sayı AÇIQLANDI

***Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.***

Baş Prokurorluqdan "Unikal"a verilən məlumata görə, düşmənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmiş, 19 nəfər şəxs isə həlak olmuşdur.

Bundan başqa, Ermənistan hərbi birləşmələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 175 yaşayış evinə, həmçinin, 41 mülki obyektə külli miqdarda ziyan vurulmuş, eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşmüş, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olmuşdur.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün bütün zəruri tədbirlərin görülməsi təmin ediləcəkdir.

***Famil***

## "ATƏT-in Minsk qrupunun formatı dəyişdirilməlidir!" - Səməd Seyidov

***"ATƏT-in Minsk Qrupunun 3 həmsədri ötən gün hımsədrlər səviyyəsində deyil, 3 dövlət başçısı kimi bəyanatla çıxış ediblər. Artıq bəzi dövlət başçıları Roma papasından daha çox katolik olmağa cəhd edir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Səməd Seyidov deyib.

O bildirib ki, bu bəyanatlar bölgədə sülhə töhfə verməyə xidmət etmir:

"Makronun son açıqlamaları bu qəbildəndir. Makron deyir ki, "Qarabağın Azərbaycan tərəfindən yenidən ələ keçirilməsini qəbul etməyəcəyik". Bu, nə deməkdir?! Qarabağ Azərbaycan torpağıdır. Azərbaycan torpağının işğalçıdan azad olunması Azərbaycan xalqının haqqıdır və beynəlxalq hüququn tələbidir. Son hadisələr göstərir ki, ATƏT-in Minsk qrupunun formatı dəyişdirilməlidir. Fransa ATƏT-in Minsk Qrupunun həmsədrliyindən çəkilməlidir. Bu ölkə Azərbaycan münasibətlərinə yenidən baxılmalıdır. Və sonuncusu Azərbaycanın hərbi əməliyyatları davam etdirməsi bu cür bəyanatlara ən yaxşı cavab olacaq".

# Nazim İbrahimovun "baltaladığı" Azərbaycan diasporu...

## Keçmiş sədrin fəaliyyəti o qədər yarıtmaz olub ki, bir çox problemləri hələ də aradan qaldırmq mümkün deyil

***Hələ bu ilin iyulunda, yaxın tariximizə "Tovuz hadisələri" kimi düşən və işğalçı erməni ordusunun növbəti dəfə burnunun əzilməsi ilə müşayiət edilən hadisələr zamanı Azərbaycanın bir çox xarici ölkələrdəki diaspor təşkilatlarının dağınıq, passiv fəaliyyəti cəmiyyətdə, mediada ciddi müzakirə mövzusuna səbəb olmuşdu. Düzdür, bəzi ölkələrdəki diaspor quruluşlarımız özlərini müsbət tərəfdən yetərincə göstərmiş, həmin ölkələrdəki erməni diasporlarının təxribatçı, qudurğan hərəkətlərinə layiqli cavab vermişdilər. Bu isə Azərbaycanın diaspor sahəsində məsul olan qurumunun - aidiyyatı Dövlət Komitəsinin son iki ildəki doğru işlərinin nəticəsi kimi qiymətləndirilmişdi.***



Lakin bir çox diaspor quruluşlarımızın hələ də təşkilatlanma, istərsə də prosesləri düzgün qiymətləndirmə baxımından istənilən səviyyədə olmaması diqqət çəkmişdi.

Elə ötən bazar günündən etibarən cəbhə xəttində vəziyyətin yenidən gərginləşməsi də bu mövzunu yenidən gündəmə gətirib.

Müasir dövrdə müharibə yalnız ön xəttdə, səngərdə aparılmır. Savaş həm də informasiya müharibəsi ilə müşayiət olunur. Bu mənada diaspor təşkilatlarımızın da üzərinə böyük yük düşür. Onlar işğalçı Ermənistanın təcavüzkar siyasətini ayrı-ayrı xarici ölkələrin yerli ictimaiyyətlərinə daha yaxından, dolğun şəkildə anlatmaq baxımından ciddi çalışmalı, həmin ölkələrin cəmiyyətində və mətbuatında baş verənlərin obyektiv əks-sədasını təmin etmək baxımından fəallıqlarını qatbaqat artırmalıdırlar. Doğrusunu qeyd etmək lazımdırsa, bir neçə il əvvəllə müqayisədə indi həmin çalışqanlığın, aktivliyin daha çox şahidi oluruq.

Ancaq yenə də passiv diaspor quruluşlarımızın az olmadığı da gözə dəyir. Belə görünür ki, Nazim İbrahimovun Diasporla İş üzrə Dövlət Komitəsinə rəhbərlik etdiyi dövrdəki işi o qədər yarıtmaz olub ki, illərcə üst-üstə yığılan problemləri iki-üç il ərzində aradan qaldırmaq, xaricdəki soydaşlarımızın tam mütəşəkkil şəkildə, planlı-proqramlı fəaliyyətini təmin etmək hələ də mümkünsüzdür. Başı diaspor sahəsinin gücləndirilməsi üçün ayrılan dövlət vəsaitlərini talan etməyə, havaya sovurmağa qarışan, həmin vəsaitlər hesabına şəxsi biznesini xeyli böyüdən İbrahimovun adıçəkilən Dövlət Komitəsinə rəhbərlik etdiyi dövrdə həqiqətən xoşagəlməz vəziyyət yaranmışdı:

- bir çox ölkələrdəki diasporlarımızın varlığı ilə yoxluğu bəlli deyildi;

- bəzi ölkələrdəki diaspora təşkilatlarımız iki, hətta üç, dörd yerə parçalanmışdı;

- müəyyən ölkələrdəki diaspora təşkilatlarımız isə hətta erməni ölkələrdəki lobbi fəaliyyətlərini zərərsizləşdirmək, erməni diasporunun təxribatçı, yalan üzərində qurulmuş işini ifşa etmək əvəzinə bir-birləri ilə intriqa aparır, birbirlərini düşmən gözündə görürdü;

- bir sıra diaspora təşkilatlarımızın Azərbaycanın ümummilli maraqlarını hüdudlarımızdan kənarda qoruması və müdafiəsi uğrunda çalışmaq əvəzinə, kimlərinsə biznes maraqlarının təminatçısına çevrilmiş, kimlərinsə öz biznesini yaratmaq və genişləndirmək üçün alət rolunu oynamağa başlamışdılar;

- bəzi diaspor təşkilatlarının isə varlığı tamamilə formaldı; onlar Diasporla İş üzrə Dövlət Komitəsi xətti ilə "pul yemək", "pul silmək" üçün sadəcə kağız üzərində mövcud idilər və s. və i.a.

İbrahimovun haqlı olaraq "vurulmasından" sonra bu mənzərə müsbətə doğru əhəmiyyətli şəkildə dəyişib, lakin yuxarıda da vurğuladığımız kimi, istər Tovuz hadisələri zamanı, istərsə də ötən bazardan etibarən ön cəbhədə başlayan və davam edən gərginlik müddətində bir sıra çatışmazlıqların qaldığı aydın görünür. Əlbəttə, həmin çatışmazlıqların da tədricən aradan qaldırılacağına şübhə yoxdur. Ancaq bir məqamı da mütləq qeyd etmək lazımdır: Nazim İbrahimov vəzifəsindən kənarlaşdırılarkən onun məhz yol verdiyi korrupsiya əməlləri səbəbindən ölkə başçısı tərəfindən postundan uzaqlaşdırıldığını Prezident Administrasiyasının o vaxtkı rəhbəri açıq dilə gətirmişdi. Bu gün aydın görünür ki, adıçəkilən Dövlət Komitəsinin sabiq sədrinin yarıtmaz fəaliyyəti nəticəsində biz diaspora sahəsində yalnız xeyli pul, büdcə vəsaiti yox, həm də zaman itirmişik. Əks halda, xaricdəki soydaşlarımızın əməli işinə həmişəkindən daha çox ehtiyac duyduğumuz bir dönəmdə biz bəzi ölkələrdəki diaspor quruluşlarımızın hələ də dağınıq, passiv görüntü verməsindən çox, onların parlaq fəaliyyətindən danışardıq.

Görəsən, Nazim İbrahimov barı belə vəziyyətlərdə özünün Komitə sədri olarkən yol verdiyi əməllərdən peşmançılıq duyurmu, xəcalət çəkirmi? Baxmayaraq ki, bu sualın cavabını bilmək heç nəyi dəyişmir...

***Elvin Rüstəmov***

# Xocavəndin işğalından 28 il ötür

***Xocavəndin işğalından 28 il ötür. 2 oktyabr 1992-ci il tarixdə Xocavənd rayonu Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunub. Ermənistan silahlı işğalı nəticəsində rayonun azərbaycanlılar yaşayan 10 kəndində 1723 yaşayış evi ermənilər tərəfindən yandırılaraq əmlakları talan edilib, 47 sənaye, 144 kənd təsərrüfatı obyekti dağıdılaraq viran edilib.***

Erməni vandalları tərəfindən 17 təhsil müəssisəsi, 4 məktəbəqədər tərbiyə ocağı, 32 səhiyyə müəssisəsi, 59 mədəniyyət obyekti, 10 tarixi abidə dağıdılıb. Rayonun infrastrukturuna aid olan 12 rabitə qovşağı, 341 km aftomobil yolları, 32 körpü, 42 su anbarı və 316 km su kəməri xətti dağıdılıb, talan edilərək yararsız hala salınıb. İşğal nəticəsində vurulan maddi, mənəvi ziyanla bərabər, rayonun bitki və meşə örtüyünə də böyük miqdarda zərər dəyib. Belə ki, rayonun 1202 ha meşə sahəsindəki qiymətli ağac növləri qırılaraq məhv edilib.



Dörd ay mühasirədə qalan Qaradağlı kəndinə ermənilərin hücumu nəticəsində 77 nəfər şəhid olub, 110 nəfər kənd sakini girov götürülüb. Sonradan onların 49 nəfəri amansızlıqla qətlə yetirilib. Ümumilikdə, xocavəndlilər 13 nəfəri qadın, 13 nəfəri uşaq olmaqla 145 nəfər şəhid verib, rayon sakinlərindən 300 nəfərdən çox insan sağlamlığını itirib və ya əlil olub, 243 uşaq valideynlərindən birini, 68 qadın həyat yoldaşını itirib. Bir ailədən olan 3 uşaq hər iki valideynini itirib.

Amma torpaqlarımızın işğaldan azad olunacağı günə az qalıb. Sentyabrın 27-dən bütün cəbhə boyu əks-hücum əməliyyatı aparan Azərbaycan Silahlı Qüvvələri işğal altında olan torpaqlarımızın bir hissəsini işğalşılardan azad edib. Tezliklə Xocavənddə də Azərbaycanın üçrəngli bayrağı dalğalanacaq.

# İcra başçılarının yaratdığı yeni narazılıq

## Onlara məxsus iri fermer təsərrüfatları haqsız rəqabətə yol açıb

***Son zamanlar müxtəlif rayonlardan yeni məzmunlu şikayətlər gəlməkdədir. Bu şikayətlərin hədəfi də həmin rayonların icra başçıları, daha doğrusu, qeyri-rəsmi şəkildə onların nəzarətindəki iri kəndli-fermer təsərrüfatlarıdır.***

İlk baxışda sözügedən təsərrüfatların varlığı sevindiricidir. Hər bir halda Azərbaycanda aqrar sektorun inkişafına töhfə verirlər. Lakin...

Məsələ burasındadır ki, sözügedən təsərrüfatlar əslində qeyri-sağlam, haqsız rəqabətə yol açırlar. Bu barədə bir qədər sonra qeyd edəcəyik. Hələliksə bəzi faktlara göz ataq. Məsələn, 19 may 2016-cı ildə Qazax Rayon İcra Hakimiyyətinin başçısı təyin edilən Rəcəb Babaşovun bundan cəmi 11 gün sonra "Qazax rayonu Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı" MMC adlı şirkəti dövlət qeydiyyatına alınıb. Hazırda Qazaxda minlərlə hektar torpaq sahəsinə sahib olan və nizamnamə kapitalı vur-tut 100 manat təşkil edən MMC-nin qanuni təmsilçisi Babaşov Emin Məmmədqulu oğludur. Soyadından da göründüyü kimi, o, icra başçısının yaxın qohumudur.

Və yaxud bir müddət öncə həbs olunan Biləsuvar Rayon İcra Hakimiyyətinin (İH) başçısı Mahir Quliyev də rayon ərazisində iri fermer təsərrüfatı yaradıbmış. Minlərlə hektar ərazini sözün həqiqi mənasında mənimsəyən Quliyevin yaratdığı fermer təsərrüfatı əsasən qarpız və sarımsaq yetişdirməklə məşğul olub. Bundan başqa, onun Xırmandalı kəndindəki Mahmudçala və Cərcili adlı ərazilərdə balıq yetişdirmək üçün çoxsaylı süni su anbarları yaratdığı da deyilirdi. Belə nümunələrin sayını artırmaq olar. Ancaq buna ehtiyac duymadan vətəndaşları narazı salan məqamın üzərinə gələk. Getdikcə artan şikayətlərdən görünən odur ki, icra başçılarının yaratdıqları və qeyri-rəsmi şəkildə nəzarətdə saxladıqları fermer təsərrüfatlarına hər zaman "yaşıl işıq"dır: onlar heç bir maneəsiz, əngəlsiz böyüyür, güclənirlər. Məsələn, orta və kiçik fermer təsərrüfatları suvarma problemi ilə üzləşdikləri halda rayon rəhbərlərinin fermer təsərrüfatlarının heç bir qayğısı yoxdur.Üstəlik, icra başçıları uğurla idarə olunan və böyüməyə çalışan təsərrüfatların sahiblərini əksər hallarda gözümçıxdıya salır, onlardan qanunsuz ödənişlər, "haqq" tələb edir, bundan boyun qaçıran fermerləri incidir, ruhdan salırlar. Nəticədə bu fermerlər bəzən işdən əl çəkmək məcburiyyətində qalırlar. İnternet üzərindən kiçik bir axtarış aparmaq kifayətdir ki, son illərdə saysız-hesabsız sahibkarın rayon rəhbərlərindən şikayətlərini, hüquqlarının pozulduğuna dair giley-güzarını oxuyasınız. Hökumət ölkədə aqrar sektorun inkişafı üçün gücünü səfərbər etmişkən, sahibkarlığa dəstəyini misilsiz şəkildə artırmışkən, ölkə başçısı öz çıxışlarında dəfələrlə fermerlərin incidilməsinə son qoyulmasını bir tələb kimi qarşıya qoymuşkən bəzi icra başçılarının bu siyasətə qarşı çıxmalarına məna vermək çətindir. Elə avqust ayında, Faiq Qürbətovu Biləsuvar Rayon İcra Hakimiyyətinin, Elmir Bağırovu isə Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edərkən dövlət rəhbərinin dediklərini xatırlayaq: "Əfsuslar olsun ki, bəzi rayonlarda sahibkarlar incidilir, onların qarşısında süni əngəllər törədilir, onlardan yerli icra orqanları tərəfindən rüşvət, pay tələb olunur. Buna qətiyyən yol verməmək olmaz və bu məsələlərə çox ciddi nəzarət olmalıdır. Sahibkarlar dövlət məmurları tərəfindən yalnız dəstək, kömək görməlidirlər və sahibkar ancaq dövlətin vergisini ödəməlidir. Bundan başqa, heç kimə heç bir vəsait ödənilməməlidir".



Fikrimcə, heç bir rayonun icra başçısı dövlət rəhbərinin yuxarıda söylədiklərini unutmamalı, Azərbaycan iqtisadiyyatının, xüsusilə də qeyri-neft sektorunun inkişafına, güclənməsinə töhfə verməyə çalışan heç bir fermeri, sahibkarı sıxışdırmamalı, öz yaxınlarının, ailə üzfvlərinin nəzarətindəki təsərrüfatları böyüdərkən buna başqalarını dalana dirəmək, incitmək sayəsində nail olmamalıdır. Bir sözlə, haqsız rəqabətə yol verməməli, eyni zamanda fermerləri, sahibkarları qanunsuz qazanc mənbəyi kimi görməməlidirlər.

Əks halda, belə davam edərsə, biz qarşıda icra başçılarının həbsləri ilə bağlı yeni xəbərləri oxuya biləriк. Çünki artıq situasiya dəyişib:hökumət yerlərdə baş verən hər şeydən, xüsusilə də icra başçılarının ən xırda qanunsuz əməllərindən belə xəbərdardır. Ən əsası isə bu əməllərə yol verən heç bir məmur, - kimliyindən asılı olmayaraq! - cəzasız qalmır.

Bizdən demək... Sonrasını rayon rəhbərlərinin özləri bilər. Bir gün peşmanlıq duyanda çox gec olacaq...

***Toğrul Əliyev***



# "Azərbaycanın bu mübarizəsi haqq mübarizəsidir" - Kamal Cəfərov

***"Bu gün tarixi ədalət uğrunda mübarizə Fransada, BMT-də deyil, Ağdərədə aparılır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Kamal Cəfərov deyib.

O bildirib ki, Fransa Prezidentinin mövqeyi neytral vasitəçiliyin tələblərinin kobud şəkildə pozulmasıdır: "Makronun bu mövqeyi elə ən birinci Fransa hökumətinin maraqlarına ziddir. Makronu bu mövqeyi Azərbaycan və Fransa arasında olan dostluq münasibətlərinə xələl gətirə bilər. ATƏT-in Minsk Qrupunun, BMT-nin əsas işi BMT-nin icra edilməmiş 4 qətnaməsinin icrasını təmin etmək idi. Bunu etməyibsə, Azərbaycan Ordusu beynəlxalq hüququn bütün prinsiplərinə cavab verən əks-hücum əməliyyatları ilə torpaqlarının suverenliyini və ərazi bütövlüyünü təmin edəcək. BMT Nizamnaməsinin 51 maddəsi Azərbaycana bu haqqı verir. Azərbaycanın bu mübarizəsi haqq mübarizəsidir".

***Hüseyn***

# Kənd Təsərrüfatı Nazirliyinin 140 əməkdaşı könüllü olaraq ordu sıralarına qoşulub

***27 sentyabrdan etibarən Ermənistan silahlı qüvvələri təmas xətti boyunca mütəmadi olaraq Azərbaycan Respublikasının mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutaraq Azərbaycana qarşı növbəti dəfə hərbi təxribat törədir və işğalçılıq siyasətini davam etdirir. Bu təxribata cavab olaraq Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirir. Bu gün Azərbaycan Ordusu düşmənin layiqli cavabını verir, Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Azərbaycan Ordusu döyüş meydanında, xalqımız isə arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümayiş etdirir.***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" 28 sentyabr 2020-ci il tarixli Sərəncamı xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

"Unikal" xəbər verir ki, sərəncama uyğun olaraq Kənd Təsərrüfatı Nazirliyinin də yüzlərlə əməkdaşı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmək üçün müraciət etmiş əməkdaşlarımızdan 140 nəfər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin çağırışına əsasən könüllü olaraq ordu sıralarına qoşulub. Düşmənə layiqli cavab verən Orduмuzun sıralarına qoşulmaqdan şərəf duyduqlarını deyən nazirlik əməkdaşları Azərbaycanın öz ərazi bütövlüyünü bərpa edəcəyinə əmin olduqlarını vurğulayıblar.




Hərbi əməliyyatlar hazırda kənd təsərrüfatının ən aktiv dövrünə təsadüf edir. Nazirlik əməkdaşları əkinin aparılması, məhsulların toplanılması və aqrotexniki qulluq işlərinin vaxtında yerinə yetirilməsi məqsədilə cəbhəyanı rayon və kəndlərə ezam olunub. Nazirlik əməkdaşları təmas xəttinə yaxın ərazilərdə mütəmadi monitorinq aparır, aqrar sahədə cari işlərin düzgün təşkili məqsədilə fermerlərə lazımi tövsiyə və məsləhətlər verirlər. Təmas xəttinə yaxın kəndlərdə payızlıq şumun aparılması, aqrotexniki qulluq işlərinin görülməsi ilə bağlı proses tam nəzarətdə saxlanılır.

Kənd Təsərrüfatı Nazirliyinin bütün əməkdaşları döyüşə hazırdır və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü uğurlu siyasəti dəstəkləyir.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının düşmən tapdağından azad edilməsi istiqamətində uğurlu hərbi əməliyyatlar həyata keçirən rəşadətli Ordumuza uğurlar və şanlı qələbə arzu edirik.

Qələbə bizimlədir! Qarabag? Azərbaycandır!

***Zaurə***

# Makedoniyadan Azərbaycana dəstək: "Azərbaycan ordusu şanlı tarix yazır"

***"Ermənistan tərəfindən Azərbaycana qarşı hər cür hücumlar qarşıyıq. Bundan öncə necə azərbaycanlı qardaşlarımızla bərabər olduqsa, bundan sonra olmağa davam edəcəyik. Azərbaycanlı qardaşlarımız birgə və bərabərik".***



Makedoniya Türk Hərəkat Partiyasının lideri, Makedoniya Parlamentinin üzvü Enes İbrahim Azərbaycana dəstək verən açıqlama yayıb.

Enes İbrahim Azərbaycanın haqlı mübarizə apardığını və tarixi ədalətsizliyi aradan qaldırdığını qeyd edib.

"Bölgədə beynəlxalq hüququn və ədalətin bərqərar olunması üçün Azərbaycan hərəkətə keçib. Çünki Ermənistan Qarabağda cinayətkar separatçı rejim yaradıb. Orada istədikləri hərəkətləri edirlər. Qarabağ rejimi dünyaya təhdiddir. Ermənistan ordusu Azərbaycanın dinc insanlarına güllə atırlar. İnsanlar həlak olurlar. Həm də Qarabağı gələcək nəsillərə qoymaq olmaz. Bu gün güclü və modern Azərbaycan ordusu işğalçı Ermənistan ordusunu tam zərərsizləşdirir",- deyə Enes İbrahim vurğulayıb.



## “Milli Məclis Fransaya kəskin etirazını bildirməlidir” - Qənirə Paşayeva

***“Azərbaycan xalqının iradəsini əks etdirən qurum olaraq Milli Məclis Fransaya kəskin etirazını bildirməlidir”.***

“Unikal” xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Qənirə Paşayeva deyib.

O bildirib ki, Fransa öz ərazisində terrorçulara qarşı mübarizə aparanda Azərbaycan onlara nəyi edib, nəyi etməyəcəyini diqtə etmir: “Azərbaycan öz ərazisində antiterror əməliyyatları aparır. Ərdoğanın dediyi, kimi Makronun tarix bilgiləri çox zəifdir. Makronun Dağlıq Qarabağla bağlı açıqlamaları bunu bir daha göstərir”.

## Səfərbərlik Xidmətindən Orduya çağırışla bağlı yeni AÇIQLAMA

***Ali Baş Komandan İlham Əliyevin avqustun 26-da imzaladığı sərəncama əsasən, oktyabr çağırışına başlanılıb.***



“Unikal”ın məlumatına görə, bunu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisinin birinci müavini general mayor Zaur Abdullayev bildirib.

Z.Abdullayev qeyd edib ki, hazırda aparılan müddətli hərbi xidmətə çağırış qanunvericiliyə uyğun olaraq hər il olduğu kimi, ildə 4 dəfə həyata keçirilən prosedurdur:

”Bu çağırışın hazırki hərbi vəziyyətlə heç bir bağlılığı yoxdur. Həmişə olduğu kimi, 18 yaşı tamam olmuş və möhlət hüququ olmayan gənclər qanunvericiliyə uyğun olaraq vətən qarşısında borclarını yerinə yetirmək üçün əsgəri xidmətə yola salınırlar”.

Onun sözlərinə görə, gənc əsgərlər cəbhəyə deyil, müvafiq qoşun növlərinin hərbi hissələrinə - təlim mərkəzlərinə göndərilir:

“Qarşıdakı 3 ay müddətində onlarla orada təlimlər keçiriləcək, hərbin sirrləri öyrədiləcək, sonra xidmətlərini təyin olunduqları yerlərdə davam etdirəcəklər”.

## Avropa Birliyi Qarabağa humanitar yardım göndərəcək

***Avropa Birliyi Qarabağa humanitar yardım göndərəcək.***

“Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə böhranlı situasiyalar üzrə komissar Yanez Lenarçiç açıqlama verib.

“Dağlıq Qarabağda döyüşlər başlayandan sonra təmas xəttinin hər iki tərəfində zərər görmüş dinc sakinlər üçün humanitar yardım ayırmışıq” - deyə açıqlmada deyilir.

# Bəzi məmurların almalı olduqları ibrət...

## Artıq korrupsiya və rüşvət xəbərləri oxumamalıyıq!

***Hazırda Azərbaycan xalqının uşaqdan böyüyədək qəlbi ön cəbhədə, düşmənin növbəti təxribatına layiqli cavab, eyni zamanda işğaldakı torpaqların azad edilməsinə start verən Ordumuzla birlikdə döyünür. Təcavüzkar ölkə birbirinin ardınca ağır zərbələr alır. 10 milyonluq bir ölkə yumruq kimi birləşib, yüksək əhval-ruhiyyədədir və ərazi bütövlüyünün bərpasına uzun müddət sonra ilk dəfə bu qədər səmimi-qəlbdən, bütün varlığı ilə inanır. Belə bir inamın yersiz olmadığını tezliklə işğalçı ölkə də, onun havadarları da görəcəklər...***

Biz isə bu gün ön cəbhədə Ordumuzun yazmaqda olduğu şanlı tarixə başqa bir nüansdan baxmaq istəyirik. İllərdir ölkə mətbuatının və ümumilikdə cəmiyyətin müzakirə və tənqid etdiyi əsas məsələlərdən biri də məmur özbaşınalığı, müəyyən vəzifəli şəxslərin rüşvətə, korrupsiyaya aludəçiliyidir.



Rüşvət, korrupsiya elə bir beladır ki, hər bir ölkənin yüksəlişini əngəlləyir, onun daha sürətlə inkişaf etməsinin, çiçəklənməsinin önünə qalın divar çəkir. Son zamanlar bu bəlaya qarşı mübarizə tədbirləri gücləndirilib; yetərincə iri məmurlar elə kabinetindəcə, iş, daha doğrusu, cinayət başındaca yaxalanaraq qandallanıb və həbsə göndəriliblər. Lakin hiss olunur ki, müəyyən vəzifəli şəxslər həmin həbslərdən, anti-rüşvət, anti-korrupsiya əməliyyatlarından yetərincə dərs almır, öz çirkin əməllərinə, qanunsuzluqlarına davam edirlər.

Fikrimizcə, belələri heç olmasa, işğaldakı torpaqlarımızın azad edilməsinə yönəlmiş son hərbi əməliyyatlardan ibrət almalı, Azərbaycanın daha da güclənməsinə mane olan işlərdən uzaq dayanmalıdırlar. Məsələn, dövlət vəsaitlərini müxtəlif hiylələrlə, fəndlərlə öz ciblərinə yönəltməkdən əl çəkməlidirlər. Başa düşməlidirlər ki, büdcədən oğurlanan hər manat, hər qəpik əslində də düşmən dəyirmanına su tökməkdir. Çünki bu pulların təyinatı nə olursa olsun - yol çəkmək, körpü tikmək, məktəb, xəstəxana inşa etmək və s. və i.a! - həmin vəsaitlər eyni zamanda həm də Qarabağın təcavüzkar Ermənistanın caynağından qurtulmasına yönəlib. Axı müasir dünyada müharibələr sadəcə silah gücünə qələbə ilə başa vurulmur. Həmçinin güclü iqtisadiyyatla, möhkəm infrastrukturla qazanılır. Rüşvət, korrupsiya isə məhz güclü iqtisadiyyata, möhkəm infrastruktura gedən yolda başlıca maneədir. Deməli, həm də Ordumuzun cəbhədəki qələbəsinə, işğal edilmiş torpaqların separatçılardan, terrorçulardan təmizlənməsinə əngəldir. Məhz bunu nəzərə alıb anlamaq lazımdır ki, büdcə vəsaitlərini havaya sovurmaq, onları təyinatsız şəkildə, qeyri-şəffaf xərcləmək, özünə, ailə üzvlərinə biznes qurmaq üçün xərcləmək olmaz! Bu yalnız cinayət deyil, eyni zamanda Vətənə və Dövlətə xəyanətdir. Çünki, yuxarıda da vurğuladığımız kimi, büdcədən oğurlanan hər manat eyni zamanda Qarabağı düşmən tapdağından xilas etməyimizi yubatmağa yönəlib.

Yaddan çıxarılmamalıdır ki, korrupsiya səmərəli dövlət idarəçiliyini sarsıdır, bərabərlik və sosial ədalət prinsiplərini pozur, təmiz rəqabəti təhrif edir, iqtisadi inkişafı çətinləşdirir, qanunun aliliyinə, demokratiya, insan hüquqlarına, demokratik təsisatların sabitliyinə və cəmiyyətin mənəvi dəyərlərinə təhlükə yaradır. Sadaladıqlarımız isə illər uzunudur Qarabağa qovuşmağımızı çətinləşdirən amillərdir. Təsadüfi deyil ki, torpaqlarımızın erməni quldurlarından təmizlənməsinə hökumət həm də dövlət aparatını rüşvət və korrupsiya meyllərindən təmizləməyə kəskin şəkildə start verdikdən sonra başlayıb. Çünki aydın məsələdir ki, yalnız neqativ meyllərin minimuma endirildiyi halda dövlət də daha güclü və sağlam, sarsılmaz olur, beləcə, nəinki düşmənin, hətta onun havadarlarının belə canına vicvicə salır!

Bütün bunlardan çıxış edərək, biz artıq mətbuatda məmurların yeyinti faktları haqda oxumaq istəmirik. Biz artıq vəzifəli şəxslərin kabinetlərindəcə, rüşvət alarkən, pul silərkən çəkilən videogörüntülərini izləmək istəmirik. Vəzifəli şəxslərin adlarının rüşvətlə, korrupsiya ilə assosiasiya olunmasını istəmirik. Biz istəyirik ki, məmurlarımız bir an olsun belə unutmasınlar: Qarabağın işğaldan azad edilməsi təkcə şanlı Ordumuzun müzəffər hərbi əməliyyatlarından yox, həm də ölkə iqtisadiyyatının yüksəlişinə əngəl yaradan zərərli tendensiyaların - mənimsəmələrin, qeyri-qanuni ödənişlərin, qeyri-şəffaflığın aradan qaldırılmasından keçir!

***Sənan Mirzə***

# “Ermənistanın hərbi əməliyyatları davam etdirməyə resursu çatmır” - Deputat

***Ermənistan Qarabağda döyüşmək üçün Suriya, Livan və digər ölkələrdən qüvvələr gətirməklə dünyaya özünü “güclü ölkə” kimi təqdim etməyə çalışır. Lakin işğalçı ölkənin mövcud potensialı istər daxili auditoriyaya, istərsə də dünya ictimaiyyətinə yaxşı bəllidir. Muzdlu döyüşçülərdən istifadə etməsinə rəğmən, hərbi əməliyyatlar bu ölkəyə baha başa gələcək.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin deputatı Könül Nurullayeva bildirib.

Onun sözlərinə görə, hərbi əməliyyatların ilk 4 günü ərzində aparılan hesablamalara görə, Ermənistana 1 milyard 200 milyon dəyərində zərər dəyib:

”Görünən odur ki, işğalçı ölkə Azərbaycanla resurs müharibəsi aparmaq gücündə deyil. 3 milyona yaxın əhalisi olan Ermənistanda yoxsul əhali 23,3 faiz təşkil edir, yəni bu ölkədə hər 4 nəfərdən 1-i yoxsuldur. Hərbi əməliyyatların vurduğu zərəri aradan qaldırmaq üçün isə təbii ki, külli miqdarda maliyyə vəsaiti tələb olunur. İqtisadçılar da bildirir ki, bu maliyyə vəsaitini əldə etmək üçün ilk növbədə investisiya yatırımı olmalıdır. Ermənistan isə heç vaxt investorlar üçün cəlbedici olmayıb. Üstəlik, işğal siyasəti ucbatından bütün regional və qlobal nəqliyyat - enerji layihələrindən kənarda qalıb. İqtisadi təhlillər də göstərir ki, hərbi əməliyyatların başladığı 5-6 gün ərzində artıq Ermənistan ərzaq böhranı ilə üz-üzədir. Hərbi əməliyyatların nə zaman yekunlaşacağını isə proqnozlaşdırmaq indiki məqamda mümkün deyil. Bu isə onu deməyə əsas verir ki, hərbi əməliyyatlar Ermənistanın həm siyasi, həm də iqtisadi nöqteyi-nəzərdən iflası ilə nəticələnəcək. Ermənistan üçün yeganə çıxış yolu var - Prezident İlham Əliyevin müalicə olunan yaralı hərbçilərlə görüşdə də söylədiyi kimi, erməni xalqı Azərbaycanla sülh şəraitində yaşamaq istəyirsə, öz hakimiyyətini məsuliyyətə cəlb etməli, uzun illər ona rəhbərlik edən quldur kriminal rejimdən birdəfəlik xilas olmalıdır”.



***Hüseyn***

# Ekspert: "Ermənistanın Azərbaycanla müharibəyə iqtisadi gücü çatmaz"



***Ermənistanın hələ iyul ayında Azərbaycanla sərhəd bölgəsində törətdiyi hərbi təxribat zamanı ekspertlər bunun iqtisadi amillərlə bağlı olduğunu qeyd ediblər.***

Belə ki, Dağlıq Qarabağdan uzaqda yerləşən Tovuz rayonu istiqamətində Azərbaycana qarşı məntiqsiz, tezliklə də iflasa uğramış təcavüzkar addımları ilə qonşu ölkənin başbilənləri pandemiya dövründə iqtisadiyyatın bütün sahələrini ağuşuna alan dərin tənəzzül və böhrandan əhalinin diqqətini yayındırmaq məqsədi güdürdülər.

**Başqasına quyu qazma**

Lakin düşmən tərəfin bu niyyəti baş tutmadı. Azərbaycanı irimiqyaslı cavab tədbirlərə vadar edən Ermənistan üçün bunun nəticələri nəinki sırf hərbi baxımdan sarsıdıcı məğlubiyyətdən, həm də iqtisadi baxımdan ölkənin bütün ehtiyatlarının tükənməsindən, tezliklə iqtisadi cəhətdən uçuruma yuvarlanmaqdan ibarət olacaq. Artıq hətta həmişəki donorların, sponsorların "səxavət"i belə onları bu dəfə xilas edə bilməyəcək.

Maraqlı cəhətə fikir verək: döyüşlər başlayan ilk gündən Ermənistan hökuməti müharibəni dayandırmaq üçün canfəşanlıq edir. Ölkənin baş naziri səhərdən axşamadək ən müxtəlif ölkələrin rəhbərlərinə zəng vuraraq hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana təsir və təzyiq göstərmələri üçün onlara dil tökür, yalvarıb-yaxarır. Halbuki hadisələrdən az əvvəl onların yüksək rütbəli rəsmilərinin dilindən, həmçinin müxtəlif portallarından səslənən müharibəyə hazır olmaları barədə hədə-qorxular, lovğalı açıqlamalar hamımızın yaxşı yadındadır.

"Təhlillərə görə, Ermənistan iqtisadi nöqteyi-nəzərdən qısamüddətli hərbi əməliyyatlar belə aparmaq iqtidarında deyil. Təxmini məlumatlara əsasən, ötən günlər ərzində Ermənistan dəyəri 1 milyard dollardan çox olan hərbi texnika itirib. Döyüş əməliyyatları gündə milyonlarla dollara başa gəlir, Ermənistanın isə belə bir imkanları yoxdur", - Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komissiyasının sədri Tahir Mirkişili qeyd edib.

Rəsmi məlumatlara görə, Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatından üçqat, müdafiə büdcələri baxımdan isə dördqat üstündür. Belə ki, Azərbaycanın müdafiə büdcəsi 2,3 milyard ABŞ dolları, Ermənistanınkı isə 658 milyon dollardır. Həmçinin millət vəkilinin dediyi kimi, Azərbaycanın strateji ehtiyatları 52 milyard dollar, Ermənistanın isə strateji ehtiyatları vur-tut 2,6 milyard dollardır və İMF-nin proqnozuna görə, hazırda azalmaqla 2025-ci ilədək 2019-cu ilin səviyyəsinə çatmayacaq.

Hazırkı koronavirus pandemiyası nəticəsində Ermənistanın onsuz da ürəkaçan olmayan iqtisadi vəziyyəti daha da ağırlaşdığı halda Azərbaycan beynəlxalq maliyyə təsisatlarının rəyincə karantindən sonra ÜDM-nin 2 faizdən çox artımına nail olacaq.

**Borclar girdabında**

Yenə də rəsmi məlumatlara görə, bu gün Ermənistanda hər dörd nəfərdən biri yoxsulluq həddindən aşağıdadır. Ölkədə xalis miqrasiya əmsalı (gələnlərlə gedənlərin fərqi) hər 1 000 nəfər üçün mənfi 5,6 nəfər, cari əməliyyatların hesab kəsiri isə ÜDM-nin 8,2 faizidir ki, bu da böhranın əyani göstəricisi sayılır.

Həmçinin borclar girdabına batmış Ermənistan büdcə kəsirini bağlayaraq xarici ödəmələrlə bağlı öhdəliklərini yerinə yetirmək üçün İMF-dən mümkün olan ən yüksək kredit almaq məcburiyyətində qalıb.

Dövlət Borclarını İdarəetmə Şəbəkəsi (SDMN - State Debts Management Network) adlı nüfuzlu beynəlxalq təşkilat da Ermənistanın maliyyə təhlükəsizliyi baxımdan həssas vəziyyətdə olduğu barədə yazı dərc etdirib. Belə ki, bu ölkənin iqtisadi inkişafı xaricdən cəlb edilən vəsaitlərdən get-gedə daha çox asılıdır. Ermənistan Maliyyə Nazirliyinin məlumatlarına görə isə cari ilin birinci yarısında dövlət borcunun 7,7 milyard ABŞ dolları, o cümlədən xarici borcun 6 milyard dollardır ki, bu da ÜDM-nin 42 faizi, yəni maliyyə təhlükəsizliyi həddini xeyli aşan göstərici deməkdir. Həmçinin ümumi dövlət borcunun 80 faizi əcnəbi valyutadalardadır, bu sahədə davamlı mənfi meyllərin olması isə ölkənin maliyyə təhlükəsizliyinin nə qədər kövrək olduğunu göstərir. Ümumi dövlət borcunun ÜDM-ə olan nisbəti 2015-ci ildəki 48 faizə qarşı 54 faizə, xarici dövlət borcunun isə ÜDM-ə qarşı nisbəti 40 faizə qarşı 42 faizə çatıb.

İndi də Ermənistan hökuməti bu dərin borc girdabından qurtulmağın yollarını aramaq əvəzinə, Azərbaycanla hərbi qarşıdurmanı daha da qızışdırır. Nəticədə ölkə iqtisadiyyatı daha sürətlə çöxməyə başlayıb. "Döyüşlər başlayandan bir-iki gün ərzində Ermənistan dramının dollara qarşı xeyli zəifləməsi iqtisadiyyatın nə qədər böhranlı vəziyyətdə olduğuna dəlalət edir", - T.Mirkişili qeyd edib.

Bununla yanaşı, Ermənistan əsas gəlir mənbələrindən olan mədən hasilat məhsullarının ixracatından ildə 1 milyard ABŞ dollarınadək gəlir əldə edir. Lakin əsasən Azərbaycanla sərhədboyu bölgələrdə, yaxud işğal etdikləri ərazilərdə yerləşən həmin filiz emalı müəssisələri hazırkı vəziyyətə görə fəaliyyətini dayandırıb ki, nəticədə Ermənistan mühüm gəlir mənbəyindən məhrum olub.

Beləliklə, Ermənistan Azərbaycana qarşı ciddi müharibə aparmaq üçün nə hərbi, nə də iqtisadi imkanlara malikdir. Bu hərbi qarşıdurmanın hər günü işğalçı ölkəni labüd iqtisadi fəlakətə bir az da yaxınlaşdırır.

***Qulu Nuriyev - iqtisadçı ekspert***

# "Makronun mövqeyi heç bir beynəlxalq normaya uyğun deyil" - Arzu Nağıyev



***"Fransa kimi bir dövlətin başçısı olan Makron düşünməlidir ki, vaxtilə bu dövlətin De Qoll kimi rəhbəri olub və onun Azərbaycana qarşı münasibəti, mübarizəyə qarşı münasibəti nə cür olub. Eyni zamanda, Fransa ilə Azərbaycan xalqları arasında daim dostluq şəraitində bir çox addımlar atılıb".***

"Unikal" xəbər verir ki, bunu parlamentin iclasında deputat Arzu Nağıyev deyib.

O xatırladıb ki, ulu öndər Heydər Əliyev müstəqillikdən sonra ilk səfərini Fransaya edib:

"Bu gün Azərbaycanla Fransa arasında çox ciddi neft müqavilələri var və Fransa bütün bunları nəzərə almalıdır. Bütün bunların fonunda Makronun tutduğu mövqe heç bir beynəlxalq normaya uyğun deyil. Sadəcə olaraq ATƏT-in Minsk Qrupunun həmsədri kimi münaqişənin sülh yolu ilə həllinə deyil, daha da qızışdırılmasına, status-kvonun saxlanmasına gətirib çıxaran bəyanatlar verdilər. Ona görə də ATƏT-in Minsk Qrupunun formatına yenidən baxılmalıdır və Fransa bu məsələlərə özünün ciddi münasibətini bildirməlidir".

# Tərtər sakini Lyuda Oqorodnik: "Qarabağ Azərbaycandır!"



***Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutmaqda davam edir.***

Bu barədə "Report"un cəbhə bölgəsinə ezam olunmuş əməkdaşı xəbər verir. Düşmən dinc əhalini hədəf almaqda davam edir.

Ermənilərin növbəti dəfə atdığı top mərmilərindən biri Yenikənd kənd sakini Lyuda Oqorodnikin evinə düşüb. Xoşbəxtlikdən həlak olan olmayıb.

"Report"un əməkdaşı ilə söhbət edən zamanı milliyətcə rus olduğunu bildirən L.Oqorodnik Tərtər rayonunda anadan olduğunu qeyd edib:

"Ata və anam da 1970-ci illərdən Azərbaycanda yaşayıb. Mən də burada doğulub boya-başa çatmışam. Neçə illərdir ki, təcavüskar ermənilərin atdığı top mərmiləri evlərimizə düşür. Biz dinc sakinlərin evləri düşmən tərəfindən atılan top mərmiləri nəticəsində dağıdılır. Ermənilər həmişə dinc sakinləri hədəf alır".

L.Oqorodnikin sözlərinə görə, düşmən tərəfindən dinc əhaliyə atılan top mərmilərinə baxmayaraq, kənd sakinləri evlərini tərk etməyib:

"Biz düşməndən heç vaxt qormamışıq, indi də qorxmayacağıq. Hazırda evlərimizdə yaşayırıq".

Sonda L.Oqorodnik torpaqlarımızı işğaldan azad etmək üçün düşmənlə qəhrəmancasına döyüşən əsgərlərimizə uğurlar arzulayıb: "Biz əsgərlərimizə inanırıq. İnanırıq ki, onlar torpaqlarımızı işğaldan azad edəcəklər. Ali Baş Komandanmıza və əsgərlərimizə uğurlar arzulayırıq. Qarabağ Azərbaycandır!"

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin bölmələrinin növbəti dəfə ağır artilleriya qurğularından açdığı atəş nəticəsində 30.09.2020-ci il tarixdə saat 15 radələrində Tərtər rayonu, Yenikənd kənd sakini, Azərbaycan Respublikasının vətəndaşı Oqorodnik Lyuda Vasilyevnaya məxsus yaşayış evinin həyətinə top mərmisinin düşməsi nəticəsində həyətdə olan yardımçı tikili dağılıb.

# Erməni əsgərlər arasında atışma olub



***Müdafiə Nazirliyi daha bir məlumat yayıb. "Unikal"a daxil olan məlumatda bildirilir ki, əldə edilən məlumata əsasən, gecə döyüşləri zamanı geri çəkilən Madagizdəki Ermənistan silahlı qüvvələrinin 6-cı dağatıcı alayının əsgərləri arasında atışma baş verib.***

Şəxsi heyət arasında hökm sürən qorxu və vahimə hissi ruh düşkünlüyü yaradıb, ümumilikdə erməni hərbçilərinin demoralizə olmasına səbəb olub.




## FHN cəbhə xəttində yaşayan əhaliyə erməni təxribatı ilə bağlı müraciət edib

***Döyüş meydanında ardı-arda ciddi məğlubiyyətlərlə üzləşərək işğal etdikləri Azərbaycan torpaqlarını itirən Ermənistan tərəfi müxtəlif dezinformasiyalara əl ataraq ölkəmizin əhalisi arasında təşviş yaratmaqla vəziyyətdən mümkün qədər çıxmağa çalışır.***

Bu barədə "Unikal"a Fövqəladə Hallar Nazirliyindən bildirilib. Məlumata görə, ermənilər cəbhəyanı bölgələrdə yaşayan vətəndaşlarımızın telefonlarına müxtəlif ölkə kodlu nömrələrdən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin adından həqiqətə uyğun olmayan məlumatlar çatdıran zənglər edirlər. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi qəti şəkildə bəyan edir ki, bu zənglər heç bir halda Nazirlik tərəfindən edilməyib və belə müraciətlər tərəfimizdən yayılmayıb. Bu, erməni təbliğat aparatının növbəti çirkin və uğursuz əməlidir.

Odur ki, bir daha vətənşlarımıza müraciət edərək belə zənglərə və ya çağırışlara heç bir halda inanmamağa, yalnız rəsmi dövlət qurumlarımızın rəsmi məlumatlarına etibar etməyə çağırır və əmin edirik ki, aidiyyəti dövlət qurumları, o cümlədən Fövqəladə Hallar Nazirliyi əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün bütün lazımi tədbirləri görür. Oxşar zəng və ya məlumatlarla rastlaşdıqda Nazirliyin "112" qaynar xəttinə müraciət edilməsi xahiş olunur.

***Famil***

## Təqaüdçülər üçün əlverişli ölkələr açıqlandı

***Təqaüdlə yaşamağa ən əlverişli ölkələrin reytinqində birinci yeri İslandiya tutub.***

"Report" "Bloomberg"ə istinadən xəbər verir ki, Fransanın "Natixis" sərmayə bankı tərəfindən aparılan tədqiqata görə, ikinci yeri İsveçrə, üçüncü yeri Norveç, sonrakı yerləri ardıcıl olaraq İrlandiya və Niderland tutub.

Bütövlükdə, 44 ölkənin nəzərə alındığı reytinq sağlamlıq, maliyyə, maddi rifah, həyat keyfiyyəti başlıqları ilə təsnifləndirilən 44 göstərici əsasında hazırlanıb.

Bununla yanaşı, hazırkı koronavirus pandemiyası üzündən sosial, iqtisadi, maliyyə, səhiyyə təhdidlərinin artdığı üçün təqaüdçülərin əvvəlki rahat həyatına da son verildiyi qeyd olunur.

# "Ermənistanın hərbi itkiləri 1,2 milyard dollardan artıqdır" - Vüsal Qasımlı

***Ermənistanın Azərbaycana qarşı başlatdığı müharibə Ermənistandakı mövcud iqtisadi ressesiyanı dərinləşdirməkdə və mövcud bütün resurslarını məhv etməkdədir.***

Bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı hazırkı müharibənin dörd günü ərzində Ermənistanın iqtisadiyyatına dəyən zərər barədə məlumat verərkən deyib. Belə ki, Ermənistanın Azərbaycana qarşı başlatdığı müharibədə Azərbaycan Müdafiə Nazirliyinin rəsmi açıqladığı məlumatlara əsasən rəşadətli Azərbaycan Silahlı Qüvvələri tərəfindən sentyabrın 27-si səhər saatlarından sentyabrın 30-u saat 21:30-dək düşmənin 200-dək tank və digər zirehli texnika, 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 30 ədəd hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan artıq avtomobil texnikası, 1 ədəd S-300 zenit-raket kompleksi məhv edilmişdir. Qeyd edək ki, bundan əlavə Ermənistanın 2 ədəd SU-25 hərbi qırıcısının dağa çırpılaraq məhv olduğu barədə məlumatlar açıqlanıb. Məhv edilən S-300 sistemlərinin qiymətləri növlərindən asılı olaraq 115 milyondan 160 milyon ABŞ dollarınadək dəyişir. Hərbi-analitik "Deagel nəşri"nə görə Ermənistanın arsenalında olan silahlar isə S-300-lərin PMU1 modifikasiyasına məxsusdur. Bu modifikasiyaların qiymətləri isə 160 mln. ABŞ dolları civarında, bir raketinin qiyməti isə 1 milyon ABŞ dollarından çox qiymətləndirilir. Həmçinin, SU-25 təyyarələrinin 11 mln. dollar dəyərində qiyməti mövcuddur. Əlavə olaraq, düşmənin arsenalında olan və məhv edilən 200-dək T-72 və onun müxtəlif modifikasiyalarının ümumi qiymətləri isə 300 mln. dollar civarında qiymətləndirilir. Hərbi ekspertlər Ermənistanın məhv edilən hava hücumundan müdafiə sistemləri arasında əsasən "Osa" komplekslərinin üstünlük təşkil etdiyini qeyd edirlər. Bu tipli silahların birinin qiyməti isə 20-25 mln. dollar arasında dəyişir. Həmçinin, ötən 4 gün ərzində düşmənin sıradan çıxarılmış təkcə avtomobil texnikasının ümumi qiyməti 2 mln. dollardan çoxdur.

V.Qasımlının sözlərinə görə, cəmi 4 gün ərzində qəhrəman ordumuzun düşmənə endirdiyi zərbələr nəticəsində rəqibin 1,2 mlrd. dollardan çox qiyməti olan hərbi texnika və sursatı məhv edilib.

Qeyd edək ki, bu ölkənin Maliyyə Nazirliyinin məlumatlarına əsasən 2020-ci il ərzində dövlət büdcəsində hərbi istiqamətə nəzərdə tutulmuş xərclərin həcmi 634 mln. dollar civarındadır.

1. Dünya Bankının məlumatına əsasən bu ölkənin Ümumi Daxili Məhsulu 2019-cu ildə 13 mlrd. dollar civarında olmuşdur. Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin məlumatlarına əsasən bu ölkə hər il ÜDM-nin 5%-ə yaxınını hərbi xərclərə ayırır.

2. Nüfuzlu "Global FirePower" hərbi-analitik mərkəzinin hesablamalarına əsasən isə Ermənistanın ümumi hərbi büdcəsi 1,385 mlrd. dollar həcmində qiymətləndirilir.

3. Göründüyü kimi, cəmi 4 gün ərzində Azərbaycan ordusu düşmənin hərbiyə ayırdığı vəsaitdən 2 dəfə çox büdcəsini, ümumi hərbi büdcəsinin isə tamamını məhv etmişdir.

Qeyd olunanları nəzərə alaraq, indiki vəziyyətdə düşmənin resurs müharibəsinə çox davam gətirəcəyi gözlənilmir. Çünki, pandemiyanın gətirdiyi yeni iqtisadi şərait bu ölkədə iqtisadi vəziyyəti onsuz da kəskinləşdirmişdir. Bu baxımdan bu ölkənin uzunmüddətli resurs müharibəsi aparmaq üçün heç bir əlavə imkanları mövcud deyildir. Bu ölkənin iqtisadiyyatı cari ilin II rübündə 2009-cu ildən bəri ən kəskin azalmanın (13,7%) şahidi olub. Bu ölkənin Statistika Komitəsinin məlumatına əsasən ölkə iqtisadiyyatı ilin əvvəli ilə müqayisədə isə ümumilikdə 5,7% azalıb.

4. Bu ölkənin iqtisadiyyatı cari ilin ikinci rübündə 2009-cu ildən bəri ən kəskin azalmanın (13,7%) şahidi olmuşdur. Statistika Komitəsinin məlumatına əsasən ölkə iqtisadiyyatı ilin əvvəli ilə müqayisədə isə ümumilikdə 5,7% azalıb.

5. Cari ilin iyul ayının göstəricilərinə əsasən ticarət balansında 1 milyard ABŞ dolları həcmində kəsir mövcuddur. Fiskal büdcə defisiti isə ÜDM-in 5%-i civarındadır.



6. Ermənistanın iqtisadi artımının ən yüksək drayveri hesab olunan xidmət sektoru pandemiyanın təsiri ilə onsuz da 10% azalıb. Müharibə şəraitində isə xidmət və turizm sektorunun Ermənistanda çökəcəyini və bunun iqtisadi göstəriciləri kəskinləşdirəcəyini proqnozlaşdırmaq heç də çətin deyil.

7. Belə ki, Ermənistan Mərkəzi Bankının rəsmi məlumatına görə, bu ölkənin hazırda rəsmi rezerv aktivləri 2,6 mlrd. dollar həcmindədir.

8. Artıq cəmi 4 gün ərzində bu ölkənin aktivlərinin 50% həcmində "əlavə xərc"i yaranıb. Yeganə olaraq, erməni hökumətinin istinad edə biləcəyi borclanma siyasətinin də artıq fayda verməyəcəyi məlumdur. Belə ki, bu ölkənin Maliyyə Nazirliyi tərəfindən açıqlanan məlumatlarda da ölkənin getdikcə borc bataqlığında batdığı görünməkdədir. 2020-ci ilin yanvar-avqust ayları ərzində büdcənin gəlirləri ötən illə müqayisədə 6% azalıb. Həmçinin, bu ölkənin 6,48 mlrd. dollar həcmində xarici borcu mövcuddur. Hələ müharibə başlamazdan öncə dövlət borcunun 2020-ci ildə ÜDM-in 60%-dək artması Maliyyə Nazirliyinin proqnozlarında əks olunurdu. Qeyd edək ki, qəbul olunmuş beynəlxalq metodologiyaya əsasən bu göstəricinin 40%-dən yüksək olması ölkənin maliyyə və iqtisadi təhlükəsizliyi üçün təhlükəli hesab olunmur. Ermənistan hökumətinin rəsmi proqnozlarında 2025-ci ilədək Ermənistanın bu borc bataqlığından çıxmayacağı və ən azı ÜDM-in 50%-i həcmində dövlət borcunun olacağı da proqnozlaşdırılıb. Digər tərəfdən, 2020-ci ilin Statistika Komitəsinin 31 avqust tarixinə açıqladığı məlumatlardan da görünür ki, bu ölkənin dövlət borcunun 76%-dən çoxu xarici valyutada, əsasən də ABŞ dollarında (40%-ə yaxın) əks olunub və ümumi borcların 20%-ə yaxını üzən faiz dərəcəsi alınmışdır ki, bu da qarşıdakı qeyri-stabillik vəziyyətlərində bu ölkənin borclara görə ödədiyi borca xidmət xərclərini artıracaqdır.

9. Hazırda bu ölkənin, cəlb etdiyi xarici kreditlərin ümumi həcmi isə 4,607 mlrd. dollar təşkil edir. Ümumi həcmdə əsas pay bir neçə beynəlxalq təşkilat və ölkədən olan investorlara məxsusdur ki, burada da borc tərkibinin diversifikasiya edilmədiyinin şahidi oluruq və gözlənilməndir ki, bu istiqamətdə investiyalar repatriasiya ediləcək.

"Bu baxımdan, hazırda Ermənistanın nəinki hərbi, həmçinin iqtisadi təhlükəsizliyi də özünün destruktiv və əsassız siyasəti nəticəsində təhlükə altına düşmüşdür. Göründüyü kimi, statistik iqtisadi göstəricilər Ermənistan iqtisadiyyatının ağır iqtisadi durumunun Azərbaycanla savaşı uzun müddət davam etdirməyə imkan vermədiyini və iqtisadi vəziyyətinin uzunmüddətli gərginliklərə, resurs savaşına hazır olmadığını göstərir. Statistik göstəricilərdən də vacibi isə, həqiqət anının Azərbaycan xalqının tərəfində olması fonunda ölkəmizdəki milli birlik qarşısında düşmənin çökəcəyi gün uzaqda deyildir", - deyə V. Qasımlı qeyd edib.

# "Nə yaxşı ki, BMT Nizamnaməsini Makronlar deyil, Şarl de Qollar yazıb" - Azər Kərimli



***Fransa Prezidenti Emmanuel Makronun açıqlamasında yer alan əsassız mülahizələr nə bu ölkənin ATƏT-in Minsk Qrupunun həmsədri, nə də BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi mandatına uyğun gəlmir.***

Bu sözləri "Unikal"a açıqlamasında millət vəkili, Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Azər Kərimli deyib.

Millət vəkili qeyd edib ki, Fransa Prezidenti "Azərbaycanın Qarabağ üzərində nəzarəti bərpa etməsinə imkan verməmək olmaz" deməklə həm də ölkəsinin BMT TŞ-dəki səsinə saygısızlıq nümayiş etdirir: "Çünki Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinin tam və qeyd-şərtsiz azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə səs verən ölkələrdən biri də Fransadır. Makranun açıqlamasından belə anlaşılır ki, Fransa öz öhdəliklərinə əməl etməyi bacarmayan, imzasını inkar edən məsuliyyətsiz bir dövlətdir. Belə olduğu təqdirdə isə Fransanın BMT TŞ-nın daimi üzvü kimi fəaliyyətini davam etdirməsi bütün dünya üçün təhlükə mənbəyidir və bu ölkə məsuliyyətsiz davranışları ilə istənilən vaxt beynəlxalq sülhü təhlükə altına qoya bilər".

Azər Kərimli Makronun açıqlamasında yer alan mülahizələrlə bağlı paralellər də aparıb: "Təsəvvür edin ki, eyni mövqeni Azərbaycan, yaxud dünyanın başqa bir ölkəsi sərgiləyir və bildirir ki, Fransanın Korsikaya nəzarət etməsinə imkan vermək olmaz. Yaxud Almaniya 70 ildən sonra Avropanın "parlament paytaxtı" olan Strasburqu tələb edir".

Millət vəkili qeyd edib ki, öz ərazi bütövlüyünü, vətəndaşlarının təhlükəsizliyini təmin etmək Azərbaycan dövlətinin müstəsna hüququdur: "BMT Nizamnaməsinin 51-ci maddəsinə görə, hər hansı dövlət beynəlxalq öhdəlikləri yerinə yetirmədiyi və başqa dövlətin ərazisini işğal etmək üçün hərbi qüvvədən istifadə etdiyi hallarda təcavüz qurbanına özünü fərdi və ya kollektiv şəkildə müdafiə etmək hüququ verilir. Azərbaycan da bu hüquqdan istifadə edərək, işğalçının sülhə məcbur edilməsi istiqamətində müvafiq addımlar atır".

Azər Kərimli vaxtilə BMT Nizamnaməsinin hazırlanmasında həmin dövrdə Fransa müqavimət hərəkatının və müvəqqəti hökumətin rəhbəri Şarl de Qollun da yaxından iştirak etdiyini bildirib: "Nə yaxşı ki, BMT Nizamnaməsini Emmanuel Makronlar deyil, Şarl de Qollar yazıb. Əks təqdirdə biz bu gün Fransanın siyasəti kimi simasız bir sənədə istinad etmək məcburiyyətində qalacaqdıq".

# Deputat: "Ermənilər dünən olduğu kimi, bu gün də Qərbin əlində maşadırlar"

"Qərb keçmiş SSRİ-dən miras qalmış milli münaqişələrə Rusiyanın içəridən dağıdılması vasitəsi kimi baxır, ona görə də E.Makron Qarabağ münaqişəsinin başa çatmasından narahatdır"

***"Unikal" xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı Əziz Ələkbərli deyib. Deputat bildirib ki, əslində, məsələnin izahı çox sadədir: "Fransa dövlətinin və onun prezidentinin ermənipərəst mövqeyi məlumdur, lakin bu, öz yerində. Əsas məsələ odur ki, 1988-ci ildə Qərb və Qərbin SSRİ rəhbərliyinə gətirdiyi agentura şəbəkəsi SSRİ-də milli münaqişələri, o cümlədən Qarabağ münaqişəsini yaratmaqla, qızışdırmaqla SSRİ-nin dağılmasını sürətləndirdilər və buna nail oldular.***

Bu gün də Qərb bu münaqişələrin, o cümlədən və ilk növbədə Qarabağ müharibəsinin genişlənməsində və Rusiyanın içərilərinə keçməsində maraqlıdır. Çünki Qərb keçmiş SSRİ-dən miras qalmış bu milli münaqişələrə Rusiyanın içəridən dağıdılması vasitəsi kimi baxır.



Fransa prezidenti E.Makronun şəxsində Qərbin bu münaqişələrdən onlara ən sərf edəni olan Qarabağ münaqişəsinin başa çatması ilə bağlı narahatlığı buradan qaynaqlanır. Niyə "bu münaqişələrin Qərbə ən sərf edəni" deyirəm, çünki bu münaqişələrdən heç birinin separatçı tərəfi ermənilər qədər şərəfsiz deyil, ermənilər dünən olduğu kimi, bu gün də Qərbin əlində maşadırlar, maşa olmaq bu millətin xislətindədir. Amma təəssüf ki, Rusiya ictimaiyyəti məsələnin bu tərəfinə əhəmiyyət vermir və Rusiya siyasətində, Rusiya mediasında kifayət qədər özünə yer eləmiş ermənilərin və ermənipərəst qüvvələrin təsiri altında antiazərbaycan və ermənipərəst təbliğat aparılmaqda davam edilir. Əgər Rusiya siyasi dairələri və Rusiya ictimaiyyəti Qərbin bu antirusiya siyasətini dərk edirsə və Rusiyanın bir dövlət kimi Qərbin siyasətinə qurban olmamasını istəyirsə, Rusiya mediasındakı ermənipərəst təbliğatı dərhal dayandırmalıdır və Qarabağ müharibəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həmişəlik başa çatmasında maraqlı olmalıdır".

***Hüseyn***

# Azərbaycan QHT-ləri BMT-nin Təhlükəsizlik Şurasına müraciət etdi



***Azərbaycan QHT-ləri Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasından Ermənistana sanksiya tətbiq olunmasını tələb edib.***

"Unikal"ın məlumatına görə, bununla bağlı BMT-yə ünvanlanmış müraciətdə deyilir: "Bildiyiniz kimi, 27 sentyabr 2020-ci il saat 06:00 radələrindən başlayaraq Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycanın yeni ərazilərini işğal etmək məqsədilə hərbi əməliyyatlara başlayıb. Bu günə qədər Ermənistan ordusunun qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrini atəşə tutması nəticəsində ikisi uşaq olmaqla, 19 nəfər mülki şəxs həlak olub, 55 nəfər yaralanıb. Dövlət və özəl mülkiyyətlərə ciddi zərər dəyib.

Ermənistan bir daha bu vəhşi əməlləri ilə sivil dəyərləri qəbul etmədiyini, mülki insanların, o cümlədən azyaşlı uşaqların qatili olduğunu nümayiş etdirir. Hərbi əməliyyatlar şəraitində mülki insanların hədəfə alınması və qəsdən öldürülməsi hərbi cinayətdir. Ermənistanın hərbi-siyasi rəhbərliyi və bütövlükdə Ermənistan dövləti buna görə məsuliyyət daşıyır. Ermənistanın Azərbaycana hərbi təcavüzü çərçivəsində xüsusilə mülki əhalini və yaşayış məntəqələrini qəsdən hədəfə alması beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozur.

Buna görə də, bu bəyanata imza atan Azərbaycan qeyri-hökumət təşkilataları həyəcan təbili çalaraq Sizi BMT-nin Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal etdiyi Azərbaycan torpaqlarından dərhal çəkilməsi ilə bağlı 4 qətnaməsinə məhəl qoymayan, sülh danışıqlarından qaçan və hazırda ölkəmizin yeni ərizlərini işğal etmək üçün döyüş əməliyyatları aparan Ermənistanın təcavüzkar siyasətini dayandırmaq üçün beynəlxalq mandatınız çərçivəsində rəsmi İrəvana qarşı təsirli addımlar atmağa və ciddi iqtisadi və siyasi sanksiyalar tətbiq etməyə çağırırıq".

# "ASAN xidmət"dən Silahlı Qüvvələrə Yardım Fonduna dəstək




***Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzləri, "Elektron Hökumətin İnkişafı Mərkəzi", "ABAD" publik hüquqi şəxsi və "ASAN Radio" tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna 200 min manat məbləğində vəsait köçürülməsi qərara alınıb.***

"ASAN xidmət"dən "Unikal"a verilən məlumata görə, müvafiq vəsait Dövlət Agentliyi əməkdaşlarının təşəbbüsü əsasında onlar üçün nəzərdə tutulan aylıq mükafatın məbləğindən həyata keçiriləcək.

Dövlət Agentliyinin kollektivi Azərbaycan Ordusuna haqq işində, Qarabağın işğaldan azad olunması yolunda tükənməz əzm və möhkəm iradə arzulayır.

Biz zəfər çalacağıq! Qarabağ Azərbaycandır!

# Daha çox vətəndaş müraciət edir - General

***Ali Baş Komandanın müvafiq Sərəncamı ilə ölkədə qismən səfərbərlik elan edilib.***

"Unikal"ın məlumatına görə, bunu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisinin birinci müavini, general-mayor Zaur Abdullayev bildirib.

Z.Abdullayev qeyd edib ki, qismən səfərbərliklə bağlı planda nəzərdə tutulandan daha çox, on minlərlə vətəndaş Xidmətin Aparatına və yerli struktur bölmələrinə müraciət edir: "Onların hər biri ərazi bütövlüyümüz uğrunda döyüşlərdə iştirak etmək istədiklərini bildirirlər. Vətəndaşların bu ruh yüksəkliyi və çoxsaylı müraciətlərinin nəticəsidir ki, proses uğurla həyata keçirilir və onlar təlimlərə cəlb edilirlər. Biz vətənpərvərlik nümayiş etdirərək döyüşlərə könüllü qatılmaq arzusunda olan çoxsaylı vətəndaşlara bir daha təşəkkür edirik".

## "Heç bir atəşkəs çağırışı keçərli deyil" - Azay Quliyev



***"Ordumuz savaşır, vətən müharibəsi aparır. Bu gün bizim çox sayda könüllülərimiz sevə-sevə cəbhə bölgəsinə gedir, rəşadətlə vuruşur. Heç bir atəşkəs çağırışı, qəbul edilən bəyanatlar keçərli deyil".***

Unikal.org-un məlumatına görə, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Azay Quliyev deyib.

Onun sözlərinə görə, Azərbaycan xalqının torpaqlarını işğaldan azad etməyə tam haqqı çatır. "Makronun son bəyanatları adamda ikrah hissi doğurur. Bir tərəfdən atəşkəsə çağırış edib, digər tərəfdən Azərbaycanı öz ərazisinə hücum etməkdə ittiham edəsən?! Fransa bu gün ATƏT-in Minsk Qrupunun həmsədri kimi öz etimadını itirib. Azərbaycan diplomatiyası qətiyyətli addım atmalıdır. Fransa səfiri Xarici İşlər Nazirliyinə (XİN) çağırılmalıdır. Eyni zamanda, digər həmsədrlərə də öz mövqeyimiz göstərilməlidir. Bu cür bəyanatlar qətiyyən Azərbaycanda ruh düşüklüyü yaratmır, əksinə ruh yüksəkliyinə səbəb olur. Ordumuz qələbə çalacaq", - deyə o vurğulayıb.

***Hüseyn***

## Düşmən mövqeləri dayanmadan məhv edilir - Korpos komandiri

***Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Birliyinin komandiri, general-mayor Hikmət Həsənov ordunun döyüş hazırlığı ilə bağlı açıqlama verib.***

"Unikal"ın məlumatına görə, Azərbaycan Ordusunun döyüşə böyük ruh yüksəkliyi ilə atıldığını deyən birlik komandiri düşmən mövqelərinin dayanmadan məhv edildiyini deyib:

"Hərbi birliyin şəxsi heyətinin amalı qələbəni təmin etmək naminə son damla qanımızadək vuruşmaq və düşməni darmadağın etməkdir. Bunun üçün əsgərlərimizin döyüş ruhu və qələbə əzmi kifayət qədər yüksəkdir".

## "Onlar deyirdilər, özünüz danışın" - Fəzail İbrahimli

***"Bizim "ideoloqlar" elə fikir yaratmışdı ki, müharibə başlasa, xalq arasında çaxnaşma düşəcək. Ancaq onların bu iddiaları puç oldu".***

Unikal.org xəbər verir ki, bunu Milli Məclisin iclasında parlamentin vitse-spikeri Fəzail İbrahimli deyib. O bildirib ki, Azərbaycan 30 ildir Minsk Qrupunun bizə etdiyi məsləhəti yerinə yetirir: "Onlar deyirdilər, özünüz danışın. Biz indi özümüz danışırıq. Qananı sözlə, qanmayanı güclə başa salırıq".

F.İbrahimli bildirib ki, Fransanın tarixi daim türkə qarşı olub: "Fransa mənəvi və siyasi haqqını itirib. Bu ölkənin özünə hörməti varsa, Minsk Qrupu həmsədrliyindən geri çəkilməlidir. Özü geri çəkilməsə, Azərbaycan bunu qətiyyətlə tələb etməlidir".

## "Fransa həmsədrlikdən çəkilməlidir" - Səməd Seyidov

***"BMT-nin 4 qətnaməsinin icra olunması beynəlxalq təşkilatların öhdəliyi idi".***

Unikal.org-un məlumatına görə, bunu Milli Məclisin iclasında deputat Səməd Seyidov deyib. O bildirib ki, ancaq parodoksal şəkildə BMT ötən gün öz qətnamələrinin icrası üçün bəyanatla çıxış edib.

S.Seyidovun sözlərinə görə, erməni işğalçıların Azərbaycandan çəkilməsi danışıqlar prosesinin əsas şərtidir: "ATƏT-in Minsk Qrupunun 3 həmsədri ötən gün hımsədrlər səviyyəsində deyil, 3 dövlət başçısı kimi bəyanatla çıxış ediblər. Artıq bəzi dövlət başçıları Roma papasından daha çox katolik olmağa cəhd edir. Bu bəyanatlar bölgədə sülhə töhfə verməyə xidmət etmir. Makronun son açıqlamaları bu qəbildəndir. Makron deyir ki, Qarabağın Azərbaycan tərəfindən yenidən ələ keçirilməsini qəbul etməyəcəyik. Bu, nə deməkdir?! Qarabağ Azərbaycan torpağıdır. Azərbaycan torpağının işğalçıdan azad olunması Azərbaycan xalqının haqqıdır və beynəlxalq hüququn tələbidir. Son hadisələr göstərir ki, ATƏT-in Minsk Qrupunun formatı dəyişdirilməlidir. Fransa ATƏT-in Minsk Qrupunun həmsədrliyindən çəkilməlidir. Azərbaycan-Fransa münasibətlərinə yenidən baxılmalıdır".

Deputat bildirb ki, Azərbaycanın hərbi əməliyyatları davam etdirməsi bu cür bəyanatlara ən yaxşı cavab olacaq.

# Elmar Məmmədyarov üçün "utanmaq dərsi"...

### Cəbhədə döyüşlər gedir, sabiq nazir yenə evindədir və cavablandırmalı olduğu vacib bir sual var

***Bu ilin iyul ayında baş verən Tovuz döyüşləri zamanı o zamankı Xarici İşlər naziri Elmar Məmmədyarovun biabırçı davranışı hər kəsin yadındadır. Məmmədyarovun həmin davranışlarından Azərbaycan xalqı ölkə başçısının çıxışı sayəsində xəbər tutmuşdu.***

Qısa xatırlatma edək: dövlət rəhbəri keçirdiyi müşavirədə Tovuz döyüşlərinin başlanmasından (iyulun 12-dən) etibarən Məmmədyarovu iş başında tapa bilmədiyini demişdi: "...biz iş yerindəydik. Baş Nazir iş yerində, mən iş yerində səhərə qədər. Müdafiə naziri, Baş Qərargah rəisi, həmçinin Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, Daxili İşlər naziri, Xarici Kəşfiyyat Xidmətinin rəisi, Təhlükəsizlik Şurasının katibi gecə səhərə qədər iş yerində. Mən Xarici İşlər nazirini tapa bilmədim. Mən Əli Əsədovdan soruşdum, haradadır..."



Bundan sonra Baş nazir Xarici İşlər naziri ilə telefon əlaqəsi yaratdığını söyləyərək onun verdiyi cavabı açıqlamışdı. Sitat: "...dedi ki, mən evdən işləyirəm....Dedim ki, belə olmaz. Biz hamımız iş yerindəyik. Prosesləri cənab Prezident idarə edir. Xarici İşlər naziri olaraq sən bunu, bunu, bunu et... Soruşdum ki, evdə niyə işləyirsiniz? Sən gəl iş yerinə, kabinetinə və s".

Bu xatırlatmanı etməkdə məqsədimiz nədir? Ötən bazar günündən etibarən cəbhədə vəziyyət yenidən gərginləşib. Belə ki, sentyabrın 27-dən işğalçı Ermənistan planlaşdırılmış hərbi təxribata əl ataraq növbəti dəfə təcavüzkar siyasətinə sadiqliyini nümayiş etdirdi. Hazırda Azərbaycan Ordusu düşmənin layiqli cavabını verir. Eyni zamanda xarici siyasət idarəmiz ciddi diplomatik səylər göstərir, düşmənin yalanları anındaca ifşa olunur, beynəlxalq ictimaiyyət baş verənlərin mahiyyəti ilə bağlı ətraflı şəkildə, operativ olaraq məlumatlandırılır. Bundan başqa, qabaqcıl dünya ölkələri ilə intensiv danışıqlar aparılır. Bir sözlə, Azərbaycan həm döyüş meydanında, həm də diplomatiya meydanında işğalçıya qarşı misilsiz üstünlüyə malikdir. Hansı ki, Elmar Məmmədyarov Xarici İşlər naziri olarkən diplomatiya idarəmiz məhz belə ciddi fəaliyyətdən məhrum idi.

Tovuz döyüşləri zamanı eks-nazirlə bağlı ortaya çıxan məqamlar əslində Məmmədyarovun necə bir nazir olduğunu lap çılpaqlığı ilə ortaya qoymuşdu. Cəbhədə ağır döyüşlər getdiyi gündə evdə oturan nazir mütləq işdən çıxarılmalıydı və çıxarıldı. Məhz bunun nəticəsidir ki, XİN-in yeni rəhbərliyi hazırkı situasiyada ölkə rəhbərliyinin etimadını doğruldur, cəmiyyətdən təqdir görür. Əslində Elmar müəllimin Xarici İşlər naziri kimi önəmli bir post üçün yararsız kadr olması rəhbərlik etdiyi nazirlikdə aparılan anti-korrupsiya əməliyyatları zamanı təsdiqlənmişdi. XİN-in müəyyən vəzifəli şəxslərinin elə kabinetlərindəcə qandallanması Məmmədyarovun "vurulması" üçün yetərli idi. Ən azı ona görə ki, XİN dövlətin ən elitar qurumu sayılır. Burada dövlət marağı kimi ən ali mənafe xarici dövlət qarşısında müdafiə edilir. Azərbaycan əsgəri, zabiti düşmənlə silah və canlı qüvvə ilə döyüşür. XİN isə sözlə, təmkinlə öz dövlətinin maraqlarını müdafiə edir. Belə bir qurumda ciddi korrupsiya, rüşvət hallarının baş verməsi xoşagəlməzdir və baş verənlərin də əsas günahkarı heç şübhəsiz, Elmar Məmmədyarovdur. Məhz bu səbəbdən onun elə həmin vaxt vəzifədən azad edilməsi heç bir etiraza səbəb olmayacaqdı. Çünki Azərbaycan dilini, az qala, bilmədiyi halda belə yüksək vəzifədə işləməsi, övladına Birləşmiş Ştatlarda milyonluq mülk alması, nazirliyi korrupsiya yuvasına çevirməsi Məmmədyarovun "vurulmasını" ictimai sifarişə çevirmişdi. Lakin məhz vətənin, dövlətin taleyi üçün həlledici anlarda işinin başında olmaq əvəzinə, evinə çəkilməsi, oradan çıxmaması, guya evdən işlədiyini deyərək özünü hər kəsə güldürməsi Məmmədyarovun XİN kimi strateji və elitar bir qurumun rəhbəri olaraq qalmasını mümkünsüzə çevirdi.

Budur, artıq günlərdir ki, cəbhədə yenə şiddətli döyüşlər gedir. Ordumuzla bərabər, xarici siyasət idarəmiz var gücü ilə çalışır. Sabiq nazir bu dəfə təbii olaraq evindədir. Yəqin ki, prosesləri izləyir. Və yəqin ki, Silahlı Qüvvələrimizin uğurları ilə bərabər, üç ay öncəyədək rəhbərlik etdiyi nazirliyin bu gün necə operativ, yorulmadan, səylə və uğurla çalışdığını görür.

Bizi maraqlandıran sual isə budur: görməklə bərabər, Məmmədyarov az da olsa, utanırmı? Anlayırmı ki, müharibə şəraitində olan bir ölkənin Xarici İşlər Nazirliyi və onun rəhbəri əslində necə işləməlidir?!

***Orxan Həsənli***

# Azərbaycan Ordusu Ermənistanı təslimçi sülhə məcbur edəcək

## Politoloq: "İlham Əliyev Təhlükəsizlik Şurasının son iclasında deyib ki, Azərbaycan xalqı problemin birdəfəlik həllini tələb edir və o bu prosesi sona çatdırmaq niyyətindədir"

***Artıq bir neçə gündür ki, Azərbaycan Ordusu Dağlıq Qarabağda əks-hücum əməliyyatlarını uğurla davam etdirir. Müharibənin davamı Ermənistanın problemlərini artırıb. Ermənistan müharibənin ilk günündən başlayaraq "qan bankına" ehtiyac duyduğunu bəyan edib, yaralıların sayının çox olduğuna görə xəstəxanalara mülki əhalinin qəbulunu dayandırıb, gənclərin Ermənistan xaricinə çıxışına qadağa qoyulub.***

Müharibədə hansı tərəfin daha çox insan potensialı, hərbi texnikası varsa, həmin tərəf uğur qazanacaq. Azərbaycan bütün parametrlərə görə Ermənistanı üstələyir. Azərbaycanın əhalisi Ermənistanın əhalisindən 5 dəfə çoxdur, hərbi büdcəsi Ermənistan büdcəsinin tamamından çoxdur.

Politoloq Elxan Şahinoğlu budəfəki gərginliyin münaqişənin birdəfəlik həlli üçün imkan olduğunu düşünür. O qeyd edib ki, Azərbaycan 27 il ərzində nizami ordu yaradıb: "Azərbaycanın İsraildən və Türkiyədən aldığı pilotsuz uçuş aparatları işğalçı ordunun hərbi texnikasını dağıtmaqda davam edir, Ermənistan bu tip silahlara malik deyil. Bundan əlavə, ordunun hərbi texnika təminatı üçün on milyardlarla dollar xərcləyib. Ən başlıcası Azərbaycan əhalisi müharibəyə hazırdır və savaşda iştirak etmək istəyir, mülki əhali də evlərini tərk etmir. Yəni həm hərbi, həm də mənəvi üstünlük Azərbaycanın tərəfindədir. Hazırda önəmli olan Ermənistandan Dağlıq Qarabağa silah və hərbi texnika aparan yolları nəzarət altına almaqdır. Murovdağ və Füzuli istiqamətində həyata keçirilən hərbi əməliyyatların məqsədi də budur. Azərbaycan ordusu Füzuli, Cəbrayıl və Zəngilanı azad edərsə, erməni separatçılarının İranla əlaqəsi kəsiləcək".

Müsahibimiz onu da vurğulayıb ki, Dağlıq Qarabağda gedən müharibə dünyanın diqqət mərkəzindədir. Onun fikrincə, böyük dövlətlər və beynəlxalq təşkilatlar Azərbaycana və Ermənistana atəşkəs çağırışı edirlər:"Bunlar normaldır və gözləniləndir. Azərbaycan bir şərtlə yenidən atəşkəs elan edib danışıqlara razılaşa bilər: Ermənistan ordusu Azərbaycan ərazilərini tərk etməlidir! Bu şərti Ermənistan hakimiyyəti qəbul etmədiyinə görə döyüşlər davam edəcək. ATƏT-in Minsk Qrupunun həmsədrlərindən ABŞ və Fransanın Cənubi Qafqaza təsir imkanları azdır. Fransa prezidenti Emmanuel Makronun Cənubi Qafqaz siyasəti yanlışdır. Fransanın keçmiş prezidenti Nikola Sarkozinin həm Ermənistan, həm də Azərbaycanla yaxşı münasibətləri var idi. Sarkozi prezident olarkən həm Ermənistana, həm də Azərbaycana səfərlər etmişdi. Emmanuel Makron isə prezident olduqdan sonra yalnız Ermənistana səfər etdi, Azərbaycana gəlmədi. Makron bununla Ermənistana üstünlük verdiyini göstərdi. Makron son açıqlamalarında da Ermənistanı müdafiə edir. Makronun bu siyasəti Fransa-Azərbaycan münasibətlərinə zərər verəcək. Digər tərəfdən də Bakı bundan sonra Parisin vasitəçilik təşəbbüslərini qəbul etməyəcək. Makrondan fərqli olaraq ABŞ prezidenti Donald Tramp Azərbaycanla Ermənistan arasındakı müharibəyə qarışmaq istəmir. Trampın bu mövqeyi Azərbaycanın maraqlarına uyğundur".



Politoloq hesab edir ki, həmsədr ölkələrdən yalnız Rusiya prosesə müdaxilə edə bilər: "Kreml müharibənin ilk günlərində neytral qalmağa üstünlük verirdi. Ancaq Kreml son günlər təzyiqi bir qədər artırmağa başlayıb.Birincisi, Rusiya işğalçı Ermənistana hərbi yükləri göndərməkdə davam edir.İkincisi, Rusiya Xarici İşlər Nazirliyinin son bəyanatında Dağlıq Qarabağa Suriya və Liviyadan muzdluların gətirilməsindən narahatlıq ifadə edilib. Azərbaycan muzdlulardan istifadə etmir. Prezident İlham Əliyevin də söylədiyi kimi Azərbaycan ordusunun resursları kifayət qədərdir, əlavə canlı qüvvəyə ehtiyacımız yoxdur. Ermənistanın muzdlulara ehtiyacı var. Ancaq Kreml Liviyanın adını çəkibsə, deməli Türkiyənin bu ölkədən Cənubi Qafqaza muzdlular göndərməsinə işarə edib.

Rusiya XİN Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada görüşünü təşkil etməyə çalışır. Hazırkı şərtlər daxilində belə bir görüş Azərbaycanın maraqlarına cavab vermir. Çünki Moskva yenidən atəşkəsə nail olub, "mərhələli həll" planının reallaşması üçün heç nə etməyəcək. Dəfələrlə bunun şahidi olmuşuq.Digər tərəfdən rəsmi Bakı çalışmalıdır ki, gələcəkdə danışıqlar formatı 2 + 2 (Azərbaycan, Ermənistan, Rusiya və Türkiyə) keçsin. Yəni rəsmi Bakı Türkiyənin bölgədə artan rolunu danışıqlar formatına da keçirməlidir. Moskva Bakının bu istəyini rədd edə bilməyəcək. Moskva Liviya və Suriya məsələsində olduğu kimi Dağlıq Qarabağ məsələsində də Ankaranın vasitəçiliyini qəbul etməlidir. Bu rəsmi Bakının qətiyyətli mövqeyindən asılıdır.

Ermənistanın baş naziri Nikol Paşinyan son günlər Türkiyənin adını çox hallandırır. Paşinyanın iki məqsədi var. Onun birinci məqsədi odur ki, guya Ermənistan Dağlıq Qarabağda Türkiyə hərbçiləri ilə savaşır. Paşinyan bununla Azərbaycan ordusunun qazandığı uğurları kiçiltməyə çalışır. Paşinyanın Türkiyənin adını mütəmadi olaraq hallandırmaqla ikinci məqsədi Rusiyanın Ermənistana hərbi dəstəyini təmin etməkdir.

Türkiyə Azərbaycanın strateji müttəfiqidir və dünyada bunu hamı belə qəbul edir. Türkiyə rəsmiləri açıq deyirlər ki, Azərbaycana istənilən dəstəyi verməyə hazırdır. Buna baxmayaraq, Azərbaycan ordusunun qarşısına qoyduğu vəzifələri yerinə yetirməkdə Türkiyə hərbçilərinin iştirakına ehtiyacı yoxdur. Ancaq o da faktdır ki, Türkiyənin Azərbaycana dəstəyi bölgədə sabitləşdirici rol oynayır.

Birincisi, Türkiyə Liviyada, İraqda və Suriyada olduğu kimi Cənubi Qafqazda da varlığını ortaya qoyub. Bu amillə Rusiya da hesablaşmağa başlayıb. Təsadüfi deyil ki, Dağlıq Qarabağda savaş getdiyi günlərdə Rusiyanın və Türkiyənin xarici işlər nazirləri arasında telefon danışığı olub.

İkincisi, Türkiyənin Azərbaycanla hərbi müttəfiqliyi Ermənistana mesajdır ki, Bakı kimi Ankara da Dağlıq Qarabağ və ətraf rayonların qeyd-şərtsiz azad olunmasını tələb edir.

Buna baxmayaraq, Nikol Paşinyan hər vasitə ilə Rusiyanın hərbi dəstəyinə nail olmaq istəyir. Bunun üçün əsas yoxdur. Çünki müharibə Azərbaycan ərazisində gedir. Rusiya da Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənistan saxta xəbərlər yayıb ki, guya Türkiyənin F-16 təyyarələri Ermənistan səmasında onların hərbi təyyarələrini vurub. Məqsəd Rusiyanın Türkiyəyə qarşı adekvat addım atılmasına nail olmaq idi. Bundan başqa Paşinyan deyib ki, Rusiyanın Ermənistandakı hərbi bazalarından istifadə edə bilərlər. Buna Paşinyan qərar verə bilməz, Kremlin qərarı olmalıdır. Belə bir qərarın verilməsi Rusiya üçün regional risqləri artıracaq.

Rusiya Dağlıq Qarabağdakı müharibədə Ermənistan tərəfdən iştirak edərsə, Kreml özü üçün iki mənfi nəticə ilə üzləşəcək.

Birincisi, Rusiya Dağlıq Qarabağdakı ermənilərə birbaşa dəstək verərsə, Azərbaycan və Türkiyə ilə münasibətləri gərginləşdirəcək. Məntiqlə bu Kremlin maraqlarına cavab verməməlidir. Çünki Ermənistan Rusiyanın hərbi müttəfiqi olsa da, Kremlin Bakı və Ankara ilə tərəfdaşlıq münasibətləri var və bu bütün tərəflər üçün faydalıdır. Azərbaycan və Türkiyə Rusiyanın bölgədə əsas iqtisadi tərəfdaşlarıdır. Kreml Dağlıq Qarabağa görə bütün bunlardan imtina etməyə hazırdırmı? İkincisi, Rusiya Dağlıq Qarabağdakı ermənilərə birbaşa dəstək verərsə, müharibənin sərhədi genişlənəcək, şimali Qafqazda Rusiya üçün təhlükəli proseslər başlaya bilər.- Rusiya müharibənin bitməsini istəyirsə, Ermənistan hakimiyyətinə təzyiq edib Dağlıq Qarabağ münaqişəsinin "mərhələli həll" planının reallaşmasını təmin etməlidir. Bu olmadan müharibəni dayandırmaq mümkün olmayacaq".

Sonda E.Şahinoğlu bildirib ki, Prezident İlham Əliyev bu işi yarımçıq dayandırmayacaq. Onun sözlərinə görə, Azərbaycan və Türkiyə problemin birdəfəlik həllini istəyirlər: "İlham Əliyev Təhlükəsizlik Şurasının son iclasında deyib ki, Azərbaycan xalqı problemin birdəfəlik həllini tələb edir və o bu prosesi son çatdırmaq niyyətindədir.Rusiya son 4 ildə iki dəfə Azərbaycana mane olub. Azərbaycan ordusu 2016-cı ilin aprel ayında əks-hücuma başlayanda ərazilərin bir hissəsini azad edib irəli gedirdi.Bu məqamda Moskvadan zənglər gəldi və Bakını inandırdılar ki, atəşkəs elan olunsa "mərhələli həll" planı işə düşəcək.Moskva vədini yerinə yetirmədi.Bu ilin iyul ayında da sərhəddə döyüşlər olanda Kreml yenə prosesə müdaxilə etdi.Bu dəfə isə vəziyyət fərqlidir.Türkiyə Rusiyadan Azərbaycana edilən diplomatik təzyiqləri neytrallaşdırır".

***Z.Məmmədli***



## Rusiyada COVID-19-dan ölənlərin sayı 21 mini ötüb

***Rusiyada son sutka ərzində daha 9 412 nəfər yeni növ koronavirusa (COVID-19) yoluxub.***

APA-nın Moskva müxbirinin Operativ Qərargaha istinadən verdiyi məlumata görə, Rusiyada COVID-19-a yoluxanların sayı 1 194 643 nəfərə çatıb.

Son sutka ərzində 186 nəfərin koronavirusdan öldüyü bildirilib. Ümumilikdə koronavirusdan ölənlərin sayı 21 077 nəfərə çatıb.

Qeyd edək ki, Rusiya koronavirusa yoluxmaların sayına görə dünyada ABŞ, Hindistan və Braziliyadan sonra dördüncü yerdə gəlir.

## NATO Türkiyə ilə Yunanıstan arasında texniki təhlükəsizlik mexanizmi yaradıb

***NATO Türkiyə ilə Yunanıstan arasında texniki təhlükəsizlik mexanizmi yaradıb.***



NATO-nun Baş Qərargahında Türkiyə və Yunanıstan hərbi heyətlərinin görüşlərinin nəticəsinə görə, texniki təhlükəsizlik mexanizminin yaradılması üçün ortaq razılıq əldə edilib.

APA-nın yerli bürosunun Türkiyə Müdafiə Nazirliyinə istinadla xəbərinə görə, bununla əlaqdar NATO-dan bidirilib ki, Şərqi Aralıq dənizində tərəflərin təhlükəsiz fəaliyyəti üçün həyata keçiriləcək koordinasiyanın texniki detallarının müzakirə edillməsilə bağlı növbəti iclas 5 oktyabr 2020-ci ildə NATO-nun Baş Qərargahında keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, 1990-cı illərdə NATO iki ölkə arasında oxşar bir mexanizmin qurulmasına dəstək verib.

NATO Baş Katibi Yens Stoltenberq bildirib ki, iki dəyərli müttəfiqlərinə münasib mexanizmin qurulması üçün əməkdaşlıq davam etdiriləcək.

# Ermənistan-Azərbaycan münaqişəsi böyük regional savaşa çevrilə bilərmi?

***Sentyabrın 27-də minaatan və artilleriya atəşi mübadiləsi ilə başlayan və bir neçə saat ərzində tammiqyaslı müharibə halına gələn Azərbaycanla Ermənistan arasında alovlanan dava dördüncü gününə qədəm qoyub. Münaqişənin necə inkişaf edəcəyi enerji baxımından zəngin bir bölgədə rəqib maraqlara sahib Rusiya, Türkiyə və İranın həlledici rolundan asılıdır.***

Qarşıdurmaların səhnəsi - Dağlıq Qarabağ rəsmi olaraq Azərbaycanın bir hissəsi kimi tanınsa da, 1990-cı illərdə Ermənistan tərəfindən işğal edilib. Toqquşmalar bölgənin şimalındakı Murovdağda və cənubda, İran sərhədinə yaxın Füzuli bölgəsində cəmləşib.

Azərbaycan-Ermənistan sərhədlərindəki gərginlik yayda baş verib və həlledici enerji kanalları yolunda yerləşən digər bir ərazidə - Tovuzda qarşıdurmalara səbəb olub. Bölgədə ard-arda hərbi fəaliyyət başlayıb, Azərbaycan Türkiyə ilə birgə hərbi təlimlər keçirib və Rusiya hərbi təlimlərinə Ermənistan qoşunları qoşulub.

Gərginliyin artmasının arxasında 5 əsas amil var:

davam edir. Azərbaycan hərbçiləri erməni qüvvələrini səpələnməyə məcbur etmək üçün yeni cəbhələr açırlar. Ermənilər, öz növbəsində, müdafiə mövqelərindən istifadə edərək Azərbaycan qoşunlarını ləngitmək üçün artilleriya və raket atışları yağdırırlar. Bu vaxt döyüş sahəsindəki yeni bir ünsür olan kamikaze pilotsuz təyyarələri yüksək dəyərli hədəflər axtarır.

Ermənistanın "Su-25" təyyarələrindən birinin türk "F-16"-sı ilə vurulduğunu iddia etməsinə baxmayaraq, hava qüvvələri bu günə qədər döyüş meydanında olmayıb. Ankara da bunu rədd edib. Döyüş təyyarələri və hücum helikopterləri ilə Azərbaycan ordusuna irəliləməsini sürətləndirmək üçün yaxın hava dəstəyi təmin edə bilməyib.

İddialara baxmayaraq, nə Ermənistanın, nə də Azərbaycanın ballistik raketlərdən istifadə edə biləcəyinə dair hərbi bir işarə yoxdur. Ermənistan Rusiyada istehsal olunan 280 kilometrə (174 mil) qədər mənzilli "İskəndər" ballistik raketlərinə sahibdir, Azərbaycan isə 300 kilometrə (186 mil) qədər uçan İsrail istehsallı "LORA" raketlərinə malikdir.

Siyasi baxımdan nə Ermənistanın, nə

yılmasına yönəlib.

Münaqişə necə inkişaf edə bilər?

Əvvəlki gərginlik kimi, qarşıdurmaların xarici müdaxilədən sonra bir həftə içində dayandırılması ehtimalı var. Belə bir perspektivin mövcudluğunun əsas səbəbləri budur:

Qafqaz - Rusiyanın arxa bağçasıdır və Rusiya NATO-nun "yaxın xaric" hesab etdiyi əraziyə girmək üçün regional bir münaqişədən istifadə etməsini istəmir. Buna görə də, toqquşmaların şərti hərbi qarşıdurma səviyyəsinə yüksəlməməsində maraqlıdır.

Türkiyə və İran həm iqtisadi böhranların məngənəsindədir və təhlükəsizlik məsrəfi, köç, siyasi və işgüzar təşəbbüslərin təxirə salınması da daxil olmaqla, regional müharibənin təsirlərindən çəkinmək istəyir. Üstəlik, Türkiyə Xəzər hövzəsindən enerji tədarükünün davamlılığını təmin etmədə maraqlıdır.

Bundan əlavə, Türkiyənin Suriya və Liviya münaqişələrində Rusiya ilə münasibətləri Dağlıq Qarabağ münaqişəsini aşağı intensiv yayındırma döyüşləri səviyyəsində saxlamasını tələb edir.

Bəzi türk müşahidəçilər isə Ankaranın

- Həm Azərbaycan, həm də Ermənistan, xüsusən də pilotsuz təyyarələr baxımından yeni hərbi qabiliyyətlər əldə edib; dolayı atəş; kəşfiyyat, nəzarət, hədəf yaxalama və kəşfiyyat; idarəetmə və rabitə; proksi elementləri.

- Cənubi Qafqazın enerji siyasətində böyük siyasi dəyişikliklər baş verir, bu da İran və Rusiyanın ixraca zərbələr endirməsi yaxın siyasi və etnik bağlara sahib olan Türkiyə ilə Azərbaycanın enerji əməkdaşlığında dramatik bir artıma təkan verir.

- Azərbaycan və Ermənistan hökumətləri həm evdə iqtisadi çətinliklər altındadır, həm də ictimaiyyəti yayındırmağa ehtiyac duyurlar.

- Həm Azərbaycanda, həm də Ermənistanda millətçi və populist tendensiyalar artmaqdadır və müvafiq liderləri İlham Əliyev və Nikol Paşinyanı daha çox eskalasiya mövqeyi tuturlar.

- Görünən budur ki, Moskva əvvəlki erməni administrasiyalarına nisbətən Moskvaya nisbi dost kimi baxan Paşinyan hökumətini zəiflətmək üçün fürsət axtarır.

Yerdəki hərbi vəziyyətə gəlincə, 1990-cı illərdən bəri 2016-cı ilin aprelində və iyul ayında Azərbaycan və Ermənistan arasında toqquşmaların baş verməsi və Moskvanın müdaxiləsi ortaya çıxıb.

Qəribə budur ki, Moskva indiki gərginliyə atipik dərəcədə laqeyddir. Kreml sanki Əliyevlə Paşinyanı danışıqlar masasına gətirmək istəmir, Rusiya mətbuatı isə iki liderdən müsahibələr almaqla məşğuldur.

Azərbaycan ordusu hücum vəziyyətindədir, lakin çətin ərazi və qarşıdan gələn qış şərtləri müdafiə olunan erməni qüvvələrinə üstünlük verir. Azərbaycan hərbçiləri olduqca asta əməliyyat tempi nümayiş etdirərək "blitskrieg" üçün fürsəti itirirlər. İdeal olaraq, indiyə qədər Dağlıq Qarabağın paytaxtı Stepanakertə gedən yolların əksəriyyətini nəzarətə götürməli, Tərtər, Ağdam və Füzuli kimi bir neçə şəhər mərkəzini ələ keçirməli idilər.

Korpus ölçüsündə böyük mexanikləşdirilmiş texnika ilə piyada manevrləri hələ döyüş meydanında görünməyib, lakin hər iki tərəf cəbhə bölgəsində güclənməyə



də Azərbaycanın Rusiyanın razılığı olmadan hava gücündən və ballistik raketlərdən istifadə edə bilməyəcəyini düşünmək ədalətli görünür. Göründüyü kimi, Moskva ənənəvi müharibənin astanasını göstərən bir addım olaraq hərbi təyyarələrin və ballistik raketlərin yerləşdirilməsinə razılıq verməyib.

İki böyük dinamika son alovlanmanı əvvəlki toqquşmalardan fərqləndirir.

Birincisi, pilotsuz təyyarələrin mövcudluğu. Azərbaycan ordusu Qafqazda baş verən qarşıdurmaların mahiyyətini dəyişdirmək məcburiyyətində olan Türkiyə istehsallı "TB2" və "Kargu-2" kamikaze dronlarından istifadə edir.

Ermənistan ordusu, göründüyü kimi, həssas mövqelərdə və müdafiə xəttlərində dron hücumlarından əhəmiyyətli dərəcədə yaralar alıb, pilotsuz döyüşlərə hazırlıqsız yaxalanıb.

İkinci fərq informasiya müharibələrinin intensivliyi və sosial medianın roludur. Azərbaycanlılar dron hücumları ilə bağlı videoları sosial mediada yayaraq güc nümayiş etdirməyə çalışırlar; Ermənistanın təbliğat müharibəsi isə əsasən Rusiya və Qərbdən dəstək almaq məqsədi daşıyan manipulyativ və aldadıcı hesabatların ya-

Dağlıq Qarabağdakı toqquşmalardan Liviyada və Suriyanın üsyançıların nəzarətində olan İdlib vilayətində Moskvanı ilə tarazlıq üçün bir vasitə kimi istifadə etməyə çalışdığına inanırlar. Hətta gərginliyin Astanaya bənzər bir prosesə səbəb ola biləcəyini, Moskva və Ankaranın Azərbaycanla Ermənistan arasında bərabər vasitəçi olacağını düşünürlər.

Türkiyə ilə Rusiya arasındakı güc asimmetriyası, Rusiyanın Qafqaza dair geosiyasi düşüncəsi və siyasəti nəzərə alınaraq, bu cür gözləntilər qeyri-real görünür.

Üstəlik, qarşıdan gələn qış şərtləri və sərt ərazi genişmiqyaslı hərbi əməliyyatları məhdudlaşdıracaq. Həm Azərbaycan, həm də Ermənistanın şikəst iqtisadiyyatları uzun müddətli hərbi qarşıdurmanı davam etdirmələrinə imkan verməz.

Ermənistanla Azərbaycan arasındakı əvvəlki alovlanmalardan fərqli olaraq, cəbhə xəttləri bu dəfə tamamilə donmayacaq. Bu, aşağı intensivli münaqişə, proksi, dron və informasiya müharibəsi epizodları ilə uzun müddətli bir aşınma müharibəsi perspektivi vəd edir.

***Metin Gürcan***
***"Əl-Monitor", 30.09.2020***

**Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Böyük köçə hazırlıq - Qarabağa qayıdırıq

## "Mən Zəngilandakı evimin açarlarını bu günə qədər sandıqda saxlamışam. O torpaq mənim olmasaydı bu inam məndə olardımı?"

***Sentyabr ayının 27-dən Azərbaycan ordusunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarımızda hərbi əməliyyatlara başlaması məcburi köçkünlər arasında öz doğma torpaqlarına qayıtmağa böyük inam yaradıb. Şücaətli ordumuz işğal altında olan 7 kəndi düşmən tapdağından azad etdikdən sonra həmin kəndlərdən illərdir ki, didərgin düşmüş, 30 ilə yaxındır ki, məcburi köçkün həyatı yaşayanlar torpaqlarına köçmək üçün hazırlıqlara başlayıb. Çox kövrək anlar yaşayan məcburi köçkünlər nəhayət ki, 27 ildən sonra öz ata-baba yurdlarına qovuşmağın intizarındadırlar.***

Qulağı cəbhədə olanlardan biri də Zəngilandan məcburi köçkün düşmüş Zeynəb Məmmədovadır. Həmsöhbətimiz deyir ki, illərdir ki, bu günün çatmasını səbirsizliklə gözləyir: "Torpaq-yurd həsrəti elə bir nisgildir ki, onu sözlə demək olmur. Biz illərdir ki, bu acını içimizdə çəkirik. Zəngilanın qoxusunu içimə çəkməyi səbirsizliklə gözləyirəm. O torpaqlara geri dönməyimizə az qalıb. Ordumuz bizi hər gün sevindirir. Cəbhədən xoş xəbərlər gəlir. Bir kəndin işğaldan azad edilməsi bir kənd insanının sevinməsi deməkdir. O torpaqlar qanqadasız geri qayıtmır. Bunu düşünmək belə ağırdır. Amma torpaqdan da pay olmur. İndi ailəmizdə, qohumlarda hamı sevinc içindədir. Hər kəs inanır, əşyasını, boxçasını yığıb Zəngilana qayıdacağı günü gözləyir. Xarici ölkələr indi bizə atəşkəs etməyi məsləhət görürlər. Amma illərdir ki, özləri də bilir ki, bizim torpaqlarımız işğal altındadır. Qarabağın bizim dədə-baba torpağımız olduğu tarixdə də var. Buna baxmayaraq illərdir ki, bu torpaqların bizə aid olmasını sübut etməyə məcbur edilirik. Axı niyə? O torpaqda mənim atamın, babamın, əjdadlarımın qəbri var. Orda abidələrin hamısı bizə aiddir. Bunu bilə-bilə bizdən fakt istəməyə nə ehtiyac qalır? İndi bizim qarşımızı kəsmək tarixə xəyanətdir.Dağlıq Qarabağa onun ətrafında illərdir işğal altında saxlanılan torpaqlara qayıtmaq bizim halal haqqımızdır. O torpaqlar bizi gözləyir. Ona görə də, biz daha dayanıb danışıqları gözləyə bilmərik. Bizə onsuz da çıxış yolu qoymadılar. İllərdir danışıqlar nəticə vermir. Ona görə də məcburuq torpağımızı müharibə yolu ilə düşməndən alaq. İnanıram ki, qələbə bizim olacaq. Mən Zəngilandakı evimin açarlarını bu günə qədər sandıqda saxlamışam. O torpaq mənim olmasaydı bu inam məndə olardımı? Əlbəttə ki, yox! Bilirəm ki, evimi erməni uçurub dağıdıb. Bu açar mənə lazım deyil. Amma o açar mənə həmişə ümid verib ki, bir gün ata-baba yurduma geri dönüb, Zəngilanda evimin qapısını açıb çırağını yenidən yandıracam!".

Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kənd sakini Umud Mirzəyev isə sevincinin sözlə ifadə olunmadığını söyləyir. Deyir ki, ən böyük qələbəmizi son qarış torpaqlarımız azad olunduqdan sonra yaşayacağıq: "Arzumuz budur ki, Laçın, Kəlbəcər, Cəbrayıl, Qubadlı - külli Qarabağ azad olunsun. İnsanın yurd-yuvasından qiymətli həyatda heç nə ola bilməz. Hər kəsin doğulduğu yurd onun ana beşiyidir. Mən Tanrıdan diləyirəm ki, Allah əsgərlərimizin üzərində yar olsun, onlara qüvvət versin. Ancaq Ali Baş Komandanın komandaları irəliyə doğru olsun. İşğal olunmuş torpaqlarda bayrağımız dalğalansın. Məni tanıyanlar bilirlər ki, mənim bütün səylərim bu işğal faktının aradan qaldırılmasına, Qarabağın əvvəlki təravətinin qayıtması uğrunda olub. Orada ilk görəcəyim iş ata yurdumu bərpa etmək olacaq. Əminəm ki, biz işğal olunmuş bütün torpaqlarımızda ata yurdumuzun çırağını yenidən yandıracağıq!"

Jurnalist Səfurə Çərkəzqızı (Orucova) müzəffər ordumuzun yağı tapdağından azad etdiyi Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində doğulub. Səfurə Çərkəzqızı bildirib ki, doğulduğu Böyük Mərcanlının azad edildiyi xəbərini televiziyadan eşidib: "Televizordan eşidəndə ki, bir sıra kəndlərimiz işğaldan azad edilib, ürəyim möhkəm çırpınmağa başladı.Böyük Mərcanlı kəndinin azad edildiyini eşidəndən sonra ardından danışılanları eşitmədim. Qızım mənə sarı qaçaraq boynuma sarıldı. Göz yaşlarıma hakim ola bilmədim. Hönkürməyə başladım. Mən o torpaqdan 20 yaşımda ayrılmışam. Bu hissi sözlə ifadə etmək, sətirlərə köçürmək mümkün deyil. Bir anlıq torpaq həsrəti ilə dünyadan köçən atamı xatırladım. Valideynlərim bu günü görmədən dünyadan köçdülər. Atam deyirdi ki, "mən Allahdan zaman istəyirəm ki, gedib öz torpağımda ölüm". Kaş əcəl bir az gecikərdi..."



Həmsöhbətimiz deyir ki, arzusu doğma yurd yerinə qovuşmaqdır: "Bəzən məndən soruşurlar ki, "Böyük Mərcanlını xatırlayırsan, getsən, öz evinizi tapa bilərsənmi?" Mən həmişə cavab vermişəm ki, mən öz ata ocağımı gözüyumulu da gedib tapa bilərəm. Hətta evimizin divarları qalmasa belə... Mənə elə gəlir ki, o kənddə torpağa, daşa toxunmaqla, uşaqlıq xatirələrimin izi ilə gedib öz məhləmizə, evimizə çıxa bilərəm. Cocuq Mərcanlı azad edildikdə mən oraya ilk gedən jurnalistlərdən olmuşam. Orada uçuq bir evin divarına söykənib öz evimizi xatırladım. Cəbrayıldan olan dostlara dedim ki, kaş Böyük Mərcanlı azad olunsun, evimizin uçuq divarları qalmasa belə, mən gedib öz ata ocağımın qaralmış, yanmış yurd yerinə sarılaram, sahib çıxaram. Şükür olsun ki, Tanrı bizə bu sevinci yaşamağı, bölüşməyi nəsib etdi".

Torpaqlarımızın azadlığı uğrunda Azərbaycan ordusunun keçirdiyi əks-hücum əməliyyatları sayəsində Azərbaycan xalqının qəhrəmanlıq dastanı XXI əsrdə də davam edir. Azərbaycan torpaqlarını işğal edən Ermənistana qarşı bu gün də bütün cəbhə boyu mərd oğullarımız mənfur düşmənlə üz-üzə durub və qəhrəmancasına mübarizə aparırlar. Ata-babalarımızdan əmanət olaraq aldığımız torpaqlarımıza yenidən sahib çıxmaq ərəfəsindəyik. Xüsusilə Prezident, Ali Baş Komandan İlham Əliyevin ordumuzun güclənməsi və möhkəmlənməsi üçün göstərdiyi diqqət və qayğı öz uğurlu nəticələrini verir. Aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Silahlı Qüvvələrimizin hərbi-texniki təchizat səviyyəsi, nizam-intizamı və döyüş ruhu kifayət qədər yüksəkdir. Ən mühüm məqamlardan biri də bundan ibarətdir ki, bu gün Azərbaycan cəmiyyətində Silahlı Qüvvələrimizə böyük inam var. Silahlı Qüvvələrimiz hər bir vətəndaşın qürur mənbəyidir. Bu, olduqca vacib amildir. Çünki ordu cəmiyyətdə özünə inamı, dövlətə etimadı gücləndirən əsas faktorlardan biridir. Aprel döyüşləri tarixə ordumuzun gücünün, xalqla ordunun vəhdətini, vətənpərvərliyinin göstəricisi kimi düşdü. Aprel qələbəsi bir daha sübut etdi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Əks-hücum əməliyyatı aparan hissələrimiz mühüm mövqelərə sahib oldu. Lələtəpə kimi yüksəklik alındı. Nəticədə 1994-cü ildə düşməndən azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Hər kəs bu qalibiyyətin sevincini yaşayır. Amma məhz aprel döyüşləri sayəsində azad olunan Lələtəpə və Talış yüksəklikləri bu rayonlarda yaşayan insanlarımızı təhlükədən qurtardı. Həm də işğaldan azad etdiyimiz yüksəkliklərdən Dağlıq Qarabağa nəzarət etmək imkanlarımız genişləndi. Aprel döyüşləri ermənilərin məğlubedilməz ordu mifini sındırdı və bir daha göstərdi ki, Silahlı Qüvvələrimiz hərəkətə keçərsə, ermənilər darmadağın olacaqlar. Artıq 7 işğal altında olan kəndimizdən, müxtəlif strateji yüksəkliklərdən Ermənistan qüvvələri qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycanın üçrəngli, şəhid qanı ilə boyanmış müqəddəs bayrağımız ucaldıldı. Əsgərlərimiz, gizirlərimiz, zabitlərimiz və generallarımız vətən uğrunda, birliyimiz və bərabərliyimiz uğrunda, Azərbaycan dövlətinin əbədi yaşaması uğrunda, gələcək nəsillər uğrunda gözlərini belə qırpmadan şəhidlik mərtəbəsinə yüksəlirlər.Bu gün xalqımızda döyüş əzmi var. Hər kəs könüllü vətənin müdafiəsinə qoşulur. Bu isə işğal altında olan torpaqlarımızın tamamilə azad ediləcəyinə, məcburi köçkünlərin doğma yurdlarına qayıdacaqları günün çox yaxında olduğuna böyük inam yaradır.

Qeyd edək ki, Azərbaycan Ordusunun uğurlu əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz azad edilib. Hazırkı məlumata görə, Füzuli-Cəbrayıl istiqamətində Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Nüzgar, Yuxarı Abdurrəhmanlı, Aşağı Abdurrəhmanlı, Böyük Mərcanlı kəndləri azad edilib. Bundan əlavə, Ağdərə rayonu və Murovdağ istiqamətlərində düşmən postları darmadağın edilib, Talış kəndi ətrafındakı əlverişli yüksəkliklər nəzarətə götürülüb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

# “Arvadımın telefonunda cavan oğlan şəkli gördüm” - Bakıda dəhşətli qətlin təfərrüatı

***Bakının Nizami rayonunda arvadını qətlə yetirməkdə ittiham olunan 1965-ci il təvəllüdlü İlham Əkbərovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

Ötən il oktyabrın 9-da İlham Əkbərov Nizami rayonu ərazisindəki mənzilində 1983-cü il təvəllüdlü arvadı Cavahir Əkbərovanı qısqanclıq zəminində öldürüb.

İlham Əkbərovun barəsində Cinayət Məcəlləsinin 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə, habelə adam oğurluğu və ya girov götürülməsi ilə bağlı adam öldürmə) maddəsinə ittiham elan edilib.

İlham Əkbərov elan olunmuş ittiham üzrə özünü qismən təqsirli bilib.

### “Münasibətlərimiz kəskinləşdi”

İlham Əkbərov qeyd edib ki, təxminən 2003-2004-cü illərdə Cəvahir Əkbərov ilə rəsmi nikaha girərək evlənib və birgə nikahlarından hazırda 15 yaşı olan Rəşad və 9 yaşı olan Yusif adlı övladları doğulublar:

“20 ilə yaxın qardaşım Füzuli Əkbərovun mülkiyyətində olan mənzildə ailə üzvlərimlə birlikdə yaşamışam. Özüm Bakı şəhəri ərazisində ev alqı-satqısı ilə məşğul olmuşam. Cavahirlə əvvəllər mehriban yaşamışam. Təxminən 3-4 il olar ki, xırda ailə daxili münaqişələrimiz olub, son bir il ərzində isə münasibətlərimiz daha da kəskinləşib.

Arvadım 12 il ərzində heç bir yerdə çalışmayıb. Daha sonra bir müddət yaşadığımız əraziyə yaxın yerdə təndirxanada, təxminən 3 il əvvəl isə Bakı şəhəri, Sabunçu rayonu ərazisində ünvanını dəqiq bilmədiyim “Xeyir-şər evi”ndə qabyuyan - xadimə işləyib. Gündəlik 20 manat əməkhaqqı alıb.

Cavahirin həmin “Xeyir-şər evi”ndə məclis olduqda iş vaxtı saat 07-də başlayıb, axşam saat 17-19 radələrində bitib”.

### “Cavan oğlanın şəklini gördüm”

Təqsirləndirilən şəxsin ifadəsinə görə, son dörd ay ərzində Cavahirin iş yerində cəmi üç dəfə olub, ondan əvvəl isə ora getməyib: “Cavahirin işləməyinə ümumiyyətlə razı olmamışam. Bir neçə dəfə bu barədə ona bildirmişəm. Cavahir işinin yaxşı olduğunu, istədiyi vaxt işlədiyi yeri görmək üçün oraya gedə biləcəyimi söylədi.

Təxminən bir il yarım bundan əvvəl yaşadığımız mənzildə övladlarım və Cavahirlə televizor izləyərkən, arvadımın diqqətlə telefona baxdığını gördüm. Telefonda belə vacib nəyə baxdığından şübhələndim. Telefonu onun əlindən aldım, ekranda cavan oğlanın şəklini gördüm və həmin şəklin kimə məxsus olduğunu soruşdum.

Cavahir həmin oğlanın işlədiyi mərasim evinin inzibatçısı Seymur olduğunu bildirdi. Ondan nə üçün Seymurun şəklinə baxdığını soruşdum. Arvadım sadəcə rastına çıxdığı üçün baxdığını söylədi. Buna görə də həmin hadisəyə çox da fikir vermədim”.

### “Mənə xəyanət etməsindən şübhələnməyə başladım”

İlham Əkbərov qeyd edib ki, təxminən 3-4 ay əvvəl Cavahirin istifadəsində olan mobil telefon nömrəsinin “WhatsApp” proqramının statusunda “Uzaqdan uzağa sevməkdə biz birinci yerdəyik” yazısını qoyduğunu görüb: “Həmin vaxt Cavahirə zəng vuraraq nə üçün belə bir status paylaşdığını soruşdum. Cavahir onu elə-belə qoyduğunu dedi. Bu danışıqdan təxminən beş dəqiqə sonra arvadım yazını sildi.

Həmin statusun yazılmasından sonra Cavahirin mənə xəyanət etməsindən şübhələnməyə başladım. Hadisədən təxminən 4-5 gün əvvəl gecə saat 23 radələrində Cavahirin mobil telefonundan adını “Rəqsanə” kimi qeyd etdiyi, mənə Seymurun əmisi qızı olduğunu bildirdiyi şəxsə “WhatsApp” proqramı vasitəsilə sevgi xarakterli videoçarxlar göndərdiyini gördüm. Nə üçün belə etdiyini soruşdum. Cavahir Rəqsanənin həmin videoları “WhatsApp” proqramının statusunda gördüyünü və xahiş etdiyi üçün göndərdiyini söylədi.



Həmin vaxt Cavahirin telefonu səssiz rejimdə olduğundan bir daha şübhələndim. Növbəti gün yoxladıqda həmin videoların Cavahirin telefonunun “WhatsApp” proqramının statusunda olduğunu gördüm. Son vaxtlarda Cavahir mənimlə intim əlaqədə olmaqdan da çəkinir, mənə qarşı soyuq münasibət göstərirdi”.

### “Seymurla birlikdə tək olublar”

Təqsirləndirilən şəxs bildirib ki, təxminən 2-3 ay əvvəl ev alqı-satqısından qazandığı 2000 manat pulu Cavahirə verərək işlərinin yolunda olduğunu söyləyib və işdən çıxmasını tələb edib: “Cavahir isə cavabında “10 min manat da versən, işimdən çıxmaram” dedi. İşi əziyyətli, amma azqazanclı olduğundan ora başqa məqsədlə getməsinə şübhələrim daha da artdı.

Cavahirin işlədiyi “Xeyir-şər evi”ndə məclis adətən saat 15 radələrində bitirdi. Bundan sonra həmin yerdə Seymurla birlikdə ya iki qabyuyan (Cavahir və Nazilə), ya da ümumiyyətlə sadəcə bir qabyuyan qalıb və axşama kimi onlar orada tək olublar.

Çox vaxt səhərlər arvadım işə gedərkən onun busqalterini özüm bağlamışam. Hadisədən təxminən bir həftə əvvəl Cavahir işdən qayıtdıqda köynəyini çıxardı, məndən busqalterini açmağımı xahiş etdi. Həmin vaxt busqalterin özünün bağladığı kimi sonuncu ilgəkdən deyil, birincidən bağlandığını, hətta tam olaraq da bağlanmadığını gördüm. Bu barədə Cavahirdən soruşdum. O, işlədiyi yerdə, çox güman, əyildikdə busqalterinin açıldığını söylədi”.

### “Arvadımın yad kişiyə bu sözü deməsindən əsəbiləşdim”

İlham Əkbərov qeyd edib ki, hadisə baş verməmişdən əvvəlki gün saat 16 radələrində Cavahirin iş yerinə gedib: “Məqsədim həmin gün “Xeyir-şər evi”nin bir zalı işlədiyindən yalnız bir nəfər qabyuyan-xadimənin ora getməli olduğu halda, həmin gün Nazilə növbətçiykən Cavahirin də oraya çağırılmasının səbəbini öyrənmək olub.

“Xeyir-şər evi”nin mətbəxinə daxil olduğum vaxt Nazilə ilə Cavahirin qab yuduqlarını gördüm. Onlara salam verdikdə Nazilə mənimlə salamlaşdı. Cavahir isə mənə heç bir cavab vermədi və üzünü turşutdu. Bundan sonra “Xeyir-şər evi”nin daxilində gəzməyə başladım. Həmin vaxt inzibatçı Seymur və müdir Elnur da orada idilər. Cavahir Naziləyə məni nəzərdə tutaraq “buna bax, o tərəf-bu tərəfə yeriyir, elə bir qarovulçudur”, - deyə söylədiyini eşitdim.

Kənar şəxslərin yanında Cavahirlə dalaşmaq istəmədiyim üçün heç bir söz demədinm. Orada olarkən Seymur məni gördü, salamlaşdı. Elnuru isə həmin gün ümumiyyətlə ilk dəfə görmüşdüm.

Bir müddət sonra Nazilə və Cavahir zalı süpürərkən Cavahir mənim yanımda Seymura “get mənim telefonumu gətir, birdən itib eləyər”, - deyə bildirdi. Özümün yanında ola-ola arvadımın yad kişiyə bu sözü deməsindən əsəbiləşdim. Ancaq nə Cavahirə, nə də orada olan başqa şəxslərə heç bir söz demədim”.

### “Cavahir “sən oraya tülkü kimi məni güdməyə gəlmişdin” deyə bildirdi”

İlham Əkbərovun ifadəsinə görə, saat təxminən 18 radələrində işləri bitdiyi üçün Cavahir və Nazilə ilə birlikdə oradan çıxıblar və avtobus dayanacağına gediblər: “Nazilə bizdən ayrıldı. Mən isə Cavahirlə birlikdə 55 nömrəli marşrut avtobusu ilə Bakıxanov qəsəbəsindəki stansiyaya gəldik. 213 nömrəli marşrut avtobusuna əyləşərək metronun “Qara Qarayev” stansiyasının yaxınlığında düşdük. “Grand Market”in yaxınlığında söhbət etmək üçün Cavahirə küçənin kənarındakı oturacaqda əyləşməyi təklif etdim. Söhbət zamanı Cavahirə iş yerində salamımı almadığını, orada yad bir adama - Seymura telefonunu gətirməyi tapşırdığını, bunu məndən xahiş etmədiyini, eləcə də Naziləyə mənim qaravulçu kimi gəzməyimi bildirməklə, lağ etdiyini, bu hərkətləri ilə mənə qarşı hörmətsizlik göstərdiyini bildirdim.

Arvadıma irad tutarkən aramızda mübahisə baş verdi. Cavahir “sən oraya tülkü kimi məni güdməyə gəlmişdin” deyə bildirdi. Mən də cavabda “tülkü sənin nəslindir, mən aşkar gəlmişdim, səni güdmürdüm, sən dəfələrlə mənə nə vaxt istəsəm iş yerinə gələ biləcəyimi söyləmişdin”, deyə cavab verdim.

Bir müddət mübahisə etdikdən sonra Cavahir Seymuru nəzərdə tutaraq “sən oraya gəlməklə qıçın boyda uşağı da, məni də pis elədin”, deyə söylədi. Bundan sonra birlikdə yaşadığımız evə getdik. Saat təxminən 19 radələrində evə çatdıq. Evdə də mübahisələrimiz davam etdi. Ancaq uşaqlar evdə olduğundan açıq-aşkar mübahisə etməməyə çalışdım. Cavahirə nə dedimsə qışqıraraq cavab verdi, bəzi vaxtlar əl-qol atdı”.

### “Səhərin açılmasını gözlədim”

İlham Əkbərovun sözlərinə görə, axşam saat 23 radələrində əsəbiləşdiyi üçün mətbəxdə təxminən 50 qram araq içib, otaqlarında olan çarpayıda uzandıqları vaxt gecə saat 3 radələrinə kimi söz-söhbətləri davam edib: “Bir qədər sonra Cavahir yuxuya getdi. Özüm isə əsəbləşdiyim üçün yata bilmədim. Tez-tez siqaret çəkmək üçün mətbəxə keçdim. Həmin vaxt övladlarım öz otaqlarında yatmışdılar.

Gecə saat təxminən 4 radələrində əsəbimdən yataq otağına gələrək qapının yanında olan idman qantelini götürdüm, sonra çarpayının pəncərə tərəfdən yanına keçdim. Həmin vaxt Cavahir böyrü üstə, arxası pəncərəyə tərəf yatılı vəziyyətdə idi. Qanteli üç dəfə Cavahirin baş nahiyəsinə zərbə endirdim. Cavahir “ah-vay” deyə yavaş səs çıxardı, yatdığı üçün mənə heç bir müqavimət göstərə bilmədi. Qışqırar və uşaqlar oyanıb qorxar deyə balınclardan birini arvadımın sifətinə basdım. Bir az sonra səsinin çıxmadığını gördüm, qanteli pəncərənin qarşısına qoydum. Sonra mətbəxə keçdim. Bir müddət orada oturub siqaret çəkərək səhərin açılmasını gözlədim”.

### “Uşaqlarımı götürüb Şəkiyə getdim”

Təqsirləndirilən şəxs bildirib ki, saat 6 radələrində hava işıqlandığı vaxt bir daha yataq otağına qapıdan baxıb: “Həmin vaxt Cavahirin tərpənmədiyini gördüm, qapını örtdüm. Uşaqlarımı yuxudan oyatdım. Onlara böyük oğlumun hərbi komissarlıqdan sənədini almaq üçün Şəkiyə getməli olduğumuzu, Cavahirin isə işə getdiyini bildirdim. Uşaqlar geyindikdən sonra saat 6-7 arasında mənzildən çıxaraq qapını bağladım.

Uşaqlarla birlikdə metronun “Qara Qarayev” stansiyası yaxınlığında markasını və dövlət qeydiyyat nişanını xatırlamadığım taksiyə əyləşərək Bakı Beynəlxalq Avtovağzalına getdik.

Oradan da dövlət qeydiyyat nişanını xatırlamadığım “Mercedes” markalı taksiyə əyləşərək Şəki rayonu, Bideyiz kəndində anam və qardaşımın yanına getdim. Anama və qardaşıma sənəd dalınca gəldiyimi dedim. Hadisə haqqında onlara heç bir söz söyləmədim. Cavahirin haqqında soruşsalar da, arvadımın işdə olduğunu bildirdim”.

İlham Əkbərov ifadəsinin sonunda törətdiyim cinayət əməlini etiraf etməsini, könüllü təslim olmaq məqsədilə Şəki rayon polis şöbəsinə getməsini və hadisə barədə məlumat verməsindən danışıb.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İlham Əkbərov 16 il 6 ay müddətinə azadlıqdan məhrum edilib(teleqraf).

***Hacı Zeynalov***

# Ermənistan ərzaq böhranı astanasında - TƏHLİL



***Azərbaycanın təmas xəttində əks-hücum əməliyyatlarına başlamasının hələ ilk mərhələsində Ermənistan artıq ərzaq təminatında ciddi problemlərlə üzləşir. Məlumatlara görə ərzaq məhsullarının əldə olunmasında məhdudiyyətlər, mağazaların bir qisminin fəaliyyətini dayandırması düşmənləri həyəcan təbilini çalmağa məcbur edib.***

Əhalinin təlaşı və bununla əlaqədar olaraq müxtəlif mənbələrə ərzaq dəstəyi ilə bağlı müraciətlərin sayı artır. Maraqlı məqam isə, sözügedən vəziyyətin sadəcə işğal olunmuş torpaqlarda deyil, həm də Ermənistan ərazisində aktual olmasıdır. Bu isə Ermənistanda tezliklə ərzaq böhranının dərinləşəcəyini deməyə əsas verir. Ümumiyyətlə, Ermənistan həm iqtisadi, həm sosial, həm siyasi və demək olar ki, bütün sahələrdə Azərbaycandan geri qalır. Düşmən sadəcə öz resurslarına və qüdrətinə görə qiymətləndirildikdə Azərbaycana rəqib olaraq adlandırıla bilməyəcək qədər gücsüzdür. Təkcə ölkənin sosial vəziyyətinə nəzər salmaq xalqın bitkinliyini, müharibəyə hazır olmadığını anlamağa yetərli ola bilər. Belə ki, cəmi 3 milyona yaxın əhalisi olan dövlətin demək olar ki dörddə birini (23.3 %) yoxsul əhali təşkil edir. Başqa sözlə, Ermənistan vətəndaşlarının hər 4 nəfərdən 1-i yoxsuldur. Əhalinin sağlamlığı və rifahı üçün önəmli göstərici olan qida təhlükəsizliyi də Ermənistanda ciddi dərəcədə aşağı həddədir. Belə ki, ölkənin 15.3% əhalisinin qida təhlükəsizliyi problemi mövcuddur, 6% əhali isə gündəlik tələbatı olan qidanı əldə edə bilməyərək aclıqla üzləşir.

Qida və Kənd Təsərrüfatı Təşkilatının (FAO) verdiyi məlumatlara əsasən Ermənistanın qida idxalının ölkənin ümumi ixracına nisbəti 24% təşkil edir. Bu da ölkə əhalisinin qida təminatının nə dərəcədə idxaldan asılı olduğuna işarədir. Birləşmiş Millətlər Təşkilatının Dünya Qida Proqramının açıqladığı məlumatlara görə Ermənistan taxıl və taxıl məhsullarının 67%-ni, quş ətinin 78%-ni, ümumi ət məhsullarının ortalama olaraq 50%-ni, bitki yağlarının 96%-ni, paxlalı bitkilərin isə 50%-ni idxal edir.

Təşkilat bu göstəriciləri nəzərə alaraq Ermənistanın qida təhlükəsizliyinin aşağı olduğunu, əhalinin qida təminatının, xüsusilə, fövqəladə hal olduqda ciddi risk altında olduğunu da qeyd edib. Bundan başqa, Qlobal Qidalanma Hesabatının ("Global Nutrition Report") təhlillərinə əsasən Ermənistanda qida məhsullarının diversifikasiyası aşağı həddədir və əhali qeyri-sağlam qida vərdişlərinə sahibdir. Bu da öz növbəsində əhalinin sağlamlığına və fiziki məhsuldarlığına mənfi təsir göstərir. Dünya Səhiyyə Təşkilatının statistik göstəricilərinə əsasən Ermənistanda əhalinin 48%-i artıq çəkidən əziyyət çəkir. Keçirilən sorğulara əsasən isə 5-yaşa qədər uşaqların 9%-ində boy artımında problemlər, 14%-ində artıq çəki, 16%-ində isə anemiya (qan azlığı)problemləri aşkarlanıb.

Əsas idxalçıları Rusiya, Ukrayna, Latın Amerikası, Gürcüstan, Afrika, Braziliya, Hindistan olan və xalis qida idxal edən bir ölkə kimi Ermənistanın qida təminatı bir çox faktordan - yerli valyuta məzənnəsi, idxalçılarla olan əməkdaşlıq, xarici ölkələrə çıxış və daşımaların sürətliliyi kimi logistik imkanlardan çox asılı vəziyyətdədir. Bu da ölkədə istehlak olunan qida məhsullarının qiymətinin qeyri-stabil olmasına gətirib çıxarır. Yerli məhsulların qiymətlərinin dəyişkənliyi də müxtəlif daxili faktorların qeyri-sabit olmasından asılı olaraq yüksəkdir. Belə ki, Qida və Kənd Təsərrüfatı Təşkilatının (FAO) "Qida məhsullarının qiymətlərinin volatilliyi" indeksinə görə Ermənistanda yerli məhsulların qiymətlərinin volatillik göstəricisi 12%-ə yaxındır.

Bu göstəriciləri nəzərə alaraq qeyd etmək olar ki, Ermənistanın ərzaq təhlükəsizliyi siyasi sabit dönəmdə bu dərəcədə mənfi olduğu halda, müharibə şəraitində daha da pisləşəcək. Yəni müharibə şəraitində həm maliyyə resurslarının hərbi xərclərə yönəldilməsi, həm də siyasi və logistik məhdudiyyətlər ərzaq məhsullarının idxalına da mənfi təsir göstərəcək. Eyni zamanda yerli məhsulların istehsalında iştirak edən əmək qüvvəsinin səfərbər olunması (yaşı 55-ə qədər olan bütün kişilərin döyüşlərə cəlb olunduğunu nəzərə alaraq) ərzaq təhlükəsizliyini aşağı salacaq. Bu da, öz növbəsində, Ermənistan ordusunun ərzaq təminatına öz mənfi təsirini göstərəcək.

# Mərkəzi Bankı "Azpul" BOKT-yə lisenziya verib

***Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin qərarı ilə "Azpul" MMC bank olmayan kredit təşkilatına (BOKT) lisenziya verilib.***

"Unikal" bu barədə tənzimləyici quruma istinadən xəbər verir. Məlumata görə, bununla da ölkədə lisenziyası olan BOKT-lərin sayı 46-ya çatıb.

Xatırladaq ki, "Azpul" 2018-ci ildə 1 000 manat nizamnamə kapitalı ilə yaradılıb. Şirkət ilk öncə Bakıda quraşdırdığı, pul paylayan aparatlarla "(Azpulmat") gündəmə gəlib, vətəndaşların şəxsiyyət vəsiqəsinin sürəti və barmaq izi əsasında 30 saniyə ərzində 20 manatdan başlayaraq borc verib. Həmin borc 5 gün ərzində 21 manat olmaqla geri qaytarılmalı idi. Geriyə ödənişi vaxtında etmiş şəxslər növbəti mərhələdə 40 manat borc ala bilirdilər. Yəni borc limiti 2 dəfə artırdı və maksimum 1 000 manat ola bilərdi. Bu isə ictimaiyyətin geniş marağına səbəb olub. Amma bu fəaliyyətin hüquqi əsası olmadığından aparatların fəaliyyəti qısa müddətdə dayandırılıb. Bundan sonra kommersiya qurumu nizamnamə kapitalını kəskin artıraraq 300 min manata çatdırıb və BOKT-yə çevrilib.

# Cəbhə bölgəsinin enerji təchizatına ciddi ziyan dəyib - Nazirlik

***Ermənistanın silahlı qüvvələri mülki infrastruktur obyektlərini atəşə tutmaqda davam edir. Bu günə olan məlumatlara görə yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində Goranboy, Tərtər, Ağdam, Füzuli, Ağcabədi, Göygöl rayonları və Naftalan şəhərini elektrik enerjisi ilə təchiz edən infrastrukturların bir qismi yararsız hala düşüb.***

Azərbaycan Energetika Nazirliyindən Lent.az -a verilən məlumata görə, Goranboy rayonunda 35 kV-luq "Gülüstan", 110/30/10 kV-luq "Naftalan" yarımstansiyadan çıxan 10 kV-luq "Əzizbəyov", "2-ci Subartezian" hava xətləri və 2 ədəd transformator vurulub.

Tərtər rayonunda 35 kV-luq "İsmayılbəyli" yarımstansiyasından çıxan 10 kV-luq "1№-li Hüsənli" hava xətti 9 yerdən, "3 №-li Qaraqoyunlu" hava xətti 11 yerdən, "4 №-li Qaynaq" hava xətti 17 yerdən, "5 №-li Evoğlu" hava xətti 1 yerdən, "10№-li Qapanlı" hava xətti 12 yerdən, "6 №-li Qarağacı" hava xətti 3 yerdən vurulub. Bu xətlərin, həmçinin yararsız vəziyyətə düşmüş 35 kV-luq "Dəmirçilər", "İsmayılbəyli" hava xətlərinin, eləcə də 110/35/10 kV-luq "Tərtər" yarımstansiyasından çıxan və 30 dəfə vurulmuş 10 kV-luq "6 №-li Şıxarx" hava xəttinin təmir-bərpası hələlik mümkün olmayıb. 110/35/10 kV-luq "Tərtər" yarımstansiyasından çıxan və dəfələrlə atəşə məruz qalmış 10 kV-luq "3 №-li AzGes", "8 №-li Şəhər", "11 №-li Sarıcalı", "9 №-li Şəhər", 1 №-li Qaradağlı" və "4 №-li Seydimli" hava xətləri isə bərpa olunub.

Füzuli rayonunda 35 kV-luq "Horadiz-Böyük Bəhmanlı" hava xətti , 35/10 kV-luq "Mahmudlu" yarımstansiyasından çıxan 10 kV-luq "Qazaxlar" hava xətti vurulub və bərpa olunub. Alxanlı kəndində isə 0.4 kV-luq paylayıcı şəbəkə yararsız haldadır, təmir-bərpa işləri görülür.

Ağdam rayonunda 35 kV-luq "Quzanlı-1", "Quzanlı-2" hava xətləri, 35/10 kV-luq "Əfətli", 110/35/10 "Təzəkənd, 35 kV-luq "Xındırıstan" , 35 kV-luq "Baharlı", 35/10 kV-luq "Baharlı", 35/10 kV-luq "Ergi-1" və 110/35/10 kV-luq "Ergi" yarımstansiyalarından çıxan 10 kV-luq hava xətləri dəfələrlə atəşə məruz qalıb. Bu hava xətləri bərpa edilib, lakin vurulan 3 ədəd transformator tamamilə yarasız vəziyyətdədir.

Ağcabədi rayonunda 35/10 kV-luq "Qiyamədinli" yarımstansiyasından çıxan 10 kV-luq "Arazbarı" hava xətti 4 dəfə vurulub və bərpa olunub.

Naftalanın Qaşaltı kəndində və Göygölün Tovuzlar kəndində isə 0.4 kV-luq paylayıcı şəbəkələr yararsız haldadır, təmir-bərpa işləri görülür.

Cəbhə zonasında yaranmış gərgin vəziyyətlə əlaqədar sentyabrın 27-dən etibarən Goranboy rayonunun Tapqaraqoyunlu kəndinin, Tərtər rayonu üzrə ümumilikdə Tərtər şəhəri və 51 kəndin qaz təchizatı məhdudlaşdırılıb. Tərtər rayonunun isə qaz təchizatı bərpa edilib. Füzuli rayonu üzrə 3910 abonentə təbii qaz verilib, 8655 abonentin qaz təchizatı məhdudlaşdırılıb. 43 kənddən ibarət Ağcabədi rayonunun 25 kəndində qaz təchizatı isə məhdud olaraq qalır.

Bu gündən Beyləqan rayonunun 42 kəndinin qaz təchizatı tam təmin edilib. Ağdam rayonunun 1 kəndi (İmanqulubəyli kəndi) və 5 qəsəbəsi (83 saylı Yeni İmanqulubəyli, İmanqulubəyli, Quzanlı, Quzanlı-1 və Qasımbəyli qəsəbələri, 689 saylı qəsəbə) təbii qazla təmin edilib, rayonun 53 yaşayış məntəqəsinin qaz təchizatı isə məhdudlaşdırılmış olaraq qalır.

# Allah, əhd eyləmişəm, məni o yerlərə qaytar!

***...Yaradanımız gündüz çəkdiyim həsrəti axşam beş-on dəqiqə dincəldiyim vaxt həqiqətə çevirdi. Yuxuda gördüm ki, ilk dayağım, sevgim, yıxılıb ağladığım müqəddəs torpağımız gül-çiçəyə qərq olub. Həmin lalələr-nərgizlər arasında bir qadın dayanıb. Əlində ağappaq dəsmal var. O, mənə nə isə demək istəyir. Ancaq səsi eşidilir, sözləri anlaşılmır. Uşaqlığımdan yaşımın bu çağına qədər onunla mənim aramda zaman kəsiyi, yol məsafəsi var. Birdən-birə heyrətlənirəm: o qadın doğmaca bacımdır. Məni - qardaşını köməyəmi, imdadamı çağırır? Mən isə gedə bilmirəm, neyləyim?!***

Ayıldım yuxudan. Nə doğma yerim, nə gül-çiçəkli torpağım, nə də əlində dəsmal tutan bacım vardı. Sanki dörd divar tarım çəkildi, məngənə kimi məni sıxmağa, əzməyə başladı... Azacıq toxtayandan sonra qəti qənaətə gəldim ki, qaçqın şəhərciyinə, bacımla görüşə gedim. Avtovağzalda əkin-biçin qüvvəsinə qadir gənclərin hay-küyünü eşitdim. Onlar var gücləri ilə qışqırıb müştəri - sərnişin yığırdılar. "Lənkərana, Qubaya, Qusara, Qaxa... gedənlər üçün rahat yerli maşınlar var" - deyirdilər. Nə qədər dinlədim, mənə doğma, əziz, əvəzsiz olan Cəbrayılın adını eşitmədim. Ürəyimdən keçdi ki, kaş o oğlanlar heç olmasa çaşaydılar, yanılaydılar, deyəydilər: "Cəbrayıla gedən sərnişinlər gəlsinlər".

Doğma yurdumun sakinlərinin bir hissəsi də Mil-Muğan düzündə müvəqqəti məskunlaşıblar. Bileti Cəbrayıla yox, Biləsuvara aldım. On iki il ərzində bu yolu çox gedib-gəlmişəm. Əvvəllər camaatın vəziyyəti yaman ağır, dözülməz idi. Ömürləri boyu səfalı, axarlı-baxarlı yerlərdə yaşayan insanlar onda çarəsizlikdən tikanlı-yovşanlı düzlərdə qərar tutmaq zorunda qalmışdılar. Son vaxtlar vəziyyət, güzəran xeyli yaxşılığa doğru dəyişib. Məcburi köçkünlərə ailə üzvlərinin sayına görə bir, iki, üç otaqlı bütün şəraiti olan ev, hər ailəyə isə müvafiq olaraq 6-10 sot həyətyanı torpaq sahəsi veriblər. Qaçqın şəhərciyində bu gün yaşamaq üçün, əlbəttə, müvəqqəti - bütün şərait yaradılmışdır. Həmin insanlar onlar üçün yaradılan şəraitə görə respublikamızın prezidentinə minnətdarlıqlarını bildirirlər.

...Mindiyimiz maşın yolu yumağından açılmış sap kimi çözələyir. Sağımda əyləşən ahıl kişinin köks ötürməsindən, ahından təngə gəlirəm. Onsuz da baxmaqdan gözlərim yorulmuşdu. Gündəlik qəzetləri vərəqləməyə başladım.

Şairin bu misraları məni sac üstündə qovurğa kimi qovurdu:

Mənim o yerlərə dönməyim gəlir.

Allah, yol ver gedim, əhd eləmişəm.

Bu yolu bir dəfə geri dönməyə -

Bəlkə milyon dəfə cəhd eyləmişəm...

Bu nisgilli, fəryadlı, iniltili misralar yenidən onsuz da intizarlı düşüncələrimi əlimdən aldı. Amma gərgin halım uzun çəkmədi. Çunki həmin o sağ tərəfimdə əyləşən ahıl kişi dilləndi:

- Oxuduğun o qəzetdə nə yazılıb, a bala? Nə deyirlər? Yazırlar ki, sülh danışıqları ilə tezliklə yurdumuza-yuvamıza qayıdacağıq? Eh, ay oğul, tarixdə elə hal olubmu ki, amansız işğalçı işğal etdiyi ərazini, torpağı xoşluqla qaytarıb öz sahibinə versin? Məgər donuza "kiş" deməklə darıdan çıxar? çıxmaz! Yalnız hünərimizlə torpaqlarımızı geri qaytarmalıyıq. Yoxsa, yarpaq kimi saralıb-solacağıq, üzülüb düşəcəyik, ölüncə yurd yerlərlərimizə həsrət qalacağıq.

Ömrüm boyu "qaçqın" sözü yazmaqdan ehtiyatlanmışam. Daha doğrusu, bu qorxunc, ətürpədici sözdən acığım gəlib. İndi neyləyim, Tanrı məni dilizarıncı qoyub. İstəməsəm də indi yazıram: adını bilmədiyim yol yoldaşım da qaçqındır. Atasının, babasının məzarlarına yaşının bu vaxtında tamarzı qalıb. Neyləyim, ona təskinlikmi verim? Yox! Şair demiş: "Dağın bu üzündən o üzünə, düşmənə söyməklə Vətən qayıtmaz". Ömrünün ixtiyar yaşında yaşayan bu kişinin min bir məhəbbətlə sevdiyi, sinəsində əkib-becərdiyi torpaqda indi ulaşmalar eşidilir, səmasında qarğa-quzğunlar cövlan edir. Bu dərdə ahıl kişi necə dözsün, ağlamasın-zarımasın, neyləsin? Onun kimliyini soruşdum. Dedi ki, "məşhur Aşıq Pərinin məkanı Maraylan kəndindənəm, hələ işğaldan əvvəl camaatımız mənə aşıq Zeynal deyərdi. Aqillər buyurub ki, sözün göyərmədiysə, daha danışma. Vətənsiz, yurdyuvasız çalmaq-oxumaqmı olar, a bala? O boyda Dirili Qurbani - aşıq-ozan sənətimizin banisi niyə Təbrizdə, İranda-Turanda əcəlini gözləmədi? Çünki doğma torpaq onu gözə-görünməz qüvvə kimi özünə çəkdi".

Dünyada ən dəhşətli, dözüləsi mümkün olmayan bir dərd, kədər varsa, inanın, o da yurd həsrətidir. Qarışqalar da, quşlar da yuvalarına sadiq olurlar. Yer üzünün əşrəfi insan isə bu sevgiyə daha artıq məhkumdur. Zeynal kişi soruşdu ki, "biz doğma torpaqlarımıza nə vaxt qayıdacağıq?" Cavab verə bilmədim. Susduğumu, bəlkə də acizliyimi anlayıb özü öz sualına cavab verdi: "Doğma məkanımız, torpaqlarımız bizi çağırır. Getməsək, kişi deyilik. Ay oğul, unutmayaq: gəzməyə qürbət ölkə, ölməyə vətən yaxşıdır... Azərbaycanımızın hər qarışı mənim üçün doğma, əzizdir. Amma mən Maraylanda ölməliyəm..."

Daha dözmədim. Dedim ki, a Zeynal kişi, məndən nə asılıdır? Neyləyə bilə-rəm? O da əvəzində cavab verdi ki, "susmayın, aramsız yazın, danışın ki, bəs milyon nəfərdən artıq soydaşımız didərgindir. Qoy musibətlərimizi, bəla-larımızı dünya ictimaiyyəti bilsin. Susmaq-məğlubiyyətlə barışmaq deməkdir".

Mindiyimiz maşın irəliləyir. Zeynal kişinin sanki taqəti kəsilir. Daha danışmaq belə istəmir. Bəlkə də bilərəkdən susmuşdu. Axı danışmaqla ağır yükü dağdan aşırmaq olmaz!.. Yenidən qəzetə baxıram. "Mənim o yerlərə dönməyim gəlir" şeri varlığıma, düşüncəmə, duyğuma, əqidəmə hakim kəsilir:

Allah, dinlə məni, dinməyim gəlir,

Yandığım bəsimdir, sönməyim gəlir.

Məni qaldırdığın o pilləkənlə,

Sənin hüzuruna enməyim gəlir...

Avtobus irəliləyir. Daha doğrusu, onun getməyinin-dayanmağının heç fərqinə də varmırdım. çünki xəyal məni çox-çox uzaqlara, hazırda əlim çatmayan, ünüm yetməyən ünvana, acılı-şirinli keçmişə aparmışdı. Qalmışdım qıvrıla-qıvrıla. Nəfəsim tıncıxırdı... Cəbrayılın 54 min nəfərə yaxın əhalisi vardı. Onun min nəfəri Nüzgar kəndinin sakini idi. İndi o camaat respublikamızın 58 bölgəsinə pərən-pərən düşüblər. 58 ünvana getmək həm fiziki, həm də maddi cəhətdən çox çətindir. Getməyəndə də qohum-əqrəba başlayır umbuküsməyə. Yuxarıda göstərdiyim səbəbdən onların görüşünə getmədiyimiz üçün nə özümü qınayıram, nə də könülləri, ürəkləri yaralı dost-tanışı, qohum-qardaşı. Axı onlar qaçqındırlar... Bəs niyə onlar doğma diyarlarından didərgin düşdülər? Doğrudanmı əks tərəf - düşmənlərimiz bu qədər güclü olmuşdular? Xeyr! Sadəcə olaraq, işğal olunan başqa rayonlarımız kimi, dar məqamda, müharibə şəraitində olan Cəbrayıl ərazimiz və orada yaşayan, ömürləri boyu respublika rəhbərliyinə sədaqətli vətəndaşlar unudulmuşdular. Onlar öləydilər, yaşayaydılar, fərqi yox idi. Niyə belə? çünki camaata gün ağlamaq iqtidarında olanların başları vəzifə, kreslo uğrunda çəkişmələrə, qarşıdurmalara qarışmışdı. Zaman-zaman marığa girib, məqam gözləyən qan düşmənlərimizə isə belə fürsət, onlar üçün əlverişli şərait lazım idi. Cəbrayıl rayonunun ərazisində elə hündürlük, strateji baxımdan yüksəkliklər vardı ki, əgər o ucalıqlar yerli özünümüdafiə dəstələrinin əlində qalsaydı, düşməni toplatankla, güllələrlə yox, hətta sapandla da yaxına buraxmazdılar. Çox təəssüf, min təəssüf, özümüzünkülər özümüzün doğma torpaqlarına sədaqətli, sadiq olanları həmin mövqelərdən aşağı "dığırladılar".

Biri digərindən küsən hakimiyyət sahibləri intiqamını həmin kəsdən almırdı. Dinc, əli silahsız, zavallı camaata qənim kəsilirdi. Satırdılar, alırdılar, kəsirdilər. Qoy, qan düşmənlərimiz bundan, bu fikrimdən "xoruzlanmasınlar", özümüzünkülər də onlara yardımçı olmuşdular. Tək bircə fakta açıqlama gətirmək istəyirəm: heç bir nüfuzu, hörməti olmayan şəxsi rayonun birinci vəzifə daşıyıcısı təyin etmişdilər. Vallah, billah, belə olmazdı. Müharibənin öz qanunları var... Yeri gəlmişkən, əslən cəbrayıllı, 19 yaşlı Cəmil Məhəmməd oğlu Əhmədov ikinci dünya savaşında göstərdiyi şücaətə, hünərə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Hörmətli oxucularımızı tam əmin edir, inandırıram ki, Cəmilin adına layiq rayonda gənclər çox idi. Təəssüf ki, onları qapazaltı etmişdilər. Səslərini çıxartmağa qoymurdular, irəli gedəndə arxadan vururdular. Kimlər? özümüzünkülər! Daha doğrusu, respublika səviyyəsində vəzifə sahibləri, vəzifəyə can atanlar.

Məşhur təbiətşünas, akademik Həsən Əliyev yazmışdır: "Cəbrayılın mərkəzində, nəhəng, örkənsarınmaz, sakinlərin ziyarətgah sandığı, adına "Xan çinar" dediyi müqəddəs bir ağac var. İlk dəfə həmin ağacı görəndə heyrətləndim. Mən hələ elə möcüzə görməmişdim..."

Fikir verin, dünya şöhrətli akademik Xan çinarı möcüzəyə bənzədir, heyrətini gizlətmir, amma... 1991-1992-ci illərdə rayona rəhbərlik edən səriştəsiz, təcrübəsiz həmin ağaca düşmən obrazı kimi baxıb, onu budamaq, qol-qanadını kəsdirmək tapşırığı verir. Bir deyən də tapılmadı ki, ay qardaş, axı belə yaramaz...

Cəbrayıllıların indi və gələcəkdə bağışlanılası mümkün olmayan ciddi səhvləri də olub. O qədər humanist, alicənab, insanpərvərdirlər ki, ərazilərində ən baxımlı, bərəkətli, meşəli, dağlı, bulaqlı yerləri tərəddüdsüz ermənilərə verib, özləri arana, düzə düşüblər. Bir soruşan da olmayıb ki, ay insanlar, niyə belə edirsiniz? Məgər bilmirsiniz ki, ermənilərə üz göstərsəniz, sabah onlar çırmanıb ocağınızınsüfrənizin başında əyləşib deyəcəklər: "Bura bizimdir!"

...Tarixdən bəllidi ki, cəbrayıllılar olduqca elmə, maarifə meyllidirlər. Son məlumata görə, milli tariximizə 16 akademikin, 25 professorun, 200-dən çox elmlər namizədinin, 776 həkimin, 133 jurnalistin, 18 yazıçı-şairin, sayı bəlli olmayan orta və ali məktəb müəllimlərnin adları yazılıb. Lakin elmi potensial nə qədər güclü olsa da, Cəbrayıl və cəbrayıllılar ermənilər tərəfindən yaranmış qarşıdurmada uduzublar. Bu, faktdır! Onların hər biri kimi mənim də üzüm gulmür, eynim açılmır. Ona görə ki, ata-baba yurd yerlərimizə tamarzı qalmışam. Doğmalarımın məzarlarını ziyarət edə bilmirəm. Yaxınların, qohumların, dost-tanışların üzlərinə tamarzı qalmışam. Yanımda Cəbrayıl adı çəkiləndə anasından ayrılmış uşaq kimi göz yaşlarım qurumur. Doğrudur, göz yaşları bəzən ürəkdə, varlıqda olan bəzi mənəvi, psixoloji gərginliyi azaldır. Axı nə qədər ağlamaq, zarımaq, sısqamaq olar? Məgər göz yaşları ilə düşməni insafa-mürvətə gətirmək olar?!

Ötən əsrin sonlarında xalq şairi, Respublika Aşıqlar Birliyinin sədri, mərhum Hüseyn Ariflə Cəbrayıla - "Qurbani saz bayramı"na getmişdik, Gördüm ki, Hüseyn qağa həddən artıq düşüncəli, poetik ovqatdadır. Soruşdum: "A qağa, xeyir ola?" Onun cavabı qısa oldu: "Ay zalım, Cəbrayıl mənə Kislovodskini xatırladır. Burada yaşamaq və ölmək böyük xoşbəxtlikdir".

İndi o obalar, yurd yerlərimiz düşmən tapdağı altında zarınzarın zarıyır. Torpağımız doğmaları üçün əcəl başının üstünü alan, son nəfəsini yaşayan xəstə kimi inildəyir.

Başqalarını bilmirəm, Cəbrayıl mənim əlimdir, görən gözümdür. İndi nə əlim qalxır, nə gözüm görür. Heç bilmirəm neyləyim?!

***Telman MEHDİXANLI***
***2010.- 28 sentyabr.***



# Ziyalılardan Ordumuza dəstək

***Sentyabrın 27-sindən etibarən Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribatına qarşı Azərbaycan Ordusu bütün cəbhə boyu əks-hücuma keçib. Bir neçə gündür ki, davam edən döyüşlərdə ordumuzun uğurları, eləcə də cəbhədən ard-arda gələn xoş xəbərlər isə bütün xalqın sevincinə səbəb olub.***

"Unikal" xəbər verir ki, lent.az cəbhədə baş verənlərlə bağlı tanınmış ziyalıların fikirlərini öyrənib.

"Torpaqlarımız uğrunda gedən döyüşləri, ordumuzun sərgilədiyi igidliyi tarixi qələbə hesab edirəm". Bu sözləri saytımıza açıqlamasında Azərbaycan Respublikasının xalq yazıçısı, Azərbaycan Dövlət Tərcümə Mərkəzinin İdarə heyətinin sədri Afaq Məsud deyib. O bildirib ki, bu gün bütün Azərbaycan müqəddəs Vətən sevgisilə, doğma torpaqlarımız - Şuşa, Xankəndi, Kəlbəcər, Laçın həsrətilə döyünür:

"Bu qələbəni, eyni zamanda Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsinin, sonsuz Vətən sevgisinin qələbəsi hesab edir, "Yaşa Azərbaycan Ordusu!", "Var ol, cənab Ali Baş komandan!" deyirəm. Belə bir taleyüklü, həlledici məqamda Azərbaycanın yanında dayanan, qəlbi Azərbaycanla döyünən qardaş türk xalqına, türk dünyasının böyük lideri Rəcəb Tayyib Ərdoğana sonsuz sevgi və sayğılarımı bildirirəm".

"Son 30 ildə ermənilərə bəşər tarixində bizim qədər hörmət edən, diqqət göstərən heç kəs olmayıb".

Azərbaycan Yazıçılar Birliyinin üzvü Seyran Səxavət deyib ki, ermənilər artıq azərbaycanlıları boğaza yığıblar: "Biz həmişə deyirdik ki, səbr edirik. Ancaq biz səbr etmir, dözürdük. İndi bir neçə gündür ki, ardıcıl ordumuzdan şad xəbərlər alırıq. Biz torpaqlarımızı istəyirik. Ermənilər gəlib bizim evimizdə oturaraq, yataq, qonaq otağını istəyirlər. Hətta onlara iddialarını bildirirlər. Hər şeyin bir sonu var və artıq sona çatırıq. İndi onların zabitləri, əsgərləri döyüş zonasından uzaqlaşırlar, bizə uduzurlar və kəndlərimizdən qaçırlar.

Həmişə düşünürdüm ki, Qarabağ torpaqlarının qayıtması mənim üçün birinci plandır. Artıq bir neçə gündür hiss edirəm ki, mənim üçün bu ikinci plandır. İlk plan xalqın inamının geri qayıtmağı imiş. Hazırda isə bu proses gedir.

Təxminən bir ay əvvəl mediaya verdiyim açıqlamada bildirmişdim ki, bu yaxınlarda nəsə olmasa azərbaycanlılar arasında sürətlə gedən kütləvi qeyrətsizləşmə başa çatacaq. Bu olsa idi, hər şey üçün gec olacaqdı və bunu düzəltmək də asan-asan olmayacaqdı".

Yazıçı qeyd edib ki, Azərbaycan ordusuna sonuna qədər güvənir: "Qonaq çağırıldığım televiziya kanallarında məndən tez-tez soruşurdular ki, nə üçün Qarabağdan əsərlər yazmıram, yazılmır. Axı mən və ya başqası yazmaqla Qarabağ geri qayıda bilməz. Mən roman yazsam, qəhrəmanım hamını qıra-qıra İrəvana qədər gedib çıxa bilər. Amma mənə bu lazım deyil. Mənə Qarabağın qaytarılması faktı lazımdır ki, orada diz çökə bilim, üzümü torpağına sürtə bilim. Bunu da deyim ki, 3-4 il əvvəldən dostlarım olan şair və yazıçılara Qarabağ haqqında yazmağı qadağan eləmişəm. Çünki Qarabağ haqqında yetərincə pyes, şeir, poema, roman və s. yazılıb. Qarabağ haqqında ən böyük romanı Ali Baş Komandan, Müdafiə Nazirliyi və Azərbaycan xalqı birlikdə yazmalıdır. İndi o günlər gəlib çatıb. Artıq Ali Baş Komandanın iradəsi ilə hamımız bir yerdə bu romanı yazırıq və inşallah tezliklə bitirərik".





**Seyran Səxavət: "Ermənilər artıq azərbaycanlıları boğaza yığıblar"**



**İradə Tuncay: "Hazırda dövlətimizin yanında olmaq lazımdır"**



**Anar Rzayev: "Torpaqlarımız işğal altındadır və bu gün düşmən törətdiyi cinayətlərin cəzasını alır"**

Yazıçı İradə Tuncay isə ictimaiyyəti ancaq rəsmi mənbələrə inanmağa çağırıb: "Hazırda dövlətimizin yanında olmaq lazımdır. Bu gün elə bir dönəmdir ki, ancaq dövləti, ordunu dəstəkləməli, uğurlara sevinməliyik. Şəhidlərimizə, əsgərlərimizə qurban olum, ancaq bəd xəbərləri yayımlamaq lazım deyil. Hər şey düzgün olanda, müharibə başa çatandan sonra bu xəbərləri yayımlamaq lazımdır. İnsanları ruhdan salmaq olmaz, xalqın ruhu mütləq saxlanılmalıdır".

Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid qeyd edib ki, sentyabrın 27-dən bütün Azərbaycan xalqı ayaq üstədir:

"Azərbaycan ordusunun ermənilərin hücumuna qarşı əks-həmləsi, Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciəti, qətiyyəti və dediyi fikirlər düşünürəm ki, bütöv xalqı bir nəfər kimi ancaq cəbhə, ordu ilə yaşamağa sövq edib. Azərbaycanın bütün ictimaiyyəti onu dəstəkləyir və biz hər an ordumuzdan yeni, xoş xəbərlər gözləyirik. 30 ildir ki, torpaqlarımız, doğulduğum yerlər işğaldadır. Mənim kimi ölkədə milyona yaxın insan var. Dünyanın da buna susqunluğu, insanların səbrini artıq tükədib. Ermənilər isə vəhşiliyə davam edir və durmadan mülki şəxslərə hücum edirlər".

Rəşad Məcid vurğulayıb ki, müharibədə şəhid şəhid olan əsgərlər, zabitlər qəhrəmandırlar: "Onlar xalqımızın ruhunun təmsilçisidirlər. Artıq dünəndən məni zəng vurub təbrik edənlər olub ki, Ağdamı, Füzulini işğaldan azad etmişik. İnsanlarımız qələbə arzusu ilə yaşayırlar. Uzun illərdir ki, biz məğlub xalq kompleksini içərimizdə daşıyırıq. Ona görə də hadisələr və Azərbaycan Ordusunun Ermənistanın hücumlarına qarşı əks həmlələri və qazanılan qələbələr hər bir insanda qürur hissi, göz yaşları doğurur".

Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar Rzayev bildirib ki, uzun illərdir ki, torpaqlarımız işğal altındadır və bu gün düşmən törətdiyi cinayətlərin cəzasını alır:

"Ordumuzla qürur duyuram. Arzu edirəm ki, qələbə yürüşünü sona qədər davam elətdirsin və torpaqlarımız işğaldan tam azad olsun".

Azərbaycanın xalq artisti Xuraman Qasımova deyib ki, haqq savaşında qələbə Azərbaycanın olacaq:

"Prezidentimizin müraciətini dəstəkləyirəm. Qarabağ Azərbaycan torpaqlarıdır. Heç şübhəmiz yoxdur ki, Qarabağın torpaqlarında yenidən Azərbaycan bayrağı dalğalanacaq".

Azərbaycanın əməkdar jurnalisti Qulu Məhərrəmli hesab edir ki, Azərbaycan ordusunun Qarabağda başladığı əks-əməliyyat hücumu bütün Azərbaycan xalqının istək və arzusunu ifadə edir:

"30 ilə yaxındır ki, xalqımız çox səbrlə beynəlxalq qanunlara, diplomatik tədbirlərə güvənib. Ancaq çox təəssüf k, son iki ildə danışıqların heç bir effekti, dinamikası yoxdur. Ona görə də bu problemi həll etməyin yeganə yolu Azərbaycan ordusunun işə qarışmasıdır. Ermənistan tərəfinin bütün dünyaya haray-həşir salmasına baxmayaraq, Azərbaycan ordusunun bu gün apardığı döyüş əməliyyatları xalqın iradəsini göstərir. Müharibə Azərbaycan ərazisində gedir və bu, Azərbaycan xalqının haqq işidir. Azərbaycan əsgər və zabitləri vətənin işğaldan azad olunması üçün addım-addım əks-hücum əməliyyatlarını reallaşdırır. Bir çox yaşayış məntəqələri azad edilib və hesab edirəm ki, gedən döyüş əməliyyatlarından erməni tərəfi nəticə çıxarmalıdır. Onlar dinc əhalinin qırılmasına yol verməməli, hərbi qüvvəsini qoruyub saxlamaq istəyirsə geri çəkilməli, təslim olmalı, işğal olunan torpaqlardan tamamilə çıxmalıdır.

Biz ordumuzu, Ali Baş Komandanı dəstəkləyirik. Hazırda Azərbaycan bütün dünyaya öz torpaqlarını işğaldan necə azad olunmaq nümunəsini göstərir. Vicdanı, düşüncəsi olan insanlar, sülhsevər şəxslər anlayırlar ki, Azərbaycan öz torpağını işğaldan qurtarmaq üçün bu müharibəni aparmağa məcburdur. Müharibə cəmiyyətdə yekdil fikir ifadə edir, cəmiyyətin birləşməsinə kömək edir. Bizim üçün indi tarixi məqamdır və düşünürəm ki, Azərbaycan müstəqilliyində yeni bir mərhələyə qədəm qoyur".

"Multikulturalizm" jurnalının baş redaktoru, yazıçı Fəxri Uğurlu qeyd edib ki, Azərbaycan ordusunun ard-arda uğurlu əməliyyatları qələbənin çox yaxın olduğundan xəbər verir:

"Hamının gözü yoldadır, qələbə sevinci gözləyir. Ordumuza qələbə, əsgərlərimizə, zabitlərimizə can sağlığı arzulayıram. Arzu edirəm ki, itkilərimiz az olsun və ordumuz tezliklə işğal olunan torpaqları azad etsin. Hazırda xalqımız böyük ruh yüksəkliyi ilə bunu gözləyir".

***Hicranə Əlişqızı***

# Amerikada yaşayan azərbaycanlı aktyor: Azərbaycanım üçün dua edirəm



***Xaricdə yaşayan tanınmış azərbaycanlılar dünya ictimaiyyətini ölkəmizin ədalətli mövqeyini müdafiə etməyə səsləyiblər.***

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, hazırda Almaniyada yaşayan, İrəvan xanının nəslinin davamçısı Əmir Əli Sərdari İravani Ermənistan Ordusunun cəbhə xətti boyunca növbəti təxribatını qınayıb və münaqişənin köklərinin hardan qaynaqlandığına dair öz fikirlərini bölüşüb : "Avropa ölkələri 20-ci ərsin əvvəllərində Osmanlı dövlətini zəiflətmək üçün hər vəcdlə müsəlman şərqində xristian dövləti yaratmağa çalışırdılar. Romanovlar sülaləsinin süqutunu və Böyük Rus inqilabını fürsət bilən ermənilər Qarabağın Dağlıq hissəsində muxtariyyət statusu almağa müvəffəq oldular. Bugünkü münaqişələrin əksəriyyətinin kökü məhz Birinci dünya müharibəsindən öncəki illərə gedib çıxır. Bu münaqişələrin həlli üçün həmin dövrün tarixinin araşdırılması zəruridir".

Rusiya Böyük teatrın solisti, tanınmış opera ifaçısı Elçin Əzizov da Ermənistanın cəbhə xətti boyunca törətdiyi növbəti təxribata biganə qalmayıb. Şəxsi sosial şəbəkə hesabında Azərbaycan bayrağının rənglərində olan xəritəmizi paylaşıb.

Tanınmış sirk artisti, Azərbaycanın "Çarli Çaplin"i, Amerikada yaşayan azərbaycanlı aktyor Üzeyir Novruzov şəxsi sosial şəbəkə hesabında yazır: "Məni iki şey narahat edir- anam və vətənim Azərbaycan. Azərbaycanda müharibə gedir və anam orda yaşayır. Mən anam və Azərbaycanım üçün dua edirəm. Allah şəhidlərə rəhmət eləsin!"

Türkiyə Azərbaycan Dərnəyi (TÜRKAZDER) Iğdır Şöbəsinin sədri İlteriş Kağan Taşkınsu da Tweeter hesabında "Qarabağ Azərbaycandır!" şüarını paylaşaraq Azərbaycana dəstəyini bildirib.

Rusiyada yaşayan tanınmış bloqqer Hüseyn Həsənov Azərbaycanın haqlı mövqeyini dəstəkləyərək instagram hesabından aşağıdakı kimi paylaşım edib: "Öncəki iki paylaşımım silindi. Üçüncü dəfə paylaşmağım lazım idi? Bəli. Məni düzgün başa düşün. Mən sülh tərəfdarıyam, amma bəzi şəxslərin nə baş verdiyini anlamadığını, digər tərəfdən isə ictimai xadimlərin Azərbaycanı pis təqdim etdiyini görəndə susa bilmirəm".

# Kamal Abdulla Yaponiyanın ölkəmizdəki səfiri ilə görüşüb



***Oktyabrın 1-də Yaponiyanın Azərbaycana yeni təyin edilmiş Fövqəladə və səlahiyyətli səfiri Cüniçi Vada Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla ilə görüşüb.***

Unikal.org xəbər verir ki, qonağın rəhbərlik etdiyi ali təhsil ocağına gəlişindən məmnunluğunu bildirən rektor, Yaponiya dövlətinin hər zaman Azərbaycana yaxından kömək etdiyini, ölkəmizlə müxtəlif sahələrdə, o cümlədən iqtisadi, mədəni və təhsil sahələrində əməkdaşlıq etdiyini qeyd edib.

Kamal Abdulla ADU-nun Yaponiyanın bir neçə universiteti ilə əməkdaşlıq etdiyini, Yaponiya ilə Azərbaycan arasında münasibətləri inkişaf etdirmək məqsədi ilə 2011-ci ildən universitetin nəzdində yaponşünas ixtisasının açıldığını, eləcə də Yaponiya Araşdırmalar Mərkəzinin yaradıldığını səfirin diqqətinə çatdırıb.

Cüniçi Vada öz növbəsində ADU-da olmaqdan məmnun olduğunu bildirərək, universitetimizlə bütün istiqamətlərdə yaxından əməkdaşlıq etməyə hazır olduğunu qeyd edib.

Diplomat eyni zamanda ADU-nun "Səfir saatı" layihəsində iştirak edəcəyini, eləcə də Yaponiyada Azərbaycan Mərkəzinin yaradılması istiqamətində işlər görəcəyini deyib.

Bundan başqa səfir 2022-ci ildə Yaponiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin başlanmasının 30-cu ildönümü münasibəti ilə universitetimizlə birlikdə müxtəlif tədbirlər keçirmək arzusunun olduğunu da vurğulayıb.

# Prezident Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinə məktub ünvanlayıb



***Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinə təşəkkür məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, məktubda deyilir: "İlk növbədə, Sizə səmimi salamlarımı yetirir, Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı ilə bağlı verdiyiniz bəyanatda əks olunmuş obyektiv mövqeyə görə sizə öz adımdan və Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm.

Məlum olduğu kimi, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq ordumuzun cəbhə zonasında yerləşən mövqelərini və dinc insanların yaşadığı bir sıra məntəqələri qəsdən və hədəflənmiş şəkildə intensiv atəşə tutmuşdur. Bu xain hücum nəticəsində iki gün ərzində hərbçilərimiz, 20-yə yaxın mülki şəxs, o cümlədən iki uşaq həlak olmuş, 50-dən artıq mülki şəxs yaralanmışdır. Ermənistanın hərbi təcavüzünün qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri zəruri əks-həmlə tədbirlərini həyata keçirir.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almış, iyul ayında Ermənistanın dövlət sərhədi istiqamətində növbəti təxribatı nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Avqust ayında isə erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd etmişdir. Ancaq ordumuzun atdığı qətiyyətli addımlar nəticəsində Ermənistan layiqli cavabını almışdır.

Bu təxribatlar Ermənistanın avantürist və təcavüzkar hərbi-siyasi rəhbərliyinin bəyan etdiyi yeni ərazilər uğrunda yeni işğal siyasətinin davamıdır. Eyni zamanda, Ermənistan ordusunun mülki əhalini qəsdən hədəfə alması beynəlxalq humanitar hüququn kobud surətdə pozulmasıdır. Bu əməllər Ermənistan silahlı qüvvələrinin döyüş hazırlığına daxil edilmiş taktikadır ki, 1992-ci ilin fevral ayında törədilmiş Xocalı soyqırımı zamanı xalqımız bu vəhşiliyin şahidi olmuşdu.

Dünyanın diqqətinin BMT Baş Assambleyasının 75-ci sessiyasına, COVID-19 pandemiyası ilə mübarizəyə yönəldiyi dövrdə Ermənistanın siyasi-hərbi rəhbərliyinin növbəti hərbi avantüra və təxribata əl atması bu rejim tərəfindən beynəlxalq hüquqa, BMT Nizamnaməsinə və beynəlxalq ictimaiyyətə münasibətdə sərgilədiyi saymazlığı bir daha nümayiş etdirdi.

Azərbaycan Silahlı Qüvvələri öz doğma torpağında ölkəmizin ərazi bütövlüyünü müdafiə edir. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi, bizim əzəli tarixi torpağımız olduğunu tanıyır. BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti və digər aparıcı beynəlxalq təşkilatların qəbul etdiyi çoxsaylı qərar və qətnamələr Azərbaycanın ərazi bütövlüyünü tanıyaraq Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlarımızdan çıxarılmasını tələb edir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüquq əsasında, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunmalıdır.

Bir daha Azərbaycanın haqq işinə göstərdiyiniz dəstəyə görə sizə minnətdarlığımı bildirir, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə gələcək fəaliyyətində uğurlar arzulayıram".

# Ermənistanın regionda böyük layihələrdən kənarda qalması onun işğalçılıq siyasətidir



***Ermənistan uzun illərdir ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan Silahlı qüvvələrinin işğal altında olan Azərbaycan ərazilərindən tam, dərhal və qeyri-şərtsiz çıxarılması haqqında 1993-cü ildə qəbul edilən dörd qətnaməsinə, hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı gücün tətbiq edilməsindən çəkinmək haqqında BMT Nizamnaməsinin tələblərinə məhəl qoymur, öz öhdəliklərini kobud şəkildə pozaraq Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonu işğal altında saxlayır və mütəmadi olaraq təxribatlar törədir.***

Keçən vaxt ərzində Ermənistan hökuməti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla, beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmasına mane olunub və danışıqlar prosesindən yayınıb son illərdə, Paşinyanın hakimiyyəti dövründə Ermənistan açıq şəkildə təxribatlar törətməyə başladı, sərhədboyu ərazilərdə dinc əhaliyə hərbiçilərə ağır artilleriyalardan atəş açıldı. Göründüyü kimi, Ermənistan hökuməti nəinki, beynəlxalq hüququn norma və prinsiplərinə əməl etmir həyasızcasına işğalçılıq siyasətini davam etdirərək bunu müharibə həddinə çatdırıb.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev Ermənistanın müharibəyə hazırlaşması barədə beynəlxalq təşkilatları dəfələrlə məlumalandırıb.

Ermənistan hökümətinin mövqeyi nəinki regionda sülhün bərqərar olunmasında böyük təhlükəyə çevrilib, həmçinin Ermənistanın regionda böyük layihələrdən kənarda qalması ilə iqtisadiyyatının böhran həddinə düşməsinə səbəb olub.

***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti Mirağa Əhmədov***

# "Axı erməni kimdir ki..." - Xalq artisti



***"Bütün Azərbaycan xalqını bu gözəl əks-hücumlar münasibətilə təbrik edirəm. Ordumuza möhkəm iradə arzulayıram".***

Bunu Milli.Az-a açıqlamasında Xalq artisti Məmməd Səfa Qasımov Qarabağın işğaldan azad olunması uğrunda gedən döyüşlər barədə danışarkən deyib.

I Qarabağ müharibəsindən bəhs edən "Dolu" filmindəki komandir obrazı ilə könülləri fəth edən Xalq artisti ordumuzun tez bir zamanda Ali Baş Komandanın rəhbərliyi ilə Qarabağı işğaldan azad edəcəyinə çox inandığını bildirib:

"Şəhidlərimizə Allah qəni-qəni rəhmət eləsin, Allah bütün analara böyük səbr, dözüm versin. Müharibə olan yerdə torpaqlarımızın geri qaytarılmasında təbii ki, şəhid də verəcəyik. Bu gün Azərbaycanda o ailə yoxdur ki, ondan bir nəfər heç olmasa hərbidə xidmət etməsin. Əlbəttə ki, bu bizim ordumuzdur. Mən bunu Məmməd Səfa kimi deyirəm, biz arxada olsaq da bu gün Prezidentimizin, Ali Baş Komandanın əmrinə hər an hazırıq və sadəcə bizə bir söz lazımdır ki, siz də bizə lazımsınız.

### Mənə elə bir fəxr hissi gəlir, bütün vücudum silkələnir

Bizim torpaqlarımız işğal edilləndə vahid ordumuz yox idi bizim. Xocalıdakı soyqrım, Şuşadakı erməni vəhşilikləri, silahsız insanların üstünə tankla, digər zirehli texnika ilə, silahla gələndə bizim əlimizdə heç ov tüfəngi də yox idi. İndi isə şükür Allaha ki, bizim elə bir texnikaya malik ordumuz var ki, Ali Baş Komandanın rəhbərliyi ilə elə güclü ordumuz var ki, mən əminəm, inanıram ki, bu ordu torpaqlarımızı işğaldan azad edəcək, 30 illik həsrətə son qoyacaq. Mənim içimdə elə bir xoş təəssürat var, inanın. Mənə elə bir fəxr hissi gəlir, indi sizlə danışıram, mənim bütün vücudum silkələnir. Bu, böyük bir fəxrdir, böyük bir fəxarətdir.

### Bu gün bütün xalq Prezidentin ətrafında cəmlənib

Bu, hər birimizin çiynində inanın ki, bu vaxta qədər ağır bir yük idi. Axı erməni kimdir ki, o bizim torpaqlara bu gün gəlib sahib çıxmaq istəyir? Məgər biz ölmüşük, bəyəm biz yoxuq? Şükür Allaha, bu gün bütün xalq Prezidentin ətrafında cəmlənib. Biz də bir mədəniyyət xadimləri kimi, hər birimiz bir müsəlləh əsgər kimi vətənin uğrunda ölməyə hazırıq.

### Ordu bax belə olar, hücum belə olar

Ermənilərin sözü var, bax, indi desinlər. Ordu bax belə olar, hücum belə olar. Mən əminəm ki, biz tezliklə bütün torpaqlarımızı azad edəcəyik və bu, bütün Azərbaycanda bir bayrama çevriləcək. Bu dəqiqə orada şiddətli döyüşlər gedir. Bir daha orada vuruşan bütün əsgərlərimizə iradə, səbr, dözüm arzu edirəm. Onlara demək istəyirəm ki, biz də varıq, biz də sizin arxanızdayıq, hər an sizin yanınızdayıq".

# Kino onun həyatı idi

## Bu gün Əməkdar incəsənət xadimi Lətif Səfərovun doğum günüdür



***Sentyabrın 30-u Azərbaycanın kino tarixində xüsusi dəstxətti ilə seçilən Əməkdar incəsənət xadimi Lətif Səfərovun doğum günüdür.***

"Unikal" AZƏRTAC-a istinadən bildirir ki, bu gün tanınmış kinorejissorun anadan olmasının 100-cü ildönümü tamam olur.

Lətif Səfərov 1920-ci ildə Şuşada doğulub. 7 yaşında olanda rejissor Leo Murun "Gilan qızı" filmində çəkilib. Elə həmin vaxtdan balaca Lətifin kino dünyası ilə tanışlığı başlanıb. 1928-1931-ci illərdə "Sevil", "Lətif", "Qızıl kol" filmlərində uşaq obrazlarını ifa edib. Ancaq sonradan xəstələndiyi üçün Bərdəyə gəlib. Bir müddət müalicə aldıqdan sonra Gəncə Pedaqoji Texnikumuna daxil olub və qiyabi təhsil alıb. O, Bakıda əvvəlcə kinostudiyanın dublyaj şöbəsində, sonra isə filmlərdə rejissor assistenti kimi çalışıb. 1940-cı ildə Moskvadakı Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna daxil olub. Məşhur rus kinorejissoru Qriqori Kozintsevdən dərs alıb. 1950-ci ildə təhsilini başa vurub və peşəkar kinematoqrafçı kimi Bakıya qayıdır və kinostudiyada çalışmağa başlayır.

1955-ci ildə "Bəxtiyar" filmini ekranlaşdırır. "Bəxtiyar" filmi Lətif Səfərovun böyük kinoda ilk və uğurlu işidir. "Bəxtiyar" filmində baş rolu Rəşid Behbudov ifa edir və bununla da filmin şöhrəti hər yerə yayılır. Lətif Səfərov filmdə Rəşid Behbudovla yanaşı peşəkar, sevilən aktyor truppası toplayır. Ağasadıq Gəraybəyli, Ağahüseyn Cavadov, Münəvvər Kələntərli, Məmmədrza Şeyxzamanov, İsmayıl Əfəndiyev, İsmayıl Osmanlı və başqalarının yaratdığı obrazlar filmin ümumi ab-havasına çox uyğun gəlir.

Lətif Səfərovun ekranlaşdırdığı "Leyli və Məcnun", "Qızmar günəş altında" bədii filmləri də kino tamaşaçıları tərəfindən çox sevilib və uzun illər ötməsinə baxmayaraq sevilərək baxılır.

Onun taleyi bütün istedadlı, yaradıcı adamların həyatı kimi keşməkeşli olub. 1958-ci ildə Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri seçilən Lətif Səfərov 1963-cü ilədək bu işi davam etdirir.

Lətif Səfərov 1963-cü il dekabrın 9-da faciəli şəkildə dünyasını dəyişir.

Bu gün anadan olmasından bir əsr ötən kinorejissor Lətif Səfərovun ekranlaşdırdığı filmlər yaşadıqca, böyük rejissorun da həyatı davam edəcək.



# Azərbaycan filmi 42-ci Moskva Beynəlxalq Kino Festivalında

***Bu gün 42-ci Moskva Beynəlxalq Kino Festivalı başlayır. Festival Mixail Lokşinin "Gümüş konki" filmi ilə açılacaq.***

Əsas mükafat üçün 13 filmin yarışdığı festivalda Azərbaycan rejissoru İsmayıl Səfərəlinin "Balıqçı qızı" bədii filmi də yer alır.

Festivalda türk rejissor Erdem Tepegözün "Kölgədə" və dünya şöhrətli Koreya rejissoru Kim Ki Dukun "Əriмək" adlı filmi də nümayiş ediləcək.

42-ci Moskva Beynəlxalq Kino Festivalının bağlanış mərasimi oktyabrın 8-də baş tutacaq.

Qeyd edək ki, Rusiya və Azərbaycanın birgə istehsalı olan "Balıqçı qızı" filmi 2019-cu ildə çəkilib. Filmin ssenari müəllifləri Mariya Zelinskaya, İslam Səfərli və Rüstəm Məmmədova, operatoru isə Şandor Berkeçi, quruluşçu rəssamı Sergey Zaykovdur.

Ekran işində Xalq artisti Qurban İsmayılov, Əməkdar artist Rasim Cəfər, aktyorlar Həmail Həsənova, Günəş Mehdizadə, Vüsal Əzizov, Fərid Aslanov, Elnur Nəcəfov, Mahir Dərviş, Elşən Əsgərov, İqor Nikulov çəkiliblər.

Film Abşeron qəsəbəsində yerləşən, kiçik balıqçı kəndindən bəhs edir. Sara balıq ovu vaxtı dənizdə batan atasının yoxluğuna inanmır. Lakin Saranın ailəsi və kənd camaatı rəmzi də olsa dəfn mərasimi təşkil etmək istəyirlər. Qız isə etiraz olaraq atasını axtarmaq üçün təlatümlü dənizə üz tutur.

Xatırladaq ki, hər il yay aylarında təşkil edilən Moskva Beynəlxalq Kino Festivalının koronavirus pandemiyası səbəbindən vaxtı dəyişdirilərək payıza keçirilib.

# Arif Babayev insult keçirib

***Xalq artisti Arif Babayev insult keçirib.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, bu haqda Xalq artisti Mənsum İbrahimov məlumat verib. O bildirib ki, A. Babayev bir neçə gün əvvəl xəstəxanaya yerləşdirilib, hazırda səhhəti yaxşıdır: "Bu gün xəstəxanadan çıxmalı idi. İndi hər şey qaydasındadır".

# MİQ üzrə müsabiqə təxirə salındı - RƏSMİ



***2020/2021-ci tədris ilinə uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinə müəllimlərin işə qəbulu üzrə müsabiqə təxirə salınıb.***

Bu barədə Mədəniyyət Nazirliyindən məlumat verilib. Bildirilib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən koronavirus (COVID-19) infeksiyasının yayılma sürətinin azaldılması, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin tətbiq edilməsi, habelə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki mədəniyyət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətində müvafiq islahatların aparılması ilə əlaqədar nazirliyin sistemindəki uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinə 2020/2021-ci tədris ilinə pedaqoji kadrların işə qəbulu üzrə növbəti müsabiqənin keçirilməsi təxirə salınır.

Sözügedən müsabiqənin keçirilməsi ilə bağlı müvafiq qərar olduğu təqdirdə bu barədə ictimaiyyətə geniş məlumat veriləcək, Nazirliyin rəsmi saytında (mct.gov.az) və "Facebook" səhifəsində, Uşaq musiqi və incəsənət məktəblərinin tədris portalında (www.music.mctgov.az), habelə kütləvi informasiya vasitələrində elan yerləşdiriləcək.



## Dırnaq yemə vərdişindən necə əl çəkməli?

***Dırnaqları yemək bir vərdişdir. Əgər dırnaqlarınızı yemək vərdişiniz varsa, həmin anları nəzarət altında saxlayıb vərdişinizdən əl çəkə bilərsiniz. Düzdür, bu çox çətin olacaq, çünki illərin alışqanlığını birdən-birə tərgitmək mümkün deyil. Bəs bunun üçün nə etmək lazımdır?***

1. Adətən dırnaqlarını yeyən adam onları yeməyə başladıqdan sonra nə etdiyini fərq edir. Buna görə də dırnaqların ucuna acı krem sürtmək lazımdır ki, ağıza dəyən kimi acılıq hiss olunsun.

Dırnaq yeyən adamlar üçün xüsusi acı dada malik mazlar və xüsusi kremlər var. Bu kremləri hər səhər əl-üz yuduqdan sonra dirnaqların dibinə çəkmək lazımdır. Əgər dırnaqlarla birlikdə dırnaqlarınızın ətrafındakı ətləri də yeyirsinizsə, onda bu kremdən dırnaqətrafı ətlərə də sürtülməlidir.

2. Dırnaq yeməyi tərgitmək üçün dırnaqları dibindən kəsmək və cilalamaq lazımdır. Bu zaman dırnaq dişlərə gəlib çatmır və bu vərdiş yavaş-yavaş unudulur. Belə ki, dırnaq və dırnaqətrafı ətlər yaxşı yiyələndikdə onları dişləyib qoparmaq olmur. Yiyələnməni bir neçə ay davam etdirsəniz dırnaqları yemək vərdişiniz tamamilə yadınızdan çıxacaq.

3. Qızlar üçün dıqnaqlarını yeməsin deyə manikür etmək məsləhət görülür. Çünki manikürün pozulması qorxusu onları bu vərdişdən uzaqlaşdıracaq.

Dırnaqları yemək sadəcə kənardan görünən pis bir vərdiş deyil, o dırnaq ətlərinin sağlamlığı üçün də zərərlidir.

Bəzən bu vərdişin meydana gəlməsində stressin, iradə zəifliyinin, sinir sisteminin də rolu olduğu söylənilir. Əgər belə problemləriniz varsa, onların da aradan qaldırılması dırnaq yemək vərdişindən qurtarmanıza kömək olacaq.

## Siqareti tərgitməyin ən asan yolları

***Siqaretdən asılı olan bir çox insan, onu tərgitmək istədiyi halda öz hissəlini etiraf etməyə utanır. Amma mütəxəssislər ev şəraitində bəzi vasitələrlə siqaretdən uzaqlaşmağın mümkün olduğunu söyləyirlər. Bu vasitələrin bir-neçəsini sizlərə bildirmək istəyirəm.***

1. İlk növbədə alkohol və kofeni tərgidin. Çünki onlar sizin siqaretdən asılılığınızla birlikdə olan digər tərgidə bilmədiyiniz vərdişlərinizdəndir.

2. Siqaretdən tez bir zamanda azad olmağa çalışmayın. Bunu tədricən edin, yəni gün ərzində çəkdiyiniz siqaretlərin sayını azaltmağa çalışın.

3. Əvvəlcə siqaret çəkmələrin sayını azaldın, sonra isə aralarında olan məsafəni çoxaltmağa çalışın.

4. Əgər ürəyinizdən siqaret çəkmək keçərsə, 1 stəkan su için və ya 1 alma yeyin. Nanəli konfet sormaq və saqqız çeynəmək sizi bu düşüncədən uzaqlaşdıra bilər.

5. Əgər hiss etsəniz ki, siqareti azaltdığınıza görə diqqətiniz dağılır, bu zaman tum çırtlaya bilərsiniz.

7. Evinizdə göz önündə siqaret, kibrit və ya alışqan saxlamayın.

8. İdmanla məşğul olmağa başlayın. Bu sizin fikrinizi siqaretdən uzaqlaşdıra bilər.

9. Gün ərzində əvvəllər siqaretə verdiyiniz pulları bir yerə yığın və həmin pulla kinoya və ya teatra gedin.

10. Siqareti atmaq istədiyinizi yaxınlarınıza söyləyin.

11. Orqanizminizdə illərlə yığılıb qalmış toksinləri təmizləmək üçün bol maye qəbul edin.

# Adınızın ilk hərfi eşq həyatınıza təsir edir

***A Romantizmi çox axtardığınız deyilə bilməz. Daha çox macəranı sevərsiz. Sizə hərəkət lazımdır, hərəkət. Üstəlik məşğul olduğunuz hər şeydə . Eşqbazlıq edəcək qədər səbrli deyilsiniz. Amma Birlikdə söyləyəcək heç bir şey yoxdur. Yoldaşınız hər tərəfli cazibədar olmalıdır. Şəhvət düşkünü olaraq siz buna çox əhəmiyyət verirsiniz.***

B Romantiklik və romantizm tam sizə görə . Şam işığında yemək , ay işığında yerimək sizin üçün idealdır . Sevgiliniz sizə hədiyyə almaq məcburiyyətində dir, çünki bunlardan xoşlanırsınız. Xüsusilə cinsəllik mövzusunda iradəniz çox qüvvətlidir. Sevginizi yaxşı ifadə edirsiniz.

C - Ç Sosiallıq və eşqbazlıq tam sizə görədir . Sevgiliniz həmişə yanınızda olmaq məcburiyyətində dir . Yaxşı, duyğulu və həssassınız amma cinsəllik də əhəmiyyətli deyil mi ? Bir az eqoistsiniz , sanki , yoldaşınız, sevgiliniz sizə itaət etməlidir !

D Qeyri-mümkünü belə əldə edərsiniz.Asanl ıqla imtina etməzsiniz. Xeyirxahlığın bu qədəri də çox. Elə populyar olmağınızın da mənbəyi budur. Sizə ən uyğun sözlər ; sadiq, qısqanc və eqoist .

E İş , stres, pul, xarici faktorlar şəxsi həyatınıza mənfi yöndə asanca təsir edə bilir . Amma hər şeyə rəğmən əsla duyğunuzu tamamilə itirmirsiniz. Marağı sevirsiniz.



F İdeal sevgili , ideal romantik. Sevgilinizi əl üstündə tutursunuz. Xaricdən gösteriş düşkünü kimi görünə bilərsiniz amma içinizdə çox isti və romantik bir insan var. Arxasınca qaçdığınız məhəbbətə tez çatarsınız .

G Detala çox meylli insanlardansını z . Bir az işin dərinliyinə gedirsiniz. Statusu sizdən yüksək insanlarla əlaqə yaratmaq istəyiniz çoxdur . Ayrıca bir xüsusiyyətiniz daha var, erotizmin zirvəsinə necə çata biləcəyinizi yaxşı bilirsiniz . Siz işinizin ən yaxşısını bilirsiniz .

H-X Sizi hər yöndən zənginləşdirəcə k bir partner axtararsınız. Onun üçün hər şeyi edə bilərsiniz. Amma bunu investisiya gözüylə etməniz yaxşı deyil. Etiraf edin, bəzən edirsiniz !

I - İ Sevilmək tam sizə görə bir söz. Sevgilinizin sizə vurğun olması üçün hər şeyi edə bilərsiniz. Amma unutduğunuz bir şey var, hər şeyi həmişə ondan gözləyirsiniz. Bu qədər tez küsməyinizin də səbəbi budur. Güvən sizin üçün çox əhəmiyyətlidir.

J Fiziki enerjiniz super . Əlaqədə heç bir güc sizi dayandıra bilməz. Partnerinizin yorulmasından başqa ! Sizin üçün qarşı cinslə əlaqə bir meydan oxumadir. Başdan çıxarma sizin ən böyük hədəfinizdir . İdeal məhəbbətə inanırsınız.

K Utancaq kimi görünsəniz də son dərəcə şəhvətli və həssas bir insansınız. Amma bunu kimsəyə bəlli etmək istəmirsiniz. Ticarət qabiliyyətlərin iz superdir . Bu işin bütün detallarına hakimsiniz. Ciddilik sizin üçün çox əhəmiyyətli. Aldatmaqdan və aldadılmaqdan nifrət edirsiniz.

L Aşk bərabərdir ehtiras . Sevilməkdən çox sevməyə əhəmiyyət verirsiniz. Birinə bağlanmaq sizin üçün çox qiymətlidir. Hər sahədə müvəffəqiyyət əldə edersiniz.Buna görə bir az meymun iştahlısınız. Yəni hər dadı dadmaq potensialına sahibsiniz. Bu duzludur, dadlıdır, yoxsa acı? Partneriniz sizə ayaq uydurmaq məcburiyyətində dir !

M Romantiksiniz. Bir əlaqəyə girdiyinizdə bütün mənliyiniz əriyib gedir. Cinsi azadlığa inanır kimi görünsəniz də , doğru deyil.Bəzi mövzularda təmkinlisiniz. Birlikdə olduğunuz insanı uşaq kimi qoruyubsunuz. Bəzən də onu sıxırsınız .

N Günahsız və utancaqsınız. Bu yalnız xarici görünüşünüzdür. Hər kəsi asanlıqla aldada bilərsiniz . Tələb edənsiniz. Buna görə də sizin standartlarınız a uyğun birini tapmanız bir az çətin olur.

O - Ö Bir az utancaqsınız. Enerjinizi başqa istiqamətlərə də yönəltməyiniz buna görədir. Pul və güc sizin üçün çıxış yoludur. Seksə düşkün oldugunuzdan cinsəlliyə ciddi bir iş kimi yanaşırsınız . Bəzən bu mövzuda çətin anlar yaşayırsınız.

P Sizin üçün sosial statusdur çox əhəmiyyətlidir. Biriylə birlikdə ola bilməniz çətindir. Çünki əli, üzü düzgün olmayan biri sizin statusunuzu aşağı düşürür.Üstelik çox da ağıllı olmalıdır, çünki siz müzakirəni sevirsiniz. Bu sizin üçün çox əhəmiyyətli !

R Sizin üçün ən mükəmməl insan sizsiniz. Çünki sizin eynilə özünüz kimi birinə ehtiyacınız var : İntellektual və ağıllı. Ağıl sizin üçün fiziki gözəllikdən daha əhəmiyyətlidir.

S - Ş Danışmaq sizin üçün çox əhəmiyyətlidir. Yoldaşınız dinləməyi xoşlamırsa, yandınız . Çünki danışmaq sizin üçün bir ehtiyacdır . Həyatınızda hər şey yerində , səliqəli olmalıdır. Uyğunlaşmazlıq və qarışıqlıqdan xoşlanmırsınız. Siz hər şeyə nəzarət etmək istiyirsiniz.Flörtü sevirsiniz. Sizin üçün kiminləsə münasibət qurmaq cinsəllikdən əhəmiyyətlidir. Amma bircə dəfə ürəyinizi kiməsə verdinizsə , dünyanın ən sadiq insanına çevrilirsiniz. Sizə uyğun yoldaş tapa bilməyəndə, yaxşı bir kitabla da idarə edə bilərsiniz.

T Romantik və eşq insanısınız. Eşqbazlıq üçün ideal bir tipsiniz. Aşiq olduğunuzda romantiksiniz və buna görə də tez inciyirsiniz. Balaca bir çatışmazlıq olarsa bunu düzəltmək üçün hər şeyi edə bilərsiniz. Amma unutduğunuz bir şey var; ayaqlarınızı yerə sağlam qoyar və realistsiniz .

U - Ü Aşiq olduğunda həqiqi, aşiq olmadan duyğusudur. Cinsilik isə sadəcə doyurulması lazım olan bir ehtiyacdır ! Bəzən eşqə aşiq bir tip . Hər vaxt dəyər verəcək birini axtarar. Sevmək üçün yaradılmışdır. Sevgilisini hər şeydən üstün tutar.

V Azadlığınıza düşkün və macəraperəstsin iz . Sirrli insanlar diqqətinizi çəkər və sizi ələ alar.Ya yaşca böyük, ya da kiçik insanların arxasınca qaçarsınız. Buna görə də bütün münasibətləriniz həyəcanlı və təhlükəlidir.

Y Müstəqilliyiniz ə düşkünsünüz. Biriylə birlikdə yaşamanız çətin olur. Hər zaman özünüzü isbat etmək məcburiyyətində siniz. Xüsusilə sevgilinizə qarşı. Ya o da özünü sübut etməyə çalışsa ? Açıq ürəkli və cazibədar bir insansınız. Birlikdəliyə əhəmiyyət verirsiniz. Amma pul daha əhəmiyyətlidir.

Z Səmimi, həssas, romantik və xəyalpərəstsini z. Başı dərddə olan insanlar üçün , siz bir xilaskarsınız . Üstəlik, hər zaman da sevgilinizin də süpərmənisiniz . Amma paylaşmaqdan çox xoşlanmırsınız. Özel həyatınızı, sirlərinizi özünüzə saxlayırsınız.

# "Qarabağ"ın Avroliqadakı rəqibləri müəyyənləşdi: İspaniya, İsrail, Türkiyə...



***Futbol üzrə Avropa Liqasında qrup mərhələsinin püşkatma mərasimi keçirilib.***

"Unikal" qəzeti xəbər verir ki, UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında baş tutan tədbirə Bakı vaxtı ilə saat 15:00-da start verilib

Avroliqada mübarizə aparan 48 komanda püşklə 12 qrupa bölünüb. Püşkatmada Azərbaycanı bu turnirdə təmsil edən "Qarabağ"ın da rəqibləri bəlli olub. Ağdam təmsilçisi İ qrupunda "Vilyarreal", "Makkabi" və "Sivasspor"la mübarizə aparacaq.

Qrup mərhələsində 1-ci tur 22 oktyabr, 2-ci tur 29 oktyabr, 3-cü tur 5 noyabr, 4-cü tur 26 noyabr, 5-ci tur 3 dekabr, 6-cı tur 10 dekabrda keçiriləcək.

**Avropa Liqası, qrup mərhələsi**

**A qrupu**
"Roma" (İtaliya)
"Yanq Boyz" (İsveçrə)
ÇFR (Rumıniya)
MOİK (Bolqarıstan)

**B qrupu**
"Arsenal" (İngiltərə)
"Rapid" (Avstriya)
"Molde" (Norveç)
"Dandolk" (İrlandiya)

**C qrupu**
"Bayer" (Almaniya)
"Slaviya" (Çexiya)
"Hapoel" (Beer-Şeva, İsrail)
"Nitsa" (Fransa)

**D qrupu**
"Benfika" (Portuqaliya)
"Standard" (Belçika)
"Reyncers" (Şotlandiya)
"Lex" (Polşa)

**E qrupu**
PSV (Niderland)
PAOK (Yunanıstan)
"Qranada" (İspaniya)
"Omoniya" (Kipr)

**F qrupu**
"Napoli" (İtaliya)
"Real Sosyedad" (İspaniya)
"Alkmaar" (Niderland)
"Riyeka" (Xorvatiya)

**G qrupu**
"Braqa" (Portuqaliya)
"Lester" (İngiltərə)
AEK (Yunanıstan)
"Zarya" (Ukrayna)

**H qrupu**
"Seltik" (Şotlandiya)
"Sparta" (Çexiya)
"Milan" (İtaliya)
"Lill" (Fransa)

**İ qrupu**
"Vilyarreal" (İspaniya)
"Qarabağ" (Azərbaycan)
"Makkabi" (Təl-Əviv, İsrail)
"Sivasspor" (Türkiyə)

**J qrupu**
"Tottenhem" (İngiltərə)
"Ludoqorets" (Bolqarıstan)
LASK (Avstriya)
"Antverpen" (Belçika)

**K qrupu**
MOİK (Rusiya)
"Dinamo" (Zaqreb, Xorvatiya)
"Feyenoord" (Niderland)
"Volfsberger" (Avstriya)

**L qrupu**
"Gent" (Belçika)
"Srvena Zvezda" (Serbiya)
"Hoffenhaym" (Almaniya)
"Slovan" (Çexiya)

# AFFA rəsmisi Millətlər Liqasının matçına təyin aldı

***AFFA-nın Hakimlər Komitəsinin sədri Frits Ştuxlik beynəlxalq oyuna təyinat alıb.***

"Unikal" qəzetinin məlumatına görə, o, UEFA Millətlər Liqasının qrup mərhələsində keçiriləcək Kosovo - Sloveniya oyununun hakim-inspektoru olacaq.

Qeyd edək ki, qarşılaşma oktyabrın 11-də Priştina şəhərində keçiriləcək.

# "Qarabağ" güclü komandadır" - Rıza Çalımbay

***"Yaxşı qrupa düşmüşük". "Unikal" qəzetinin məlumatına görə, bunu "Sivasspor"un baş məşqçisi Rıza Çalımbay Avropa Liqasının qrup mərhələsinin püşkatmasını dəyərləndirərkən deyib.***

Türkiyə klubu Azərbaycan çempionu "Qarabağ", həmçinin İsrail təmsilçisi "Makkabi" (Təl-Əviv) və İspaniya "Vilyarreal"ı ilə İ qrupun da mübarizə aparacaq.

Çalımbay hədəflərinin qrupdan çıxmaq olduğunu söyləyib: "Mən "Dənizlispor"da olarkən çox çətin qrupa düşmüşdük. "Lion", "Sparta", "Porto" var idi. Həmin qrupdan çıxmışdıq. İnşallah, bu qrupdan da çıxacağıq. Yenə asan qrupa düşməmişik. "Vilyarreal-"ı, onsuz da, hamı tanıyır. "Qarabağ" və "Makkabi" də güclü komandalardır. Heyətimizi Avropa Liqasına uyğun qurmuşuq. Ölkəmizin xala ehtiyacının olması bizi daha çox həvəsləndirir. Həm ölkəmiz, həm də özümüz üçün mübarizə aparacağıq. Yaxşı oyunçularımız var, gözəl işlər görəcəyimizi düşünürəm. Komandamızı növbəti mərhələyə çıxaracağıq".

Qeyd edək ki, qrup mərhələsində I tur 22 oktyabr, II tur 29 oktyabr, III tur 5 noyabr, IV tur 26 noyabr, V tur 3 dekabr, VI tur 10 dekabrda keçiriləcək.

# ÇL-də qrup mərhələsinin püşkü atıldı

***Bu gün futbol üzrə UEFA Çempionlar Liqasında qrup mərhələsinin püşkatma mərasimi keçirilib.***

"Unikal" qəzeti xəbər verir ki, UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında baş tutan tədbirə Bakı vaxtı ilə saat 19:00-da start verilib.

Qitənin ən nüfuzlu klub turnirində mübarizə aparan 32 komanda püşklə 8 qrupa bölünüb. Qonşu Türkiyə çempionu "Başakşəhər"in də qrupdakı rəqibləri bilinib.

Qeyd edək ki, qrup mərhələsində 1-ci tur 20/21 oktyabr, 2-ci tur 27/28 oktyabr, 3-cü tur 3/4 noyabr, 4-cü tur 24/25 noyabr, 5-ci tur 1/2 dekabr, 6-cı tur isə 8/9 dekabrda keçiriləcək.




**A qrupu**
Bavariya (Almaniya)
Atletiko (İspaniya)
Zalsburq (Avstriya)
Lokomotiv (Rusiya)

**B qrupu**
Real (İspaniya)
Şaxtyor (Donetsk, Ukrayna)
İnter (İtaliya)
Borussiya (Münhenqladbax, Almaniya)

**C qrupu**
Portu (Portuqaliya)
Mançester Siti (İngiltərə)
Olimpiakos (Yunanıstan)
Olimpik (Marsel, Fransa)

**D qrupu**
Liverpul (İngiltərə)
Ayaks (Niderland)
Atalanta (İtaliya)
Midtyulland (Danimarka)

**E qrupu**
Sevilya (İspaniya)
Çelsi (İngiltərə)
Krasnodar (Rusiya)
Renn (Fransa)

**F qrupu**
Zenit (Rusiya)
Borussiya (Dortmund, Almaniya)
Latsio (İtaliya)
Brügge (Belçika)

**G qrupu**
Yuventus (İtaliya)
Barselona (İspaniya)
Dinamo (Kiyev, Ukrayna)
Ferentsvaroş (Macarıstan)

**H qrupu**
PSJ (Fransa)
Mançester Yunayted (İngiltərə)
Leyptsiq (Almaniya)
Başakşəhər (Türkiyə)

# Millimizin Slovakiya və Gürcüstanla oyunlar üçün heyəti açıqlandı SİYAHI

***Avropa çempionatının seçmə mərhələsi çərçivəsində oktyabrın 8-də Nitra şəhərində Slovakiya, oktyabrın 13-də isə Qori şəhərində Gürcüstan yığması ilə qarşılaşacaq 21 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının iki oyun üçün heyəti açıqlanıb.***




"Unikal" qəzeti xəbər verir ki, yığmanın baş məşqçisi Milan Obradoviç 25 futbolçuya dəvət göndərib:

1 Kamran İbrahimov - Neftçi
2 Şahin Zəkiyev - Səbail
3 Nicat Mehbaliyev - Sabah
4 Rauf Hüseynli - Qarabağ
5 Mərt Çelik - Neftçi
6 Turan Manafov - Səbail
7 Hüseyin Seyliğli - Darıca Gənclərbirliyi (Türkiyə)
8 Nihad Tamazov - Qarabağ
9 Rüfət Əhmədov - Qəbələ
10 Emre Kaplan - Başakşəhər (Türkiyə)
11 Ömər Buludov - Neftçi
12 Turan Vəlizadə - Keşlə
13 Hacıağa Hacılı - Zirə
14 İdris İnqilablı - Qəbələ
15 Fərid Nəbiyev - Vitoriya Jijkov (Çexiya)
16 Barış Ekincier - Bohum (Almaniya)
17 Səbuhi Abdullazadə - Sumqayıt
18 Rövlan Muradov - Qəbələ
19 Toral Bayramov - Qarabağ
20 Rüfət Abdullazadə - Sumqayıt
21 Elvin Cəfərquliyev - Qarabağ
22 Ozan Can Kökcü - Sabah
23 Süleyman Əhmədov - Sumqayıt
24 Mustafa Yıldırım - Alanyaspor
25 Doğukan Öksüz - Yormaspor (Türkiyə)

Səhifəni hazırladı: Aygün İlqarqızı

# "Müharibə başlayandan sevincimdən ağlayıram" - Əməkdar artist

***Prezidentin əks-hücum qərarını çox yüksək qəbul edirəm, sevincimin həddi-hüdudu yoxdur.***

Bunu Milli.Az-a açıqlamasında I Qarabağ müharibəsində döyüş yolu keçmiş Əməkdar artist Cabir Abdullayev deyib. Sənətçi bildirib ki, bu gün hərbi formanı əyninə geyinən, geyinməyən hamı ayaqüstədir, hamı qələbə xəbərini gözləyir: "Şükür Allaha ki, 30 ilə yaxındır gözlədiyimiz gündür, andı, məqamdır. Düşməndən qisas almağın tam bir məqamıdır. Həm də ona sevinirəm ki, bu gün, həqiqətən, güclü ordumuz var. Mənə elə gəlir uzaqda deyil, tam qələbəmizi qeyd edəcəyik. Bir azərbaycanlı, bir qarabağlı kimi də çox sevinirəm. İnsanlarda çox yüksək səviyyədə döyüş əhval-ruhiyyəsi görürəm.

I Qarabağ müharibəsində



də bizim igid oğlanlarımız var idi. Allah şəhidlərimizə rəhmət eləsin. Bu gün, demək olar ki, Ali baş Komandanımız başda olmaqla Azərbaycanın bütün böyüyündən balacasına kimi, 7-dən 77-yə qədər hamısı döyüşməyə, canından keçməyə hazırdır ki, Qarabağımız düşmən tapdağından azad olsun. Bizim buna haqqımız da var, haqq biz tərəfdir. Cənab prezidentin çıxışında belə bir söz eşitdim mən, dedi ki, "Biz bir santimetr də torpağımızı heç kimə verməyəcəyik". Bu açıqlama da çox qürurvericidir. Bu gün hərbi formanını əyninə geyinən, geyinməyən hamı ayaqüstədir, hamı hər an qələbə xəbərini gözləyir ki, bayrağımızı Şuşada, Laçında sancaq və birdəfəlik bu məsələni həll edək. O gün çox uzaqda deyil. İnanın ki, döyüş başlayan andan mən sevinc gözyaşlarımı saxlaya bilmirəm. Çünki bu, bütün Azərbaycan xalqının gözlədiyi gün idi. Şükür Allaha ki, Allah bunu bizə nəsib etdi. Göydə Allah, yerdə bizim əsgərlərimiz, Ali Baş Komandanımız, inşAllah biz bu qələbəni çalacağıq".

# "Mən döyüşlərdə deyiləm!"- İlkin Əhmədov



***Cəbhədə döyüşlərdə olduğu deyilən əməkdar artist, xanəndə İlkin Əhmədovdan xəbər var.***

"Unikal" big.az-a istinadla xəbər veriri ki, sənətçi "İnstagram" səhifəsində maraqlı açıqlama verir.

Həmin açıqlamanı təqdim edirik.

"Əzizlərim, mən artıq 5 gündür ki, sosial şəbəkələrdən istifadə edə bilmirdim. Buradan sözüm bəzi saytlaradır! Dəqiq bilmədiyiniz informasiyanı nə mənim haqqımda, nə də mövcud vəziyyətlə bağlı qətiyyən verməyin! Mən könüllü olaraq qeydiyyatdan keçmişəm. Ancaq sözügedən bölgədə və yaxud başqa döyüş gedən bölgələrdə döyüşlərdə deyiləm. Bir daha saytlarımızdan xahiş edirəm ki, bölgə, ərazi adları çəkməyin!

Ümumiyyətlə Müdafiə Nazirliyinin tez-tez və dəqiq verdiyi xəbərləri gözləyin. Qələbə Azərbaycanındır! Yaşasın şanlı və qüdrətli ordumuz!".



# "Qarabağdan mənim də səsim gələcək" – Flora Kərimova

***"Nisgilli ürəklərin kamını alan igidlərim, analarınızın südü, torpağımızın çörəyi sizə halal olsun. Şəhidlərin ruhu sizi qorusun, gedənlərə Allah rəhmət eləsin".***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri Xalq artisti Flora Kərimova deyib. Sosial şəbəkədə video paylaşan müğənni ötən gün bir çox kəndin düşməndən azad edilməsi xəbərindən danışıb. O bildirib ki, sevincindən ağlayıb: "Bizə vətənimizi bağışlayan şəhidlərin ruhu şad olsun. Sevindiyimdən ağlayıram. Sevinirəm... Bu günü yaşadığım üçün Allaha şükür edirəm. Yaradana yalvarırdım ki, üzünü bizim tərəfə çevir. Axır ki, yadına düşdük. Bu yolda səbrlə irəliləyən dövlətimə çox sağ ol deyirəm. Hamımız sizə borcluyuq. Sevincimizi, göz yaşlarımızı, Qarabağ deyən sözlərimizi... Bayramınız mübarək. Düşünürəm ki, hələ təbriklər və xoş günlər qabaqdadır. Yaşım çatsa, Qarabağdan mənim də səsim gələcək".